


8

METODİK VƏSAİT

# HƏYAT BİLGİSİ





# Azərbaycan Respublikasının Dövlət Himni

*Musiqisi Üzeyir Hacıbəylinin,*
*sözləri Əhməd Cavadındır.*

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!
Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!

*NÜŞABƏ MƏMMƏDOVA*
*KÖNÜL MAHMUDOVA*
*SEVİL BƏHRƏMOVA*

*Ümumtəhsil məktəblərinin 8-ci sinfi üçün*

# HƏYAT BİLGİSİ

*fənni üzrə dərsliyin*

## METODİK VƏSAİTİ

Bu nəşrlə bağlı irad və təkliflərinizi
**info@eastwest.az** və **derslik@edu.gov.az**
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

ŞƏRQ-QƏRB

# MÜNDƏRİCAT


DƏRSLİK KOMPLEKTİ HAQQINDA ........ 5

8-ci SİNİF HƏYAT BİLGİSİ FƏNNİ ÜZRƏ MƏZMUN STANDARTLARI ........ 7

MƏZMUN STANDARTLARI ÜZRƏ ŞƏRHLƏR ........ 9

FƏNN ÜZRƏ MƏZMUN STANDARTLARININ REALLAŞMA CƏDVƏLİ ........ 13

HƏYAT BİLGİSİ FƏNNİNİN TƏDRİSİNDƏ İSTİFADƏ OLUNAN TƏLİM FORMA VƏ ÜSULLARI ........ 14

ŞAGİRDLƏRİN QRUPLARA BÖLÜNMƏSİ ÜSULLARI ........ 20

İLLİK PLANLAŞDIRMANIN APARILMASINA DAİR TÖVSİYƏLƏR ........ 21

ŞAGİRD NAİLİYYƏTLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİNƏ DAİR TÖVSİYƏLƏR ........ 24

ŞAGİRDLƏRİN ÖYRƏNMƏ TƏRZİ ........ 30

MÖVZULARIN GÜNDƏLİK PLANLAŞDIRILMASINA DAİR NÜMUNƏLƏR ........ 31


**MÖVZULARIN GÜNDƏLİK PLANLAŞDIRILMASI**


**I TƏDRİS VAHİDİ: TƏBİƏTDƏKİ QANUNAUYĞUNLUQLAR** ........ 37

1. MATERİYA – MADDƏ VƏ SAHƏ ........ 38

2. KAİNATDA BAŞ VERƏN HADİSƏLƏRİN SİRRİ ........ 39

3. EKOLOJİ TARAZLIQ ........ 40

4. EKOLOJİ TARAZLIĞIN QORUNMASI VƏ BƏRPASI ... 44

I TƏDRİS VAHİDİ ÜZRƏ QİYMƏTLƏNDİRMƏ VASİTƏLƏRİNƏ DAİR NÜMUNƏLƏR ... 45

**II TƏDRİS VAHİDİ: CƏMİYYƏT VƏ DÖVLƏT** ... 47

1. CƏMİYYƏTİN İNKİŞAFINDA İNTEQRASİYANIN ROLU ... 48

2. DÖVLƏT HAKİMİYYƏTİ ... 49

3. İNSAN HÜQUQLARI ... 50

4. İNSAN HÜQUQLARININ POZULMASI ... 51

5. İQTİSADİYYAT. MALİYYƏ ... 53

6. VERGİ ... 54

7. SIĞORTA ... 55

II TƏDRİS VAHİDİ ÜZRƏ QİYMƏTLƏNDİRMƏ VASİTƏLƏRİNƏ DAİR NÜMUNƏLƏR ... 57

**III TƏDRİS VAHİDİ: MƏNİM MƏNƏVİ DÜNYAM** ... 61

1. MÜNASİBƏTİ NECƏ QURURUQ? ... 62

2. İNSANLARARASI MÜNASİBƏTLƏR ... 63

3. VƏZİFƏLƏRİMİZ VƏ MƏSULİYYƏTİMİZ ........ 64

4. MƏNİM MƏNƏVİ BORCUM ........ 65

5. DİNİ-ƏXLAQİ DƏYƏRLƏR ........ 66

III TƏDRİS VAHİDİ ÜZRƏ QİYMƏTLƏNDİRMƏ VASİTƏLƏRİNƏ DAİR NÜMUNƏLƏR ........ 67

**IV TƏDRİS VAHİDİ: TƏHLÜKƏSİZ VƏ SAĞLAM YAŞA** ........ 69

1. SAĞLAM HƏYAT – SAĞLAM AİLƏ ........ 70

2. TƏHLÜKƏSİZ HƏYAT ........ 71

3. TƏBİƏTİN CANLI TƏHLÜKƏLƏRİ ........ 72

4. YOL HƏRƏKƏTİNİN NİZAMLANMASI ........ 73

5. BİR-BİRİMİZƏ DƏSTƏK OLAQ ........ 74

IV TƏDRİS VAHİDİ ÜZRƏ QİYMƏTLƏNDİRMƏ VASİTƏLƏRİNƏ DAİR NÜMUNƏLƏR ........ 76

İSTİFADƏ EDİLMİŞ VƏ MÜƏLLİMİN İSTİFADƏ EDƏ BİLƏCƏYİ MƏNBƏLƏR ........ 78

**Hörmətli müəllimlər!** Sizə təqdim olunmuş Həyat bilgisi dərslik komplekti Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün 8-ci sinif Həyat bilgisi fənn proqramı (kurikulumu) əsasında hazırlanmışdır.

Dərslik komplektində nəzərdə tutulan materiallardan daha səmərəli istifadə etmək üçün bəzi xüsusiyyətləri nəzərinizə çatdırmaq istərdik.

Dərslikdə Həyat bilgisi fənn kurikulumunun məzmununa daxil olan bütün məzmun standartları 4 bölmədə birləşən 21 mövzuda reallaşdırılmışdır.

Dərslikdə verilmiş bütün mövzularda standartlar reallaşdırılmış, şagirdlərin yaş xüsusiyyətləri nəzərə alınmış, mövzuların sadə dildə və lakonik olması gözlənilmişdir. Bu məqsədlə çoxsaylı sxemlərdən, şəkillərdən, praktik tapşırıqlardan istifadə olunmuş, yeni sözlərin, terminlərin izahına yer ayrılmışdır. Təlim materialları sadədən mürəkkəbə, məntiqi və xronoloji ardıcıllıq nəzərə alınmaqla düzülmüşdür. Hər mövzu praktik bacarıqlar formalaşdırmaqla yanaşı, verilmiş sual və tapşırıqlar şagirdlərin məntiqi, tənqidi və yaradıcı təfəkkürünün inkişafına yönəldilmişdir.

Dərslikdəki hər bir mövzu aşağıdakı kimi qruplaşdırılmışdır:



1

SAĞLAM HƏYAT – SAĞLAM AİLƏ

(A) *Cəmiyyətin ən qiymətli sərvəti sağlam insandır. Hər bir insan üçün can sağlığından böyük nemət yoxdur. Lakin sürətlə inkişaf edən müasir cəmiyyətdə texniki tərəqqi insan sağlamlığına müəyyən dərəcədə zərər vurur.*

*Sağlamlıq insanın uzunömürlülüyünü, yaradıcı əməkdə iştirakını təmin edən, ailə qurmağa, uşaqların tərbiyəsinin qayğısına qalmağa kömək edən fiziki və ruhi keyfiyyətlərin məcmusudur.*

(C) Yer kürəsində harada yaşamasından asılı olmayaraq hər bir insanın həyatı qiymətlidir. İnsanların yaşaması, öz qabiliyyətlərini inkişaf etdirməsi üçün normal həyat şəraiti yaradılmalı, həyat səviyyəsi daim yüksəldilməlidir.

(B) Yadınıza salın, sağlam olmaq üçün hansı şərtlərə əməl olunmalıdır?

(C) Gənclərimizin təhsili, məşğulluğu, sağlamlığı dövlətin daim diqqət mərkəzindədir. Sağlamlığın şərtlərindən biri olan reproduktiv sağlamlıq yalnız tibbi anlayış olmayıb, eyni zamanda özündə sosial, mənəvi və psixoloji komponentləri birləşdirir. Reproduktiv sağlamlıq insanın fiziki, mənəvi və sosial rifah halıdır. Gənclərin reproduktiv sağlamlığının qorunması dövlətin ən vacib, prioritet sahələrindəndir. Bu gün reproduktiv sağlamlıq qlobal məsələlərdən biri hesab olunur. Hazırda gənclərin ailə qurarkən rastlaşdıqları çətinliklər, maddi və mənəvi ehtiyaclar, onların sosial müdafiəsi bu məsələyə həssas yanaşma tələb edir.

(B) Reproduktiv sağlamlığın qorunması nə üçün sağlam həyat tərzinin əsas şərti hesab olunur?

(C) Cəmiyyətin sağlamlıq göstəricilərindən biri olan reproduktiv sağlamlığın qorunmaması insanların həyatında ciddi təhlükələr yarada bilər. Çünki reproduktiv sağlamlı-

(B) Reproduktiv sağlamlığın təməli uşaq yaşlarında qoyulur, yeniyetməlik dövründə güclü inkişaf edir və həyat boyu qorunub saxlanılır.

Qız və oğlanlarda yeniyetməlik dövründə hansı fərqli xüsusiyyətlər müşahidə olunur?

(C) Yeniyetməlik dövründə qızların və oğlanların orqanizmində aşağıdakı **ümumi dəyişikliklər** baş verir:

- *Boyda və çəkidə artım, əzələ sistemində inkişaf*
- *Cinsi yetişkənlik*
- *Səsin dəyişməsi (qızlarda nisbətən az)*
- *Dərinin piy vəzilərinin aktivliyi, bəzən sızanaqların əmələ gəlməsi*
- *Qoltuqaltı tər vəzilərinin inkişafı*

Gigiyenik tərbiyənin ilk təməli ailədə qoyulur. Bəzən gənc anaların buraxdığı səhvlər müəyyən xoşagəlməz hallara səbəb olur. Uşaqların fiziki sağlamlığının bir qolu olan reproduktiv sağlamlığa laqeyd münasibət bir çox ağır xəstəliklərə və hətta sonsuzluğa gətirib çıxarır.

*Şəxsi gigiyena dəri, saç və dırnaqlara, hərəkət və qamətə, geyimə, qidalanmaya verilən gigiyenik tələblərin, reproduktiv orqanlara qulluq etməyin kompleks vəhdətidir. Reproduktiv orqanlar, onların funksiyaları, onlara qulluq qaydaları haqqında məlumatsızlıq qarşısıalınmaz xəstəliklərə səbəb ola bilər. Çoxalma sistemi ifrazat sistemi ilə əlaqəli olduğuna görə onun gigiyenası vacibdir. Gigiyenik qaydalara əməl olunmadıqda infeksiyalar yayılaraq həm cinsiyyət orqanlarını, həm də ifrazat orqanlarını zədələyir, müxtəlif xəstəliklər törədir.*

(F)
- Reproduktiv sağlamlığın qorunmasının qlobal problem hesab olunmasının səbəbini araşdırın, sinif yoldaşlarınızla fikirlərinizi müzakirə edin.
- Azərbaycan Respublikasının Konstitusiyasına əsasən qadınların hüquqlarını araşdırın, hüquqların qorunmasının əhəmiyyətini sinif yoldaşlarınızla müzakirə edin.

66

Ⓐ **Motivasiya.** Mövzu ilə bağlı problemli situasiya yaradılır və bəzi hallarda suallarla yekunlaşır.

Ⓑ **Araşdırma məqsədilə verilmiş tapşırıqlar.** Burada maraq yaradılan hadisələrin araşdırılmasına yönəlmiş tədqiqat xarakterli tapşırıqlar verilir. Bu bənd bir qisim mövzular üçün nəzərdə tutulmuşdur. Bu məqsədlə hansısa bir hadisə verilir və bu hadisənin baş-vermə səbəbi, nəticələri araşdırılaraq digər şagirdlərlə müzakirə edilməsi nəzərdə tutulur.

Ⓒ **Yeni biliklər.** Mövzu ilə bağlı izahatlar, dərsin əsas məzmunu dərsliyin bu hissəsində verilir.

Ⓓ **Diqqət yetirilməli fikirlər.** Mövzu ilə bağlı statistik məlumatlar, maraqlı faktlar və hadisələr haqqında məlumatlar verilir.

Ⓔ **Yeni terminlər.** Standartın reallaşmasına xidmət edən yeni terminlərin izahı verilir.

Ⓕ **Suallar və tapşırıqlar.** Bu, standartda nəzərdə tutulan əsas bilik və bacarıqların hansı səviyyədə reallaşdırılmasını müəyyənləşdirməyə xidmət edir. Təqdim olunmuş tapşırıqlar məntiqi, tənqidi və yaradıcı təfəkkürün inkişafına yönəlmişdir. Bu tapşırıqların tədqiqatın aparılması mərhələsində, ev tapşırıqlarının verilməsində istifadəsi nəzərdə tutulmuşdur.

Metodik vəsait sizə öz işinizi qurmağa – dərsi planlaşdırmağa, qiymətləndirmə vasitələrini hazırlamağa kömək edəcəkdir.

Metodik vəsaitdə hər bir mövzunun tədrisi ilə bağlı tövsiyələr öz əksini tapır. Bu tövsiyələr bizim tərəfimizdən sizə istiqamət vermək üçün tərtib olunmuşdur. Verilmiş standartların tələblərini aşmamaq şərtilə öz sinfinizin, məktəbinizin, regionunuzun imkan və şəraitinə müvafiq strategiyasını müəyyənləşdirə bilərsiniz. Ümidvarıq ki, hazırladığımız dərslik və metodik vəsait bu işdə sizə düzgün istiqamət verəcəkdir.

Mmetodik vəsaitdə aşağıdakı materiallar öz əksini tapmışdır:

- **8-ci sinif Həyat bilgisi fənni üzrə məzmun standartları;**
- **Fənn üzrə məzmun standartlarının reallaşdırılma cədvəli;**
- **Həyat bilgisi fənninin tədrisində istifadə olunan təlim forma və üsulları;**
- **Şagirdlərin qruplara bölünməsi üsulları;**
- **İllik planlaşdırmanın aparılmasına dair tövsiyələr;**
- **Şagird nailiyyətlərinin qiymətləndirilməsinə dair tövsiyələr;**
- **Şagirdlərin öyrənmə tərzi;**
- **Mövzuların gündəlik planlaşdırılmasına dair nümunələr;**
- **Summativ qiymətləndirmə vasitələri;**
- **İstifadə edilmiş və müəllimin istifadə edə biləcəyi mənbələr.**

# 8-ci SİNİF HƏYAT BİLGİSİ FƏNNİ ÜZRƏ MƏZMUN STANDARTLARI

## 8-ci sinfin sonunda şagird:

- materiyanın quruluşunun və kainatda baş verən proseslərin ümumi qanunlara tabe olmasını əsaslandırır;
- ekoloji tarazlığın qorunması və bərpasına dair layihələr hazırlayır;
- cəmiyyətin inkişafında inteqrasiyanı və cəmiyyətin idarə olunmasında dövlət hakimiyyətinin bölünməsini əsaslandırır;
- tarixi hadisələrin, faktların və ədəbi əsərlərin nümunəsində insan hüquqlarının pozulmasına dair təqdimat hazırlayır;
- istehsal infrastrukturlarına dair təqdimat hazırlayır;
- insanlararası münasibətlərdə ümumi cəhətlərin, insan mənəviyyatının formalaşmasında vəzifə və məsuliyyətin əhəmiyyətini dəyərləndirir;
- vətən və dövlət qarşısında mənəvi borcunu dərk etdiyini nümayiş etdirir, cəmiyyətdə birgəyaşayış qaydalarının formalaşmasında dini-əxlaqi dəyərlərin rolunu qiymətləndirir;
- reproduktiv sağlamlığın qorunmasını sağlam həyat tərzinin əsas şərti kimi dəyərləndirir;
- konkret situasiyalarda təhlükəsiz davranış və yol hərəkəti qaydalarından istifadə edir;
- fövqəladə halların nəticələrinin aradan qaldırılmasında birgəfəaliyyət bacarıqlarını nümayiş etdirir.

## Məzmun xətləri üzrə əsas və alt standartlar

**1. Təbiət və biz**

**Şagird:**

*1.1. Varlıq və hadisələrə, onların qarşılıqlı əlaqəsinə dair bilik və bacarıqlar nümayiş etdirir.*

1.1.1. Materiyanın quruluşunun və kainatda baş verən proseslərin ümumi qanunlara tabe olmasını əsaslandırır.

*1.2. Ekoloji tarazlığın qorunmasına dair bilik və bacarıqlar nümayiş etdirir.*

1.2.1. Ekoloji tarazlığın qorunmasına və bərpasına dair layihələr hazırlayır.

**2. Fərd və cəmiyyət**

**Şagird:**

*2.1. Cəmiyyətin sosial mahiyyətinə və idarəetmə formalarına dair bilik və bacarıqlar nümayiş etdirir.*

2.1.1. Cəmiyyətin inkişafında sahələrarası inteqrasiyanın əhəmiyyətini əsaslandırır.

2.1.2. Cəmiyyətin idarə olunmasında dövlət hakimiyyətinin bölünməsi prinsipini əsaslandırır.

*2.2. Hüquqi mədəniyyətə malik olduğunu nümayiş etdirir.*

2.2.1. Əsas insan hüquqlarını fərqləndirir.

2.2.2. Tarixi hadisələrin, faktların və ədəbi əsərlərin nümunəsində insan hüquqlarının pozulmasına dair təqdimatlar hazırlayır.

*2.3. İqtisadi bilik və bacarıqlara yiyələndiyini nümayiş etdirir.*

2.3.1. İstehsal infrastrukturlarına (maliyyə, vergi, sığorta) dair təqdimatlar hazırlayır.

**3. Mənəviyyat**
**Şagird:**
*3.1. Ünsiyyət mədəniyyətinə dair bilik və bacarıqlar nümayiş etdirir.*
3.1.1. İnsanlararası münasibətlərdə ümumi cəhətlərin əhəmiyyətini dəyərləndirir.
*3.2. İnsan mənəviyyatını formalaşdıran amillərə dair bilik və bacarıqlar nümayiş etdirir.*
3.2.1. İnsan mənəviyyatının formalaşmasında vəzifə və məsuliyyətin əhəmiyyətini dəyərləndirir.
3.2.2. Vətən və dövlət qarşısında mənəvi borcunu dərk etdiyini nümayiş etdirir.
*3.3. Mənəviyyatın formalaşmasında dinin rolunu dəyərləndirir*.
3.3.1. Cəmiyyətdə birgəyaşayış qaydalarının formalaşmasında dini-əxlaqi dəyərlərin rolunu qiymətləndirir.

**4. Sağlamlıq və təhlükəsizlik**
**Şagird:**
*4.1. Sağlam həyat tərzinə dair bilik və bacarıqlar nümayiş etdirir.*
4.1.1. Reproduktiv sağlamlığın qorunmasını sağlam həyat tərzinin əsas şərti kimi dəyərləndirir.
*4.2. Məişətdə və ictimai yerlərdə təhlükəsiz davranış qaydalarına dair bilik və bacarıqlar nümayiş etdirir.*
4.2.1. Təhlükəsiz davranış qaydalarına əməl etdiyini konkret situasiyalarda nümayiş etdirir.
4.2.2. Konkret situasiyalarda yol hərəkəti qaydalarından istifadə edir.
*4.3. Fövqəladə hallarla bağlı bilik və bacarıqlar nümayiş etdirir.*
4.3.1. Fövqəladə halların nəticələrinin aradan qaldırılmasında birgəfəaliyyət bacarıqları nümayiş etdirir.

## MƏZMUN STANDARTLARI ÜZRƏ ŞƏRHLƏR

Verilmiş şərhlər tövsiyə xarakteri daşıyır

| Standart | Şərhlər | Açar sözlər |
|---|---|---|
| | **1. Təbiət və biz** | |
| | **1.1. Varlıq və hadisələrə, onların qarşılıqlı əlaqəsinə dair bilik və bacarıqlar nümayiş etdirir.** | |
| 1.1.1. Materiyanın quruluşunun və kainatda baş verən proseslərin ümumi qanunlara tabe olmasını əsaslandırır. | Materiyanın iki forması: maddə və sahənin olması, maddələrin quruluşu, bərk, maye və qaz halında olmaları, eyni maddələrin tərkibini təşkil edən zərrəciklərin eyniliyi, bütün maddələrin atom və molekullardan təşkil olunması barədə izahat verir.<br>Kainatda baş verən proseslərdən ona tanış olanların ümumi cəhətlərini şərh edir və onların ümumi qanunlara tabe olduğunu əsaslandırır. | Materiyanın quruluşu, eyniliyi, kainatda baş verən proseslər, ümumi qanunlar, işıq, istilik hadisələri, Günəş və Ay tutulmaları |
| | **1.2. Ekoloji tarazlığın qorunmasına dair bilik və bacarıqlar nümayiş etdirir.** | |
| 1.2.1. Ekoloji tarazlığın qorunmasına və bərpasına dair layihələr hazırlayır. | Təbiətdə ekoloji tarazlığın mövcudluğunu faktlarla sübut edir. Ekoloji tarazlığın pozulmasının fəsadlarından (havanın çirklənməsi, şirin su ehtiyatlarının tükənməsi, yaşıllıq sahələrinin azalması, torpaqların şoranlaşması) bəzilərinin səbəblərini şərh edir. Ekoloji tarazlığın bərpasının zəruriliyini sübut edir, bunun üçün özünün layihələrini hazırlayır və müdafiə edir. | Havanın çirklənməsi, yaşıllıq sahələri |
| | **2. Fərd və cəmiyyət** | |
| | **2.1. Cəmiyyətin sosial mahiyyətinə və idarəetmə formalarına dair bilik və bacarıqlar nümayiş etdirir.** | |
| 2.1.1. Cəmiyyətin inkişafında sahələrarası inteqrasiyanın əhəmiyyətini əsaslandırır. | Cəmiyyətin inkişafında iqtisadi, sosial, siyasi, mənəvi sahələrin qarşılıqlı təsirinin, bir-birinə inteqrasiyasının əhəmiyyətini əsaslandırır. | İnteqrasiya, qarşılıqlı təsir |
| 2.1.2. Cəmiyyətin idarə olunmasında dövlət hakimiyyətinin bölünməsi prinsipini əsaslandırır. | Hüquqi dövlətin əsas əlamətlərindən biri kimi dövlət hakimiyyətinin bölünməsi prinsipinin – qanunvericilik hakimiyyətinin Milli Məclis, icra hakimiyyətinin prezident, məhkəmə hakimiyyətinin respublika məhkəmələri tərəfindən həyata keçirilməsini əsaslandırır. Qanunvericilik, icra və məhkəmə funksiyalarının müvafiq dövlət orqanları tərəfindən müstəqil icra olunmasının cəmiyyət həyatının demokratik formada idarə olunmasına təsir etdiyini bilir. | Qanunverici hakimiyyət, icraedici hakimiyyət, məhkəmə hakimiyyəti |

| Standart | Şərhlər | Açar sözlər |
| --- | --- | --- |
| | **2.2. Hüquqi mədəniyyətə malik olduğunu nümayiş etdirir.** | |
| 2.2.1. Əsas insan hüquqlarını fərqləndirir. | Beynəlxalq və ölkə sənədlərində, qanunvericilikdə təsbit edilmiş əsas insan hüquqlarını sadalayır və şərh edir, onları əhəmiyyətlilik dərəcəsinə görə sıralayır və qanunların pozulmasının hüquqlara zidd olduğunu şərh edir. Onları insan hüquqları baxımından fərqləndirir. | İnsan hüquqları, işgəncə, yaşama, fikrini sərbəst ifadəetmə |
| 2.2.2. Tarixi hadisələrin, faktların və ədəbi əsərlərin nümunəsində insan hüquqlarının pozulmasına dair təqdimatlar hazırlayır. | İnsan hüquqlarının pozulmasına dair tarixi faktlar, ədəbi əsərlərdən parçalar toplayır. Topladığı materiallar əsasında hüquq pozuntularına dair təqdimatlar hazırlayır. | Tarixi hadisələr, faktlar, ədəbi əsərlər, nümunə, insan hüquqları |
| | **2.3. İqtisadi bilik və bacarıqlara yiyələndiyini nümayiş etdirir.** | |
| 2.3.1. İstehsal infrastrukturlarına (maliyyə, vergi, sığorta) dair təqdimatlar hazırlayır. | Bazar iqtisadiyyatının inkişafının vacib amillərindən birinin onun infrastrukturu olmasını izah edir. İnfrastrukturun, əsasən, maliyyə (iqtisadiyyat üçün tələb olunan maliyyə resurslarının idarə olunmasını), vergi, sığortadan (iqtisadi və təbii risklərdən qorunmasından) ibarət olduğunu əsaslandırır və təqdimatlar hazırlayır. | İnfrastruktur, maliyyə, resurs, idarə olunma, vergi, sığorta |
| **3. Mənəviyyat** | | |
| | **3.1. Ünsiyyət mədəniyyətinə dair bilik və bacarıqlar nümayiş etdirir.** | |
| 3.1.1. İnsanlararası münasibətlərdə ümumi cəhətlərin əhəmiyyətini dəyərləndirir. | İnsanlardakı eynilikləri və fərqlilikləri ayırd edərək onları dəyərləndirir. Bu fərqliliklərin insanın öz iradəsindən asılı olmadığını əsas qəbul edərək insanlararası münasibətlərdə fərqliliklərin önə çıxarılmasının həsədin, kinin, düşmənçiliyin, irqçiliyin oyanıb qol-qanad açması, müharibələr, dağıntılar, fəlakətlər, müsibətlərlə nəticələndiyini izah edərək dəyərləndirir. | İnsanlararası münasibət, fərqlilik, eynilik |

| Standart | Şərhlər | Açar sözlər |
|---|---|---|
| | **3.2. İnsan mənəviyyatını formalaşdıran amillərə dair bilik və bacarıqlar nümayiş etdirir.** | |
| 3.2.1. İnsan mənəviyyatının formalaşmasında vəzifə və məsuliyyətin əhəmiyyətini dəyərləndirir. | İnsanın vəzifələrini təsnif etmək:<br>*a) İlahi vəzifələri* (Allah qarşısında; peyğəmbər qarşısında);<br>*b) Şəxsi vəzifələri* (bədənin tərbiyəsi, sağlamlığı qorumaq; zərərli vərdişlərdən uzaq durmaq, iradəni gücləndirmək, ağlı və zehni elm nuru ilə aydınlatmaq, qəlbdə faydalı və ali duyğular oyatmaq, elm və mərifət əldə etmək də əhəmiyyətli vəzifələrdən biridir.);<br>*c) Ailədəki vəzifələr* (ərin və arvadın əsas vəzifələri; ana-atanın uşaqlarına qarşı vəzifələri; uşaqların ana-atalarına və qardaş-bacılarına qarşı əsas vəzifələri);<br>*d) İctimai vəzifələri* (cəmiyyət üzvlərinin həyatını qorumaq; fərdlərin azadlığını, vicdanlarını, elmi görüşlərini nəzərə almaq, namus və şərəflərini, mülki hüquqlarını qorumaq) şərh edir və dəyərləndirir. | Haqq, hüquq, vicdan azadlığı, halal, haram |
| 3.2.2. Vətən və dövlət qarşısında mənəvi borcunu dərk etdiyini nümayiş etdirir. | Vətən və dövlət qarşısında borclarını sadalayır (dövlətin vergisini ödəmək, maliyyə gücünün artmasına yardım etmək; Vətəni müdafiə etmək, əsgəri borcunu yerinə yetirmək; Vətənin bölünməzliyini, bütövlüyünü, təhlükəsizliyini qorumaq; Vətənin, xalqın əmin-amanlığını qorumaq) və onlara əməl etdiyini həyati misallarla nümayiş etdirir. | Əsgəri borc, Vətənin müdafiəsi, xalqın əmin-amanlığı |
| | **3.3. Mənəviyyatın formalaşmasında dinin rolunu dəyərləndirir.** | |
| 3.3.1. Cəmiyyətdə birgəyaşayış qaydalarının formalaşmasında dini-əxlaqi dəyərlərin rolunu qiymətləndirir. | Dini-əxlaqi dəyərlərin cəmiyyətdə birgəyaşayış qaydalarını necə formalaşdırdığı və tənzim etdiyini (valideyn, müəllim, qonşu, qohum, dost, yoldaş, kimsəsiz, yetim və s. haqları) şərh edir. Hər kəsin dini-əxlaqi dəyərlərə hörmətlə yanaşmasını və əməl etməsini bilməklə bunun cəmiyyətdə sağlam həyat tərzi formalaşdırdığını misallar gətirərək qiymətləndirir. | Birgəyaşayış qaydaları, fədakarlıq, dəyər və əxlaq |

| Standart | Şərhlər | Açar sözlər |
|---|---|---|
| **4. Sağlamlıq və təhlükəsizlik** | | |
| | **4.1. Sağlam həyat tərzinə dair bilik və bacarıqlar nümayiş etdirir.** | |
| 4.1.1. Reproduktiv sağlamlığın qorunmasını sağlam həyat tərzinin əsas şərti kimi dəyərləndirir. | Ailə sağlamlığının qorunması ilə bağlı fikirlərini bildirir. Reproduktiv sağlamlığın qorunmasının faydasını bilir. Sağlam həyat tərzinin əsas şərtlərindən birinin də reproduktiv sağlamlığın qorunması olduğunu izah edir, dəyərləndirir. | Reproduktiv sağlamlıq, sağlamlığın qorunma yolları, sağlam həyat tərzi, şəxsi gigiyena, ailə planlaşdırılması, cinslərarası münasibət, firavanlıq, reproduksiya və s. |
| | **4.2. Məişətdə və ictimai yerlərdə təhlükəsiz davranış qaydalarına dair bilik və bacarıqlar nümayiş etdirir.** | |
| 4.2.1. Təhlükəsiz davranış qaydalarına əməl etdiyini konkret situasiyalarda nümayiş etdirir. | Məişətdə və ictimai yerlərdə hansı təhlükələrlə (ilan, hörümçək, əqrəb və s. heyvanların törətdiyi təhlükələr) üzləşə biləcəyini təsvir edir, bu zaman təhlükəsiz davranış qaydalarını (elektrikdən, qaz plitəsindən, kəsici, deşici alətlərdən istifadə və s.) sadalayır, konkret situasiyalarda onları nümayiş etdirir. | Təhlükəsiz davranış qaydalarına əməl etmə, konkret situasiya |
| 4.2.2. Konkret situasiyalarda yol hərəkəti qaydalarından istifadə edir. | Yol hərəkəti qaydalarından istifadə etmənin faydalarını sadalayır. Konkret situasiyalarda (işıqforda, yol nişanı olmayan yerlərdə, keçidlərdə, velosiped sürərkən) yol hərəkəti qaydalarına əməl olunmasını nümunələrlə göstərir. | Konkret situasiya, yol hərəkəti qaydaları, əyləc, intizamsız hərəkət iştirakçısı, yolayrıcı, inzibati cəza və s. |
| | **4.3. Fövqəladə hallarla bağlı bilik və bacarıqlar nümayiş etdirir.** | |
| 4.3.1. Fövqəladə halların nəticələrinin aradan qaldırılmasında birgəfəaliyyət bacarıqları nümayiş etdirir. | Fövqəladə halların nəticələrini müəyyənləşdirir. Fövqəladə halların nəticələrinin aradan qaldırılmasında tək və kollektiv fəaliyyət bacarıqlarını nümayiş etdirir. Fövqəladə hallar baş verərkən hansı situasiyaların meydana çıxacağını sadalayır, onları təsvir edir. Fövqəladə hallar və texnogen qəzaları təsvir edən oyunlarda, təlim məşqlərində kollektiv davranış vərdişlərinə sahib olduqlarını nümayiş etdirir. | Fövqəladə halların nəticələri, birgəfəaliyyət bacarığı, evakuasiya planı |

# FƏNN ÜZRƏ MƏZMUN STANDARTLARININ REALLAŞDIRILMA CƏDVƏLİ

| Planlaşdırma | Alt standart | İnteqrasiya | Saat |
|---|---|---|---|
| **I TƏDRİS VAHİDİ. Təbiətdəki qanunauyğunluqlar** | | | |
| 1. Materiya – maddə və sahə | 1.1.1. | F.: 2.2.1. | 1 |
| 2. Kainatda baş verən hadisələrin sirri | 1.1.1. | C.: 1.2.2. | 1 |
| 3. Ekoloji tarazlıq | 1.2.1. | C.: 3.2.5. | 1 |
| 4. Ekoloji tarazlığın qorunması və bərpası – Layihə | 1.2.1. | C.: 3.2.5. | 1 |
| **KSQ** | | | 1 |
| **II TƏDRİS VAHİDİ. Cəmiyyət və dövlət** | | | |
| 1. Cəmiyyətin inkişafında inteqrasiyanın rolu | 2.1.1. | Az.t.: 1.3.1., 2.1.1. | 2 |
| 2. Dövlət hakimiyyəti | 2.1.2. | Üm.t.: 3.1.1., Az.t.: 3.1.1. | 2 |
| 3. İnsan hüquqları | 2.2.1. | Az.d.: 1.2.4. | 1 |
| 4. İnsan hüquqlarının pozulması | 2.2.2. | Az.d.: 1.1.2. | 2 |
| **KSQ** | | | 1 |
| 5. İqtisadiyyat. Maliyyə | 2.3.1. | Az.d.: 1.2.4. | 2 |
| 6. Vergi | 2.3.1. | Az.d.: 1.1.2. | 2 |
| 7. Sığorta | 2.3.1. | Az.d.: 1.1.1. | 2 |
| **KSQ** | | | 1 |
| **III TƏDRİS VAHİDİ. Mənim mənəvi dünyam** | | | |
| 1. Münasibəti necə qururuq? | 3.1.1 | Az.d.: 1.2.4. | 1 |
| 2. İnsanlararası münasibətlər | 3.1.1 | Az.d.: 1.1.2., Az.d.: 1.2.3. | 1 |
| 3. Vəzifələrimiz və məsuliyyətimiz | 3.2.1. | Az.d.: 1.2.4. | 1 |
| 4. Mənim mənəvi borcum | 3.2.2. | Az.d.: 1.1.2. | 1 |
| 5. Dini-əxlaqi dəyərlər | 3.3.1. | Az.d.: 1.2.4. | 1 |
| **KSQ** | | | 1 |
| **IV TƏDRİS VAHİDİ. Təhlükəsiz və sağlam yaşa** | | | |
| 1. Sağlam həyat – sağlam ailə | 4.1.1. | B.: 3.2.1. | 1 |
| 2. Təhlükəsiz həyat | 4.2.1. | Az.d.: 1.1.2. | 1 |
| 3. Təbiətin canlı təhlükələri | 4.2.1. | B.: 3.2.1. | 1 |
| 4. Yol hərəkətinin nizamlanması | 4.2.2. | Az.d.: 1.1.2. | 2 |
| 5. Bir-birimizə dəstək olaq | 4.3.1. | Az.d.: 1.1.1. | 2 |
| **KSQ** | | | 1 |
| **CƏMİ** | | | 34 saat |

*Az.d. – Azərbaycan dili, Az.t. – Azərbaycan tarixi, Üm.t. – Ümumi tarix, C. – Coğrafiya, B. – Biologiya, F. – Fizika*

**Qeyd:** Sinifdəki şagirdlərin yol hərəkəti qaydaları ilə tanışlığının səviyyəsini, mənəvi ehtiyaclarını, təhlükəsizlik qaydalarına nə dərəcədə əməl etdiklərini nəzərə alaraq "Mənim mənəvi dünyam", "Təhlükəsiz və sağlam yaşa" tədris vahidlərinin ilin əvvəlinə keçirilməsi mümkündür.

# HƏYAT BİLGİSİ FƏNNİNİN TƏDRİSİNDƏ İSTİFADƏ OLUNAN TƏLİM FORMA VƏ ÜSULLARI

Məktəb təcrübəsindən də bilirsiniz ki, şagirdlər, xüsusən də yeniyetmələr yalnız kitab və müəllimin şərhi ilə kifayətlənmir, özü düşünməyə, axtarmağa, tədqiqatçılığa meyil göstərirlər. Elə bu baxımdan artıq ənənəvi üsullarla keçilən dərs yeniyetmə şagirdlər üçün o qədər də maraq doğurmur. Dərslərdə onlar müəllimi dinləməkdənsə, özləri tədqiqat aparmağa üstünlük verirlər. Yaradıcı müəllimlər bunu nəzərə alaraq müvafiq strategiya müəyyənləşdirir, şagirdlər üçün elə bir mühit yaratmağa çalışırlar ki, onlar axtarışlar edə-edə öyrənsinlər.

Təlim formaları (kollektivlə iş, qruplarla iş, cütlərlə iş və fərdi iş) təlim strategiyasının bir hissəsi olub, dərsin məqsədinə uyğun olaraq müəyyənləşdirilir. Şagirdlərin fəaliyyətləri bu forma üzərində qurulur.

***Kollektivlə iş.*** Bu təlim forması şagirdlərdə kollektiv fəaliyyətə alışmaq bacarığının bünövrəsini qoyur.

***Qruplarla iş***. Müəyyən problemi həll etmək üçün qruplar təşkil olunur. Bu zaman problemi şagirdlərlə müzakirə etmək, fikir mübadiləsi aparmaq, mühakimə yürütmək və əməkdaşlıq bacarıqları inkişaf etdirilir.

***Cütlərlə iş.*** Bu təlim forması şagirdlərə daha yaxından əməkdaşlıq etmək, ünsiyyət qurmaq, məsuliyyəti bölüşmək imkanı yaradır. Lakin bu əməkdaşlığın əhatə dairəsi çox azdır.

***Fərdi iş.*** Fərdi iş zamanı şagirdin sərbəst düşünməsi üçün real imkanlar yaranır. Müəllim şagirdin fəaliyyətini tam obyektiv qiymətləndirə bilir.

Təlim formalarından istifadə edərkən dərsin məqsədləri nəzərə alınmalıdır.

Fəal təlim üsulları da təlim strategiyasının bir hissəsidir. 8-ci sinif şagirdlərinin problemlərin həllinin müstəqil axtarışı və təlim prosesində tədqiqatçılığa meyillərini, yeni biliklərə yiyələnmək, yaradıcı düşünmə qabiliyyətlərinin inkişafını nəzərə alaraq fəal təlim üsullarından istifadə məqsədəuyğun hesab olunur.

Dünya təcrübəsində fəal təlim üsulları onlarladır. Həyat bilgisi fənninin tədrisində, əsasən, klaster, beyin həmləsi, ziqzaq, müzakirə, karusel, BİBÖ, anlayışın çıxarılması, İNSERT, fasiləli oxu, debat, layihələrin hazırlanması, Venn diaqramı, qərarlar ağacı və s. təlim üsullarından geniş istifadə etmək olar.

**Beyin həmləsi**

Bu üsul "Əqli hücum" da adlandırılır. Şagirdlərdə yeni mövzuya maraq oyatmaq, habelə onların nəyi yaxşı (və ya pis) bildiklərini aydınlaşdırmaq məqsədilə bu üsuldan istifadə olunur. Hazırlanmış sual lövhədə yazılır, yaxud şifahi şəkildə şagirdlərin diqqətinə çatdırılır. Şagirdlər suallara əsasən fikirlərini bildirirlər. Bütün ideyalar şərhsiz və müzakirəsiz yazıya alınır. Yalnız bundan sonra söylənilmiş ideyaların

müzakirəsi, şərhi və təsnifatı başlayır. Aparıcı ideyalar yekunlaşdırılır, şagirdlər söylənmiş fikirləri təhlil edir, qiymətləndirirlər.

Bu üsuldan, demək olar ki, bütün mövzuların tədrisində istifadə etmək mümkündür.

**BİBÖ – Bilirəm/İstəyirəm bilim/Öyrəndim**

BİBÖ aşağıdakı mərhələlər üzrə aparılır:

1. Problem müəllim tərəfindən elan edilir.
2. Müəllim lövhədə 3 sütundan ibarət cədvəl çəkir və aşağıdakı bölmələri qeyd edir: Bilirəm/İstəyirəm bilim/Öyrəndim.
3. Şagirdlər problemlə bağlı bildiklərini söyləyir və cavablar birinci sütunda qeyd olunur.
4. Həmin məsələ ilə bağlı bilmək istədikləri isə ikinci sütuna yazılır.
5. Dərsin sonunda bir daha həmin cədvələ diqqət yetirilir və mövzu ilə bağlı öyrəndikləri üçüncü sütunda qeyd edilir.
6. Hər üç sütun dərsin sonunda müzakirə olunmalıdır.

**Məsələn:** *“İnsan hüquqlarının pozulması” mövzusunu tədris edərkən motivasiya mərhələsində BİBÖ üsulundan istifadə edə bilərsiniz. İnsan hüquqlarının qorunması haqqında nə bilirsiniz?*

| **Bilirəm** | **İstəyirəm bilim** | **Öyrəndim** |
|---|---|---|
| • İnsan hüquqlarının qorunmasına dair müvafiq sənədlər<br>• BMT-nin qərarları<br>• Uşaq hüquqlarının qorunması və s. | İnsanların pozulan hüquqları hansılardır? | |

**Klaster (şaxələndirmə)**

Müəllim tərəfindən lövhədə və ya flipçartda dairə çəkilir və şagirdlərə onun mərkəzində yazılmış anlayışla bağlı söz və ya ifadələr söyləmək tapşırılır. Mərkəzdə yazılmış anlayışdan başlayaraq hər növbəti söz onunla əlaqəli sözlərlə xətlər vasitəsilə birləşdirilir. Vaxt bitənə qədər mümkün qədər çox fikir yazmaq və onları əlaqələndirmək tövsiyə olunur. Vaxt bitəndən sonra alınan klaster müzakirə edilir və ümumiləşdirmə aparılır.

Məsələn: "Sağlam həyat – sağlam ailə" mövzusunun tədrisi zamanı dərsin motivasiya mərhələsində bu üsuldan istifadə oluna bilər.

**Qeyd:** *Sxem şagirdlər tərəfindən doldurulmalıdır.*




**Anlayışın çıxarılması**

Bu üsul oyun-tapmaca formasında keçirilir və şagirdlərdə yüksək fəallıq yaradır. Müəllim lövhədən kağızdan kəsilmiş dairə asır (bu, elektron lövhədə də nümayiş etdirilə bilər), onun arxasında şagirdlərdən tələb olunan anlayışı yazır. Kartın yazı olmayan tərəfini şagirdlərə göstərir və gizlədilmiş anlayışların xüsusiyyətlərinə aid 2 və yaxud 3 yönəldici söz sadalayır və ya yazır. Şagirdlər həmin xüsusiyyətlərə uyğun olaraq gizlədilmiş anlayışı tapırlar.

Əgər şagirdlər anlayışı tapmaqda çətinlik çəksələr, müəllim əlavə olaraq yeni xüsusiyyətlər sadalayır.

Şagirdlər öz fərziyyələrini dedikdən sonra müəllim bu tapmacanın tapılıb-tapılmamasını hamıya çatdırır və kartda yazılan sözləri açıqlayır.

Məsələn: "Ekoloji tarazlıq" mövzusunun tədrisi zamanı dərsin motivasiya mərhələsində bu üsuldan istifadə edilə bilər.



**Müzakirə**

Müzakirə mövzu ətrafında ideya, məlumat, təəssürat, təhlil və təkliflərin qarşılıqlı mübadiləsidir. Onun əsas vəzifəsi problemi təhlil edərək həlli yolunu tapmaq, düzgün qərar qəbul etmək üçün imkan yaratmaqdır. Müzakirə dinləmək, təqdim etmək, sual vermək mədəniyyətini formalaşdırır, şagirdlərin məntiqi və tənqidi təfəkkürünü, şifahi nitqini inkişaf etdirir.

Müzakirə apararkən əvvəlcədən şagirdlərə müzakirə qaydaları xatırladılır. Mövzu aydın şəkildə ifadə olunur. Müzakirə prosesini inkişaf etdirən suallar vermək və şagirdlərin cavablarını nəzərdən keçirməklə müəllim müzakirəni tənzimləyir. Bu zaman cavabı “bəli” və ya “xeyr” olan qapalı suallar vermək məqsədəuyğun hesab edilmir.

Müzakirədə mövzuya aid “*Nə baş verdi?*”, “*Nə üçün baş verdi?*”, “*Bu, başqa cür ola bilərdimi və necə?*”, “*Siz bu vəziyyətdə nə edərdiniz?*”, “*Bu, düz idimi?*”, “*Nə üçün?*” kimi suallardan istifadə olunur.

Məsələn: *“Vəzifələrimiz və məsuliyyətimiz”, “Təbiətin canlı təhlükələri”, “İnsan hüquqlarının pozulması”* və s. mövzularda müzakirə üsulundan istifadə oluna bilər.

**Venn diaqramı**

Əşya və ya hadisələri müqayisə etmək, onların oxşar və fərqli cəhətlərini müəyyənləşdirmək üçün bu üsuldan istifadə olunur.

*Venn diaqramından istifadə aşağıdakı mərhələlər üzrə aparılır:*

1. Müqayisə olunacaq əşya və hadisələr müəyyənləşdirilir.
2. Kəsişən dairələr çəkilir (ortada yazmaq üçün yer saxlanılır).
3. I və II dairədə müqayisə olunacaq obyektlər qeyd olunur.
4. Şagirdlər təlimatlandırılır (təlimatda nəyin müqayisə olunacağı və dairələrdə oxşar və fərqli cəhətlərin necə qeyd olunacağı barədə danışılır).
5. Müqayisə olunan obyektlər təsvir edilir (fərqli cəhətlər sağ və sol tərəfdə, oxşar cəhətlər kəsişmə dairəsində qeyd olunur).
6. Müqayisə nəticəsində fikirlər ümumiləşdirilir.

Məsələn: “*Dövlət hakimiyyəti*” mövzusunun tədrisi zamanı Venn diaqramından istifadə oluna bilər.



**Ziqzaq**

Bu üsul mətnin məzmununun qısa müddət ərzində şagirdlər tərəfindən mənimsənilməsinə imkan yaradır.

Şagirdlər dördnəfərlik qruplara bölünür (əsas qrup). Qruplardakı şagirdlər yenidən nömrələnir. Hər qrupdakı eyni rəqəmli şagirdlərdən yeni qrup (ekspert qrupu) yaradılır.

Öyrəniləcək mətn qrupların sayı qədər hissələrə bölünür və ekspert qruplarına verilir.

Ekspert qrupları onlara verilən hissəni oxumalı, məzmununu qavramalı və öz əvvəlki qrupuna qayıdaraq öyrəndiyi hissəni onlara danışmalıdır.

Müəllim informasiyanın dəqiq verildiyinə əmin olmaq üçün suallar verə bilər. Məsələn: *"İqtisadiyyat. Maliyyə", "Sağlam həyat – sağlam ailə"* və s. mövzuların tədrisində bu üsuldan istifadə etmək olar.

**Karusel**

Dərsdən əvvəl iri ağ kağızlarda (vatman) mövzuya aid suallar yazılır. Müəllim qruplara müxtəlif sual yazılmış bir kağız verir. Qrup üzvləri sualı oxuyur və bir cavab yazır. Kağızlar saat əqrəbi istiqamətində müəllimin köməkliyi ilə qruplara ötürülür. Karusel kimi kağızlar bütün digər qruplardan keçərək axırda öz qrupuna qayıdır. Müəllim bu kağızları yazı lövhəsinə yapışdırır və bütün sinif cavabları müzakirə edir. Məsələn: *"Cəmiyyətin inkişafında inteqrasiyanın rolu"* mövzusunun tədrisində bu üsuldan istifadə etmək məqsədəuyğundur.

**Akvarium**

Bu üsulun həyata keçirilməsinin bir çox yolları vardır. Onlardan birini qeyd edək.

Şagirdlər 2 qrupa bölünür. Qrup bölgüsündən öncə diskussiyanın aparılması üçün müəyyən qaydalar ağ vərəqdə qeyd olunaraq asılır. Buraya bir-birinin sözünü kəsməmək, reqlamentə əməl etmək, məqsəddən uzaqlaşmamaq və s. aid ola bilər.

2 qrup dairə şəklində düzülür. Birinci qrup daxildəki dairəni, ikinci qrup isə ətrafdakı dairəni təşkil edir.

Daxili dairənin iştirakçıları araşdırılacaq problemi müzakirə edir və problemin xeyrinə arqumentlər gətirməlidirlər. Vaxt bitdikdən sonra müzakirənin davamını ətraf qrup aparır. Onlar isə əks arqumentlər gətirməyə çalışırlar.

Ümumilikdə isə verilən vaxt müddətində problemin müzakirəsi aparılmalıdır, hər qrup mövqeyini müdafiə etmək üçün öz nəticəsini elan edə bilər.

Bu üsulun tətbiqində vahid fikir əsas deyil. Əsas odur ki, şagirdlərdə müzakirə etmək qabiliyyəti formalaşdırılsın.

Xarici qrup isə bunun tam əksini reallaşdırmalıdır.

**Layihələrin hazırlanması**

Layihələr şagirdlərin tədqiqatçılıq qabiliyyətini həm üzə çıxarır, həm də inkişaf etdirmiş olur. Bu, eyni zamanda şagirdlərdə əməkdaşlıq, işi düzgün planlaşdırma, yaradıcılıq bacarıqlarının da inkişafına təkan verir. Mövzu üzrə problem müəllim tərəfindən konkret və düzgün müəyyən edilməli, şagirdlərə seçmək imkanı verilməlidir.

Layihənin hazırlanması zamanı şagirdlər aşağıdakı alqoritm üzrə işlərini planlaşdırmalıdırlar:

- Layihənin icrasına ayrılan vaxt müddətinin müəyyənləşdirilməsi;
- İş formasının müəyyənləşdirilməsi;
- İstifadə olunacaq resursların müəyyənləşdirilməsi;
- Tədqiqatın nəticəsinin təqdim olunma formasının müəyyənləşdirilməsi.

Layihənin hazırlanması zamanı şagirdlərə tövsiyələr, məsləhətlər verilə bilər. Sonda şagirdlərin hazırladıqları layihələr qiymətləndirilməlidir.

**Qərarlar ağacı**

- Bu üsul qərarların qəbul edilməsi zamanı alternativ yolları araşdırmaq və təhlil etmək məqsədi daşıyır.
- Müzakirə olunacaq problem müəllim tərəfindən izah edilir və onun həlli yollarının bir neçə variantı şagirdlərlə birlikdə müəyyənləşdirilir. 4-6 nəfərdən ibarət qruplarda şagirdlər problemin həlli yollarının üstünlüklərini və çatışmazlıqlarını təhlil edir, onları "+" və ya "–" işarəsinin qarşısında müvafiq qaydada qeyd edirlər. Son nəticə cədvəlin qərar hissəsində yazılır və üstü örtülür.
- Bütün qrupların təqdimatından sonra müəllim əldə olunmuş nəticələri ümumiləşdirmək üçün müzakirə aparır.

| Problem | | | |
|---|---|---|---|
| **Problemin həlli yolları** | | | |
| | **1-ci həll yolu** | **2-ci həll yolu** | **3-cü həll yolu** |
| **Problemin həlli yollarının mənfi və müsbət tərəfləri** | | | |
| | | | |
| **Qərar:** | | | |

**İNSERT**

Bu üsul dərslikdəki mətnin aktiv fəaliyyətlə, yəni şagirdin öz münasibətini bildirərək oxunmasıdır. Şagird mövzudakı fikirlərə münasibətini qəbul edilmiş işarələrlə ("✓" – bu məlumat mənə tanış idi, "–" – bu məlumat mənim əvvəllər bildiyimi inkar edir, "+" – bu məlumat mənim üçün yenidir, "?" – bu məsələyə dair əlavə məlumat almaq istərdim) bildirir. Dərslikdəki mətn oxunduqdan sonra ümumiləşdirmələr aparılır və qeyd olunur.

| "✓" | "–" | "+" | "?" |
|---|---|---|---|
| | | | |

# ŞAGİRDLƏRİN QRUPLARA BÖLÜNMƏSİ ÜSULLARI

Fəal təlimin tətbiqi zamanı ən çox istifadə olunan forma qruplarla işdir. Şagirdləri qruplara bölərkən bunu onların öz ixtiyarına buraxmaq düzgün deyildir. Çünki bu, çox vaxt müəllimin istədiyi nəticəni əldə etməsinə  mane olur. Belə qruplarda əksər hallarda ya təlim nəticələri yüksək olanlar, ya təlim nəticələri aşağı olanlar, ya da dostlar yığışırlar.

Şagirdləri qruplara bölmək üçün aşağıdakı bir neçə üsulu sizə təqdim edirik.

**"Say".** Şagirdlərdən "1"-dən "5"-ə kimi saymaq xahiş olunur. Eyni rəqəmli iştirakçılar (bütün "birlər", bütün "ikilər" və s.) bir qrupda birləşirlər.

**"Püşkatma".** Müəllim şagirdlərin adlarını balaca vərəqlərdə yazır, qatlayır, paketə qoyur, qarışdırır və paketdən çıxararaq şagirdlərin sayına görə hər stolun üstünə qoyur. Kağızlar açılır və şagirdlərin adları oxunur. Həmin qayda ilə şagirdlər paketdən müxtəlif rəngli vərəqləri çıxara bilərlər. Rənglərin sayı və hər rəngdən olan vərəqlərin sayı qrupların sayına və kiçik qrupun üzvlərinin sayına görə planlaşdırılır.

**"Sosiometrik metod".** Qrupların sayına görə bir neçə iştirakçı lövhənin qarşısına çağırılır. Hər iştirakçı özünə bir nəfər qrup yoldaşı seçir. Öz növbəsində, hər növbəti gələn şagird öz qruplarına 1 nəfər seçir.

# İLLİK PLANLAŞDIRMANIN APARILMASINA DAİR TÖVSİYƏLƏR

**Planlaşdırma** – əsas məqsədləri müəyyənləşdirmək və onlara nail olmaq üçün hər bir müəllimin özünəməxsus fəaliyyət istiqamətidir. Bildiyiniz kimi, hazırkı kurikulumlar siz müəllimlərə illik planlaşdırma aparmaqda müəyyən sərbəstlik verir. Əvvəldə də qeyd etdiyimiz kimi, məhz hər bir məktəbin yerləşdiyi regiondan, onun infrastrukturundan, maddi texniki bazasından və s. asılı olaraq Həyat bilgisi fənn kurikulumunda nəzərdə tutulmuş məzmun standartları müxtəlif cür reallaşdırıla bilər. Planlaşdırma aparılarkən yuxarıda qeyd olunanlarla yanaşı, şagirdlərin fərdi xüsusiyyətlərinin, öyrənmə tərzlərinin də nəzərə alınması olduqca vacib şərtdir. Eyni bir regionda, eyni bir məktəbdə, lakin ayrı-ayrı 8-ci siniflərdə Həyat bilgisi fənnindən dərs deyən müəllimlərin illik planlaşdırmaları müxtəlif ola bilər. Lakin bu planlaşdırmanı kor-koranə aparmaq qeyri-mümkündür. Bunun üçün müəyyən bacarıqlarınız olmalıdır. Bunlar aşağıdakılardır:

• **Məzmun standartlarına əsasən dərslikdəki tədris vahidi və mövzular üzrə dəqiqləşmələrin aparılması** üçün Həyat bilgisi fənn proqramında (kurikulumunda) nəzərdə tutulan məzmun standartlarının dərslikdə hansı mövzularda reallaşdırıldığını və bu mövzuların hansı tədris vahidlərində birləşdirildiyini müəyyən etmənizdir. Bu eyni zamanda dərsliklə tanışlıq xarakteri daşıyır və illik planlaşdırmanı düzgün apara bilməniz üçün, demək olar ki, ilkin addımdır.

• **Tədris vahidlərinin və mövzuların ardıcıllığının müəyyənləşdirilməsi** mühüm bacarıqlardan biridir. Mövzuların ardıcıllığı dedikdə sadədən mürəkkəbə, həm də məntiqi və xronoloji ardıcıllıq nəzərdə tutulur. Bu ardıcıllığı müəyyənləşdirərkən bir neçə prinsip nəzərə alınmalıdır ki, bunun da birincisi məzmun ardıcıllığı baxımından sadədən mürəkkəbə, asandan çətinə doğru getməkdir. Bunun üçün əvvəlcə dərslikdə verilən ardıcıllığa diqqət yetirməli, bu ardıcıllıq sizi müəyyən səbəblərdən qane etmirsə (tədris ilində baş verəcək mühüm hadisələr, fənlərarası inteqrasiya, şagirdlərin ehtiyacları və s. baxımından), özünüz mövzuların ardıcıllığını müəyyən etməlisiniz.

• **İnteqrasiya imkanlarının müəyyən edilməsi** planlaşdırma aparmaq üçün müəllimə lazım olan bacarıqlardan biridir. Həyat bilgisi özündə dörd məzmun xəttini birləşdirdiyinə görə onun bir çox fənlərlə (Fizika, Kimya, Biologiya, Tarix, Coğrafiya və s.) inteqrasiyası mümkündür. Metodik vəsaitdə sizlərə təqdim olunmuş "Fənn üzrə məzmun standartlarının reallaşma cədvəli"ndə Həyat bilgisi məzmun standartlarının digər fənlərlə inteqrasiya imkanları göstərilmişdir. Bu inteqrasiya imkanları biz müəlliflərin məzmun standartlarını reallaşdırmamıza imkan yaradır. Lakin vəsaitdə verilmiş illik planlaşdırma cədvəlində hər bir mövzu üzrə inteqrasiya

verilməsinə baxmayaraq, sinfinizdəki şagirdlərin səviyyəsini, maraqlarını, resurslarınızı nəzərə alaraq özünüz inteqrasiya imkanları müəyyənləşdirə bilərsiniz. Bunun üçün:

*1. Nəzərdə tutulmuş standartı reallaşdırmaq üçün hansı fənnin köməyinə ehtiyac olduğunu özünüz üçün müəyyənləşdirin;*
*2. Müəyyənləşdirdiyiniz fənnin məzmun standartlarını nəzərdən keçirin. Siz həmin fənnin yalnız 8-ci sinif məzmun standartları ilə inteqrasiya yarada bilərsiniz;*
*3. İnteqrasiya üçün Həyat bilgisi fənni üzrə seçdiyiniz standarta müvafiq standartı müəyyənləşdirərək illik dərs planında qeyd etməniz vacibdir. Bundan sonra müəyyənləşdirdiyiniz inteqrasiya imkanına müvafiq olaraq istifadə edəcəyiniz resurslarda, şagirdlərə təqdim edəcəyiniz tapşırıqlarınızda bunu nəzərə almalısınız.*

**Qeyd:** Digər fənlər üzrə məzmun standartlarını internet saytından əldə edə bilərsiniz.

• **Əlavə resursların seçilməsi mövzunu, inteqrasiyanı müəyyənləşdirdikdən sonra aparılmalıdır.** Çünki hər hansı bir standartı reallaşdıran zamanı inteqrasiya imkanı müəyyənləşdirildikdən sonra resurs seçilməlidir.

• **Mövzulara görə məqsədyönlü vaxt bölgüsünün aparılması** mühüm bacarıqlardan biridir. Tədris planına əsasən 8-ci sinifdə Həyat bilgisi fənninin tədrisinə ayrılan saatdan kənara çıxmamaq şərtilə daha vacib, eyni zamanda şagirdlərin çətin qavradıqları mövzulara çox, asan mövzulara isə az vaxt ayıra bilərsiniz.
***İllik planlaşdırma nümunəsi əsasında çox rahatlıqla gündəlik planlaşdırma tərtib edə bilərsiniz.***

**İllik planlaşdırma nümunəsi**

| Alt standart | Tədris vahidi | Mövzu | İnteqrasiya | Resurslar | Qiymətləndirmə | Saat |
|---|---|---|---|---|---|---|
| 1.1.1. | Təbiətdəki qanunauyğunluqlar | 1. Materiya – maddə və sahə | F.: 2.2.1. | Dərslik, materiyaya aid elektron təqdimat, videomateriallar, şəkillər http://www.youtube.com/watch?v=kkbPmrPYIVo http://www.youtube.com/watch?v=sjD8Tw9dNIM | Qiymətləndirmə üsulu: tapşırıqvermə, rubrik<br><br>Qiymətləndirmə vasitəsi: tapşırıq, qiymətləndirmə şkalası | 1 |
| 1.1.1. | | 2. Kainatda baş verən hadisələrin sirri | C.: 1.2.2. | Dərslik, Günəş sistemində baş verən hadisələrə – Günəş və Ay tutulmalarına və s. aid elektron təqdimat, videomateriallar http://www.youtube.com/watch?v=3hI9zsIeGhk http://www.youtube.com/watch?v=KTIiVoiTlEw http://www.youtube.com/watch?v=BIC2HExXChg | Qiymətləndirmə üsulu: müşahidə, rubrik<br><br>Qiymətləndirmə vasitəsi: müşahidə vərəqləri, qiymətləndirmə şkalası | 1 |
| 1.2.1. | | 3. Ekoloji tarazlıq | C.: 3.2.5. | Dərslik, ekoloji tarazlığın pozulmasına dair elektron təqdimat, "Yaşıl paket" CD disk, videomateriallar, ətraf mühitin çirklənməsinə dair fotoşəkillər http://www.youtube.com/watch?v=RtJ18EvilHQ http://files.preslib.az/projects/azereco/az/eco_m4_7.pdf | Qiymətləndirmə üsulu: tapşırıqvermə, rubrik<br><br>Qiymətləndirmə vasitəsi: tapşırıq, qiymətləndirmə şkalası | 1 |
| 1.2.1. | | 4. Ekoloji tarazlığın qorunması və bərpası – *Layihə* | C.: 3.2.5. | İnternet saytları, elektron təqdimatlar, "Ayna Uşaq Ensiklopediyası" | Qiymətləndirmə üsulu: müşahidə, rubrik<br><br>Qiymətləndirmə vasitəsi: müşahidə vərəqi, qiymətləndirmə şkalası | 1 |
| KSQ | | | | | Test | 1 |

# ŞAGİRD NAİLİYYƏTLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİNƏ DAİR TÖVSİYƏLƏR

Qiymətləndirmə təhsilin keyfiyyətinin yüksəldilməsinə yönələn və onu idarə edən vacib amildir. Şagird nailiyyətlərinin inkişafına xidmət edən qiymətləndirmə müəllimdən yaradıcılıq tələb edən prosesdir.

Ümumtəhsil məktəblərində tətbiq olunan fənn kurikulumlarının tətbiqi ilə əlaqədar olaraq müəllimlərin qarşısında “Qiymətləndirmə necə aparılmalıdır?” sualı yaranır.

Məktəbdaxili qiymətləndirmə diaqnostik (ilkin səviyyənin qiymətləndirilməsi), formativ (fəaliyyətin qiymətləndirilməsi), summativ (kiçik, böyük və yekun) qiymətləndirmədən ibarətdir.

Qiymətləndirmə növləri şagirdləri hər bir fənnin məzmun standartlarında göstərilən əsas bilik və bacarıqların əldə edilməsinə yönəlmiş fəaliyyət istiqamətləri ilə təmin edir.

**Diaqnostik qiymətləndirmə** hər bir fənn müəlliminin təlim məqsədləri və təlim strategiyalarında çevik dəyişikliklər aparmasına imkan yaradır.

Bir qayda olaraq, fənn üzrə təlimin hər hansı bir mərhələsində – təhsil səviyyəsinin, dərs ilinin, tədris vahidlərinin əvvəlində sinifdəki şagirdlərin bilik və bacarıqlarını müəyyən edir. Eyni zamanda şagird bir ümumtəhsil məktəbindən digərinə gəldikdə, sinfi dəyişdikdə və digər zəruri hallarda onun bilik və bacarıqları haqqında məlumat toplamaq, şagirdə fərdi yanaşmanı təmin etmək, öyrənilmiş materialın təkrarına vaxt itirməmək məqsədilə aparılır.

Bu qiymətləndirmənin nəticələri rəsmi sənədlərdə qeyd olunmur, müəllimin şəxsi qeyd dəftərində öz əksini tapır, nəticələr barədə valideynlər, sinif rəhbəri və digər fənn müəllimləri məlumatlandırılır.

Diaqnostik qiymətləndirmənin aparılması üçün aşağıdakı üsul və vasitələrdən istifadə edə bilərsiniz:

| Üsullar | Vasitələr |
|---|---|
| Tapşırıqvermə | Tapşırıqlar |
| Müsahibə (şifahi yoxlama) | Müəllimin qeydiyyat vərəqi (şagirdlə, müvafiq hallarda qrup, yaxud siniflə aparılan şifahi yoxlama zamanı müəllimin öyrənmək (diaqnoz qoymaq) istədiyi məsələnin yazıldığı vərəq) |
| Valideynlərlə və digər fənn müəllimləri ilə əməkdaşlıq | Söhbət və müəllimin sorğu vərəqi (şagirdin evdə və ya məktəbdəki fəaliyyəti ilə bağlı suallar yazılmış vərəq) |
| Söhbət | Şifahi söhbət |
| Müşahidə | Müşahidə vərəqləri |

Tədris ilinin ilk mövzusuna başlamazdan öncə şagirdlərin 6–7-ci siniflər Həyat bilgisi fənni üzrə məzmun standartlarından bir neçəsində nəzərdə tutulmuş bilik və bacarıqlara hansı səviyyədə yiyələndiklərini müəyyən etmək olar. Məsələn:

1. **Fövqəladə hadisələr hansılardır?**

   ___

2. **Zəlzələ zamanı hansı davranış qaydalarına əməl olunmalıdır?**

   ___

3. **İlan sancması zamanı hansı qaydalara əməl olunmalıdır?**

   ___

4. **Kainatda hansı hadisələr baş verir?**

   ___

5. **Sağlam həyat tərzini şərtləndirən amillər hansılardır?**

   ___

6. **Əmək bölgüsü nədir?**

   ___

7. **Cəmiyyətin həyatında iqtisadiyyatın nə kimi rolu vardır?**

   ___

8. **Təhsillə bağlı hansı hüquqlarınız var?**

   ___

Bununla da sinifdəki şagirdlərlə işə haradan başlayacağınızı və **fərdi yanaşmanı** necə təmin edəcəyinizi müəyyən edə bilərsiniz.

Diaqnostik qiymətləndirməni digər üsul və vasitələrdən istifadə etməklə də keçirə bilərsiniz.

**<u>Formativ qiymətləndirmə.</u>** Məzmun standartlarının reallaşmasına istiqamətlənən irəliləyişlərin monitorinqi, sinifdə hər bir şagirdin inkişafının hərəkətverici amilinə, təlimin həlledici komponentinə çevrilir. Bu monitorinq tədris prosesini tənzimləyib, bütün şagirdlərin irəliləyişlərini təmin etmək, eyni zamanda uğur qazana bilməyən şagirdlərin ehtiyaclarını öyrənərək onlara əlavə köməklik etməyə imkan verir. Formativ qiymətləndirmə fənni tədris edən müəllim tərəfindən məzmun standartlarından irəli gələn təlim məqsədləri əsasında hazırlanmış meyarlar üzrə dərs ili ərzində müntəzəm olaraq aparılır. Meyarlar 4 səviyyədə (zəruri hallarda 3–5 səviyyədə) müəyyənləşdirilə bilər. Formativ qiymətləndirmə apararkən formativ qiymətləndirmənin müxtəlif üsul və vasitələrindən istifadə oluna bilər:

| Üsullar | Vasitələr |
|---|---|
| Müşahidə | Müşahidə vərəqləri |
| Şifahi sual-cavab | Şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi |
| Tapşırıqvermə | Tapşırıqlar |
| Valideynlərlə və digər fənn müəllimləri ilə əməkdaşlıq | Söhbət, sorğu vərəqi (şagirdin evdə və ya məktəbdəki fəaliyyəti ilə bağlı suallar yazılmış vərəq) |
| Layihə | Şagirdlərin təqdimatı və müəllim tərəfindən müəyyən olunmuş meyar cədvəli |
| Rubrik | Nailiyyət səviyyələri üzrə qiymətləndirmə şkalası |
| Şifahi və yazılı təqdimat | Meyar cədvəli |
| Test | Test tapşırıqları |
| Özünüqiymətləndirmə | Özünüqiymətləndirmə vərəqləri |

Formativ qiymətləndirmənin nəticələri sinif jurnalında qeyd olunmur. Bu nəticələr şagirdin məktəbli kitabçasında (meyarlar şəklində) və müəllimin qeyd kitabçasında öz əksini tapır. Şagird qovluğunda (portfolio) toplanır. Portfolio dərs ili ərzində məktəbdə saxlanılır və ilin sonunda şagirdə təhvil verilir.

**Formativ rubrik 1.**

## Mövzu: MÜNASİBƏTİ NECƏ QURURUQ?

**Alt standart:** 3.1.1. İnsanlararası münasibətlərdə ümumi cəhətlərin əhəmiyyətini dəyərləndirir.

**Məqsəd:** İnsanlararası münasibətlərdə ümumi cəhətlərin əhəmiyyətini dəyərləndirir.

**Qiymətləndirmə meyarı:** *dəyərləndirmə*

| I səviyyə | II səviyyə | III səviyyə |
|---|---|---|
| İnsanlararası münasibətlərdə ümumi cəhətlərin əhəmiyyətini dəyərləndirərkən səhvlərə yol verir. | İnsanlararası münasibətlərdə ümumi cəhətlərin əhəmiyyətini müəllimin sualları əsasında dəyərləndirir. | İnsanlararası münasibətlərdə ümumi cəhətlərin əhəmiyyətini sərbəst dəyərləndirir. |

**Formativ rubrik 2.**

## Mövzu: YOL HƏRƏKƏTİNİN NİZAMLANMASI

**Alt standart:** 4.2.2. Konkret situasiyalarda yol hərəkəti qaydalarından istifadə edir.
**Məqsəd:** Situasiyaya müvafiq yol hərəkəti qaydalarından istifadə edir.
**Qiymətləndirmə meyarı:** *tətbiqetmə*

| I səviyyə | II səviyyə | III səviyyə |
|---|---|---|
| Yol hərəkəti qaydalarından istifadə etməkdə çətinlik çəkir. | Sualların köməyi ilə yol hərəkəti qaydalarından istifadə edir. | Yol hərəkəti qaydalarından situasiyaya müvafiq istifadə edir. |

**Özünüqiymətləndirmə**

Bu qiymətləndirmə fərdi qiymətləndirmədir. Dərsin sonunda hər bir şagird öz fəaliyyətini bu cədvələ əsasən qiymətləndirə bilər.

| Tapşırığı tam və düzgün yerinə yetirdim. | Dərsdə diqqətli idim. | Məntiqli yanaşmam var idi. | Sual-cavabda aktiv idim. | Əməkdaşlıq etdim. | Etiket qaydalarına riayət etdim. |
|---|---|---|---|---|---|
| | | | | | |

**Cütlərlə iş zamanı qiymətləndirmə**

Bu qiymətləndirmədən cütlərlə iş zamanı istifadə etmək olar. Dərsin sonunda cütlərə aşağıda göstərilən cədvəl paylanılır. Bu cədvəldən istifadə etməklə hər bir şagird həm özünün, həm də yoldaşının fəaliyyətini qiymətləndirə bilər.

| Cütlərdə işləyən şagirdlərin adı | Fəallıq səviyyəsi (zəif, orta, yüksək) | Əməkdaşlıq etmə | Qaydalara əməl olunması | Tapşırığın icrası zamanı müzakirə etmə | Ümumi rəyə gəlmə |
|---|---|---|---|---|---|
| Raul | | | | | |
| Aysel | | | | | |

**Qrup işlərinin qiymətləndirilməsi**

Qruplarla işin qiymətləndirilməsi üçün meyar cədvəli hazırlanır. Qrupların fəaliyyətini aşağıdakı meyarlara əsasən qiymətləndirmək olar.

| Qruplar / Meyarlar | I qrup | II qrup | III qrup | IV qrup |
|---|---|---|---|---|
| Tapşırığın düzgün yerinə yetirilməsi | | | | |
| Tərtibat | | | | |
| Təqdimetmə | | | | |
| Əməkdaşlıq | | | | |

**Şagirdlərin təqdimatları aşağıdakı meyarlar əsasında qiymətləndirilə bilər.**

| Meyarlar | HƏ | YOX |
|---|---|---|
| Təqdimatda bütün qrup üzvlərinin iştirak etməsi | | |
| Təqdimatın düzgünlüyü | | |
| Təqdimatçının fikirlərini aydın və dəqiq ifadə etməsi | | |
| Dövlət tərəfindən həyata keçirilən tədbirlər barədə düzgün məlumatın əks olunması | | |
| Təqdimatın hazırlanmasında sistemliliyin gözlənilməsi | | |

**Yekun (summativ) qiymətləndirmə** standartların mənimsənilməsi istiqamətində şagirdlərin əldə etdiyi irəliləyişləri dəyərləndirir. Bu qiymətləndirmə il ərzində bəhs və ya bölmələrin, həm də tədris ilinin sonunda ***qiymətləndirmə standartlarına*** əsasən həyata keçirilir. Qiymətləndirmə standartları təhsilin keyfiyyətini qiymətləndirmək üçün əsas meyarları təyin edir, şagird nailiyyətlərinin və təhsil imkanlarının qarşılıqlı dəyərləndirilməsi üçün istifadə olunan qiymətləndirmə üsulları və vasitələrinin keyfiyyətini təsvir edir, qiymətvermə prosesinin qanuniliyinə zəmanət verir.

Summativ qiymətləndirmənin nəticələri rəsmidir və keçirildiyi tarixdə sinif jurnalında qeyd olunur. Summativ qiymətləndirmənin aparılması üçün yalnız test üsuluna üstünlük verməməli, aşağıdakı üsul və vasitələrdən də istifadə olunmalıdır:

| Üsullar | Vasitələr |
|---|---|
| Yoxlama yazı işləri | Yoxlama yazı işləri üzrə qeydiyyat vərəqi |
| Layihə | Şagirdlərin təqdimatı və müəllim tərəfindən müəyyən edilmiş meyar cədvəli |
| Şifahi sorğu | Şifahi sorğu üzrə qeydiyyat vərəqi |
| Test | Test tapşırıqları |
| Tapşırıqvermə | Tapşırıq, çalışma və laboratoriya işləri |
| Yaradıcılıq və əl işləri | Fənlərə müvafiq olaraq rəsmlər, hazırlanan məmulatlar və digər əl işləri |

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 28 dekabr 2018-ci il tarixli 8/1 nömrəli Kollegiya Qərarı ilə təsdiq edilmiş "Ümumi təhsil pilləsində təhsilalanların attestasiyası (yekun qiymətləndirmə (attestasiya) istisna olmaqla) aparılması Qaydaları"nda summativ qiymətləndirmədə aşağıdakı dəyişikliklər həyata keçirilmişdir:

✓ Kiçik summativ qiymətləndirmə 2–11-ci siniflərdə bütün fənlər üzrə hər yarımildə 3 dəfədən az, 6 dəfədən çox olmamaqla müəllim tərəfindən aparılır. Hər fənn üzrə kiçik summativ qiymətləndirmələrin aparılacağı tarix haqqında məlumat tədris ilinin birinci həftəsi ərzində fənn müəllimi tərəfindən sinifdə təhsilalanlara elan olunur.

✓ Hər bir fənn üzrə kiçik summativ qiymətləndirmə həmin fənnin tədris olunduğu 1 (bir) dərs saatı ərzində aparılır.

✓ Kiçik və böyük summativ qiymətləndirmələr 100 ballıq şkala ilə ölçülür.

✓ Summativ qiymətləndirmədə istifadə olunan qiymətləndirmə vasitələri (suallar) Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 13 yanvar tarixli

9 nömrəli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası”nın tələbləri nəzərə alınmaqla hazırlanır. Suallar hər bir sinif və fənn üzrə 4 səviyyədə tərtib edilir. 1-ci səviyyə ən aşağı, 4-cü səviyyə isə ən yüksək səviyyəni əks etdirir. Suallar müxtəlif mürəkkəblik səviyyəsində hazırlanır. 1-ci və 2-ci səviyyəyə təhsilalanların əksəriyyətinin cavablandıra biləcəyi suallar aid edilir. 3-cü və 4-cü səviyyəyə daha hazırlıqlı şagirdlərin cavablandıra biləcəyi suallar aid edilir. Səviyyələr üzrə sualların qiymətləndirmə ballarının 100 ballıq şkalada bölgüsü aşağıdakı kimi nəzərdə tutulur:

– 1-ci səviyyə üzrə suallar qiymətləndirmənin 20%-ni (və ya 20 bal) təşkil edir;
– 2-ci səviyyə üzrə suallar qiymətləndirmənin 30%-ni (və ya 30 bal) təşkil edir;
– 3-cü səviyyə üzrə suallar qiymətləndirmənin 30%-ni (və ya 30 bal) təşkil edir;
– 4-cü səviyyə üzrə suallar qiymətləndirmənin 20%-ni (və ya 20 bal) təşkil edir.

✓ Üzrlü (xəstəlik (tibbi arayış təqdim edildikdə), bədbəxt və fövqəladə hadisə) səbəbdən kiçik summativ qiymətləndirmənin hər hansı birində iştirak etməyən təhsilalanın kiçik summativ qiymətləndirmədə iştirak etməməsi yarımillik balların hesablanmasında nəzərə alınmır. Təhsilalanın iştirak etmədiyi kiçik summativ qiymətləndirmə növbəti kiçik summativ qiymətləndirməyədək təşkil edilir.

✓ Üzrsüz səbəbdən kiçik summativ qiymətləndirmədə iştirak etməyən təhsilalanların həmin qiymətləndirmə üzrə balı “0” qəbul edilir və yarımillik balların hesablanmasında nəzərə alınır.

✓ Summativ qiymətləndirmədə iştirak etməyən təhsilalanlar üçün sinifdə istifadə olunan eyni səviyyəli yeni qiymətləndirmə vasitələri (test, imla, inşa, ifadə, çalışma) hazırlanır.

✓ Təhsilalanın summativ qiymətləndirmədə topladığı balların 2, 3, 4, 5 qiymətlərinə uyğunluğu aşağıdakı qaydada müəyyənləşdirilir:

• 30-dək (daxil olmaqla) olan ballar “2” qiyməti ilə;
• 30-dan 60-dək (daxil olmaqla) olan ballar “3” qiyməti ilə;
• 60-dan 80-dək (daxil olmaqla) olan ballar “4” qiyməti ilə;
• 80-dən 100-dək (daxil olmaqla) olan ballar “5” qiyməti ilə.

✓ Təhsilalanın summativ qiymətləndirmədə topladığı ballar və onların uyğunlaşdırıldığı qiymət summativ qiymətləndirmənin aparıldığı tarixdə sinif jurnalında və “Məktəbli kitabçası”nda yazılır.

✓ Böyük summativ qiymətləndirmə aparılmayan fənlər üzrə yarımillik bal kiçik summativ qiymətləndirmələrdə toplanmış ballar əsasında aşağıdakı kimi hesablanır:

Y = (ksq1+ ksq2 +… + ksqn ) / n

Y – təhsilalanın yarımillik üzrə balını;

Ksq – hər kiçik summativ qiymətləndirmədə toplanmış balların miqdarını;

n – kiçik summativ qiymətləndirmələrin sayını bildirir.

✓ Təhsilalanın illik balları onun yarımillik ballarının ədədi ortası kimi hesablanır və illik balın 2, 3, 4 və ya 5 qiymətlərinə uyğunluğu bu Qaydalara müvafiq olaraq müəyyənləşdirilir. Qiymət sinif jurnalı və “Məktəbli kitabçası”nda yazılır.

## ŞAGİRDLƏRİN ÖYRƏNMƏ TƏRZİ

Yuxarıda da qeyd etdiyimiz kimi, illik planlaşdırılma aparılarkən məktəbin imkanları ilə yanaşı, şagirdlərin yaş xüsusiyyətlərinin, öyrənmə tərzlərinin də nəzərə alınması vacibdir. Bir sinifdə müxtəlif yollarla öyrənə bilən şagirdlər vardır. Müasir dərsdə müxtəlif təlim üsul və formalarından istifadə etmək vacibdir. Lakin bəzən öyrənmə tərzinizə üstünlük verməniz sinfinizdəki digər yollarla öyrənən şagirdləriniz üçün məqsədəmüvafiq olmaya bilər. Bunun üçün sizə ən çox üstünlük verilən öyrənmə tərzləri ilə bağlı qısaca məlumat vermək istərdik:

- ***Əyani öyrənmə tərzinə malik olanlar*** şəkillər, diaqramlar, nümayişlər, paylama materialları, filmlər, flipçartlar və s. daxil olmaqla görünən və ya müşahidə olunan vasitələrlə daha rahat öyrənirlər. Hər hansı bir tapşırığı yerinə yetirmək üçün ya təlimatı özü oxumalı, ya da yoldaşlarından birinin həmin təlimatı icra etməsini izləməsi vacibdir. Yalnız bundan sonra o, tapşırığı yerinə yetirə bilər.
- ***Eşidərək öyrənmə tərzinə malik olanlar*** məlumatın dinləmə yolu ilə ötürülməsinə üstünlük verir. İstənilən tapşırığı icra etmələri üçün müəllimin təlimatına qulaq asmaları vacibdir.
- ***Kinestetik (yerinə yetirərək) öyrənmə tərzinə malik olanlar*** təcrübəyə üstünlük verir – toxunmaq, hiss etmək, təcrübədən keçirmək və s. Kinestetik öyrənənlər tapşırığı sınaqdan keçirərək və bunu edərək öyrənə bilirlər.

# MÖVZULARIN GÜNDƏLİK PLANLAŞDIRILMASINA DAİR NÜMUNƏLƏR

Tədris prosesində fəal təlim üsullarından istifadə şagirdlərin təhsilə, elmə marağını artırmaqla yanaşı, onlarda əməkdaşlıq, yaradıcılıq, tədqiqatçılıq qabiliyyətlərinin formalaşmasına imkan yaradır, dərsin strukturu qarşısında müəyyən tələblər qoyur.

Gündəlik dərs planını hazırlayarkən, ilk növbədə, öz işinizi mövzunun, standartın, məqsədin, iş forması və iş üsulunun, inteqrasiya imkanlarının, resursların müəyyənləşdirilməsi ilə başlayın. Yuxarıda sadalananların hər birinin düzgün müəyyən edilməsində alt standartlar mühüm rol oynayır. Eyni zamanda müasir dərsin hər bir mərhələsi alt standartın reallaşmasına yönəlməlidir.

Müasir dərsin strukturunu 3 hissəyə bölmək olar. Giriş hissəyə – motivasiya, tədqiqat sualı; əsas hissəyə – tədqiqatın aparılması, informasiyanın mübadiləsi, informasiyanın müzakirəsi; yekun hissəyə – nəticə və ümumiləşdirmə, yaradıcı tətbiqetmə və qiymətləndirmə aid edilə bilər.

Dərslikdə yer alan bir neçə mövzunun gündəlik planlaşdırılmasını sizə təqdim edirik.

## Mövzu: SAĞLAM HƏYAT – SAĞLAM AİLƏ

**Alt standart:** 4.1.1. Reproduktiv sağlamlığın qorunmasını sağlam həyat tərzinin əsas şərti kimi dəyərləndirir.
**Məqsəd:** Reproduktiv sağlamlığın qorunmasını sağlam həyat tərzinin əsas şərti kimi dəyərləndirir.
**İnteqrasiya:** B.: 3.2.1.
**Təlim forması:** kollektiv iş, qruplarla iş
**Təlim üsulu:** beyin həmləsi, təqdimat, müzakirə, şaxələndirmə
**Resurslar:** dərslik, iş vərəqləri, elektron təqdimat, paylama materialı

**Dərsin gedişi**

**Motivasiya:** Müəllim elektron təqdimatdan istifadə etməklə şagirdlərə aşağıdakı sxemi nümayiş etdirir:




– Sağlam olmaq üçün hansı qaydalara əməl olunmalıdır? (*şəxsi gigiyena, ətraf mühiti təmiz saxlamaq, zərərli vərdişlərdən uzaq olmaq, düzgün istirahət etmək, idmanla məşğul olmaq, yoluxucu xəstəliklərdən qorunmaq, reproduktiv sağlamlığı qorumaq*)

Şagirdlərin cavabları lövhədə qeyd olunur və hər bir bəndin əhəmiyyəti müzakirə olunur. Müəllim şagirdlərin fikirlərini reproduktiv sağlamlığa yönəldir.

**Tədqiqat sualı:** *Reproduktiv sağlamlığın qorunması nə üçün sağlam həyat tərzinin əsas şərti hesab olunur?*

**Tədqiqatın aparılması:** Şagirdlər 5 qrupa (3-5 nəfərlik) bölünərək aşağıdakı tapşırıqları icra edirlər. Tapşırıqların icrası üçün şagirdlərə reproduktiv sağlamlığın qorunması ilə bağlı paylama materialı təqdim edilməli və yaxud İnternetdən istifadə imkanı yaradılmalıdır.

**I qrup:** Dərslikdən və paylama materialından istifadə etməklə cədvəli tamamlayın.

| Ailə planlaşdırılması nədir? | Ailə planlaşdırılmasının əhəmiyyəti | Respublikada ailə planlaşdırılması ilə bağlı görülən tədbirlər |
|---|---|---|
| | | |

**II qrup:** Dərsliyə və paylama materialına əsasən cədvəli tamamlayın.

| "Cinslər arasında normal münasibət" nədir? | Cinslər arasında münasibətlərin pozulmasının səbəbləri | Cinslər arasında normal münasibətin əhəmiyyəti |
|---|---|---|
| | | |

**III qrup:** Dərslikdən və paylama materialından istifadə etməklə cədvəli tamamlayın.

| Şəxsi gigiyena nədir? | Şəxsi gigiyenaya nəzarətin əhəmiyyəti | Şəxsi gigiyena qaydalarına nəzarət etməməyin nəticələri |
|---|---|---|
| | | |

**IV qrup:** Dərslikdən və paylama materialından istifadə etməklə cədvəli tamamlayın.

| "Zorakılıq" nədir? | Zorakılıq nəyə səbəb ola bilər? | Qadınların hansı hüquqları vardır? |
|---|---|---|
| | | |

**V qrup:** Dərslikdən və paylama materialından istifadə etməklə cədvəli tamamlayın.

| Cinsi yolla yoluxan xəstəliklər hansılardır? | Respublikadakı mövcud vəziyyət |
|---|---|
| | |

***Qeyd:*** V qrupun tapşırığında respublikada QİÇS, Hepatit B, Herpes və s. yoluxanların sayı ilə bağlı statistik məlumatın toplanması nəzərdə tutulur.

**Məlumatın mübadiləsi və müzakirəsi:** Hər bir qrupun işi müzakirə olunur. Hər qrup digər qrupların işinə əlavələr edir.

**Ümumiləşdirmə və nəticə:** Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır. Dərsin bu mərhələsində şaxələndirmə üsulundan da istifadə mümkündür.

**Qiymətləndirmə meyarı:** *dəyərləndirmə*

| I | II | III |
|---|---|---|
| Reproduktiv sağlamlığın qorunmasını sağlam həyat tərzinin əsas şərti kimi dəyərləndirməkdə çətinlik çəkir. | Reproduktiv sağlamlığın qorunmasını sağlam həyat tərzinin əsas şərti kimi dəyərləndirməkdə səhvlərə yol verir. | Reproduktiv sağlamlığın qorunmasını sağlam həyat tərzinin əsas şərti kimi nümunələr göstərməklə dəyərləndirir. |

## Mövzu: İNSAN HÜQUQLARI

**Alt standart:** 2.2.1. Əsas insan hüquqlarını fərqləndirir.

**Məqsəd:** İnsanların mənafelərinin müdafiəsi üçün əsas insan hüquqlarını fərqləndirir.

**İnteqrasiya:** Az.d.: 1.2.4.

**Təlim forması:** kollektiv iş, qruplarla iş

**Təlim üsulu:** beyin həmləsi, müzakirə

**Resurslar:** şəkillər, insan hüquqlarının pozulmasına dair, eləcə də insan hüquqlarını qoruyan təşkilatların gördüyü işlərə dair videoçarx, iş vərəqləri, kompüter, İnternet

*Gördüyünüz bu şəkillər haqqında məlumatınız varmı?*
*Təsvir olunan şəkillər hansı təşkilatların rəmzləridir?*
*Bu təşkilatların rolunu necə dəyərləndirərdiniz?*
*Hüquqlarımızın qorunmasında bu təşkilatların nə kimi rolu vardır?*

Müxtəlif suallar vasitəsilə insan hüquqlarını müdafiə edən sənədlər, eləcə də qanunlar haqqında müəyyən fikirləri aldıqdan sonra insan hüquqlarını müdafiə edən təşkilatlar barədə videoçarx da göstərilir.

**Tədqiqatın aparılması:** Şagirdlər 4 qrupa bölünərək aşağıdakı tapşırıqları icra edirlər. Tapşırıqların icrası üçün şagirdlərə paylama materialı təqdim edilməli və yaxud İnternetdən istifadə imkanı yaradılmalıdır.

**Tədqiqat sualı:** *İnsan hüquqlarının qorunmasına dair verilmiş qanunların və görülmüş tədbirlərin cəmiyyətin həyatında rolu nədən ibarətdir?*

Şagirdlər 4 qrupa bölünür və iş vərəqləri paylanır.

**I qrup:**

"Azərbaycan Respublikasında insan hüquqları qorunur" fikrini əsaslandırın.

**II qrup:**

"Uşaq hüquqlarının qorunması üzrə hansı qərarlar qəbul edilmişdir? Onun icrası ölkəmizdə necə həyata keçirilir?" suallarının cavabını faktlarla əsaslandırın.

**III qrup:**

İnsan hüquqlarının qorunmasının beynəlxalq səviyyədə reallaşmasını sübut edin.

**IV qrup:**

**UNIFEM**

- UNIFEM (BMT-nin qadın fondu) qadınlara maliyyə dəstəyi verir və onlara texniki kömək edir. Onların siyasi və iqtisadi imkanlarını və cinsi bərabərliyini təmin edir.
- 1976-cı ilin dekabrında yaranıb. O, planetin əsas regionlarında qadınlar təşkilatlarının ofis və filiallarını açır və orada qadın hüquqlarını siyasi və iqtisadi cəhətdən qoruyur.

**UNICEF**

UNICEF – BMT-nin uşaqları müdafiə fondudur. 1965-ci ildə Nobel mükafatı alıb. Fondun əsas məqsədləri:

- 5 yaşa qədər uşaq itkisini $^{1}/_{3}$% azaltmaq;
- Anaların itkisini 50%-ə endirmək;
- 80% uşağa ibtidai təhsil vermək.

UNICEF öz proqramlarını dünyanın 157 ölkəsində həyata keçirir. Bu təşkilat Azərbaycanda da fəaliyyət göstərir.

- 1948-ci ildə BMT Baş Assambleyasının 217 saylı qətnaməsi ilə *Ümumdünya İnsan Hüquqları Bəyannaməsi* qəbul edildi.
- 30 maddədən ibarət olan bu sənəddə vətəndaş və siyasi hüquqlardan başqa, bir sıra iqtisadi, sosial və mədəni hüquqlar da (məsələn, işləmək hüququ, təhsil almaq hüququ, istirahət hüququ və s.) təsbit olunmuşdur.

**Hüquqlarının qorunmasına aid məlumatları müzakirə edib münasibətlərinizi qeyd edin.**

______________________________________________

______________________________________________

**Məlumatın mübadiləsi və müzakirəsi:** Şagirdlər hazırladıqları cavabları təqdim edir. Təqdim olunmuş qrup işləri müzakirə olunur. Müsbət və mənfi tərəfləri qeyd olunur. Qrupların işi dəyərləndirilir.

**Ümumiləşdirmə və nəticə:** Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır. Dərsin bu mərhələsində şaxələndirmə üsulundan da istifadə mümkündür.

**Qruplar qrup işlərinin qiymətləndirilməsi üçün verilmiş meyar cədvəlinə əsasən qiymətləndirilir.**

| Meyarlar \ Qruplar | I qrup | II qrup | III qrup | IV qrup |
|---|---|---|---|---|
| Tapşırığı düzgün yerinə yetirmə | | | | |
| Tərtibat | | | | |
| Təqdimetmə | | | | |
| Əməkdaşlıq | | | | |

Qrup qiymətləndirilməsi rəqəmlər və yaxud digər vasitələrlə də reallaşdırıla bilər.

**Ümumiləşdirmə və nəticə:**

Nəticədə şagirdlər əsas insan hüquqlarını və bu hüquqları müdafiə edib reallaşdıran təşkilatları müəyyən edərək onların funksiyalarını da fərqləndirə bilirlər. Fərqlənmə nəticəsində şagirdlər müəyyən edir ki, uşaqları, qadınları və s. müdafiə edən təşkilatlar vardır ki, onlar öz fəaliyyətlərini hüquqi yolla tənzimləyir, bir çox işlər görürlər.

**Ev tapşırığı:**

- "İnsan hüquqları qorunur" başlığı altında esse yazın.

**Qiymətləndirmə meyarı:** *fərqləndirmə*

| I səviyyə | II səviyyə | III səviyyə |
|---|---|---|
| Əsas insan hüquqlarını fərqləndirməkdə çətinlik çəkir. | Əsas insan hüquqlarını fərqləndirərkən bəzi səhvlər edir. | Asanlıqla əsas insan hüquqlarını fərqləndirir. |

# MÖVZULARIN GÜNDƏLİK PLANLAŞDIRILMASI

## I TƏDRİS VAHİDİ: TƏBİƏTDƏKİ QANUNAUYĞUNLUQLAR

## TƏDRİS VAHİDİ ÜZRƏ REALLAŞDIRILMIŞ MƏZMUN STANDARTLARI

**1.1.1. Materiyanın quruluşunun və kainatda baş verən proseslərin ümumi qanunlara tabe olmasını əsaslandırır.**

**1.2.1. Ekoloji tarazlığın qorunmasına və bərpasına dair layihələr hazırlayır.**

## 1. MATERİYA – MADDƏ VƏ SAHƏ

**Alt standart:** 1.1.1. Materiyanın quruluşunun və kainatda baş verən proseslərin ümumi qanunlara tabe olmasını əsaslandırır.
**Məqsəd:** Materiyanın quruluşunun ümumi qanunlara tabe olmasını əsaslandırır.

Tədris ilinin ilk mövzusuna başlamazdan öncə şagirdləri dərsliyin strukturu, ondan istifadə qaydaları ilə tanış etmək zəruridir. Şagirdlərin diqqətinə il ərzində layihələrin, müxtəlif tipli təqdimatların, eyni zamanda praktik dərslərin hazırlanması ilə bağlı da məlumat verməniz məqsədəuyğun hesab olunur.

Dərsə **A** blokundakı tapşırıqla başlamaq olar. Bu zaman şagirdlərin Həyat bilgisi və Fizika fənlərindən əldə etdikləri əvvəlki biliklərdən faydalanaraq sualları cavablandırması gözlənilir. Şagirdlərin fikirlərini lövhədə və yaxud da flipçartda qeyd etmək zəruridir. Bu zaman şagirdlər materiyanın 2 növü: maddə və sahənin ən mühüm xassələrindən: materiyanın daim hərəkətdə olması, kütləyə və enerjiyə malik olmasını qeyd etməlidirlər.

**Motivasiya** mərhələsində BİBÖ cədvəlindən də istifadə oluna bilər. Bunun üçün şagirdlərin materiya haqqında 6-cı sinifdən öyrəndikləri cədvəlin I sütununda, öyrənmək istədikləri (şagirdlərin fikrini bu sahəyə yönəltmək nəzərdə tutulur) II sütununda qeyd olunmalıdır. Cədvəlin III sütunu dərsin ümumiləşdirmə və nəticə mərhələsində doldurulmalıdır.

**Tədqiqat** "*Materiyanın quruluşu hansı qanunlara tabedir?*" sualı ətrafında aparılmalıdır.

**B** blokunda verilmiş tapşırığın icrası üçün şagirdlərin 6-cı sinif fizika kursundan öyrəndiklərini yada salmaları tələb olunur. Şagirdlərə bu tapşırıqda göstərilənləri təsnif etmək tapşırılır. Tapşırıq cütlərdə icra oluna bilər. Cütlər fikirlərini ümumiləşdirib təqdim edərkən qeyd olunan fikirlərin müəllim tərəfindən lövhədə və yaxud da flipçartda yazılması məqsədəuyğundur (1 – maddə, 2, 3, 4 – sahə).

**Tədqiqatın aparılması** üçün şagirdlərin **C** blokundakı mətnlə tanışlığı fasiləli oxu, müzakirə üsulları, diskussiya, elektron təqdimat (**http://www.youtube.com/watch?v=kkbPmrPYIVo**) və s. istifadə etməklə aparıla bilər.

Tədqiqatın aparılması üçün verilmiş tapşırıqların yerinə yetirilməsi zamanı şagirdlər Həyat bilgisi, Fizika fənlərindən əldə etdikləri biliklərə əsaslanmalıdırlar. Şagirdlərə izah edilməlidir ki, müxtəlif otaqlarda televizorla fərqli verilişlərə baxmaq ona görə mümkündür ki, fərqli kanallarda dalğa tezlikləri müxtəlif olur. Tapşırıq icra olunduqdan sonra mütləq siniflə müzakirə aparılmalıdır.

**C** blokundakı nəzəri materialı öyrənən zaman maddələrin aqreqat hallarına aid videomaterialın təqdimatından istifadə etmək məqsədəuyğundur: (**http://www.youtube.com/watch?v=sjD8Tw9dNIM)**

Tətbiq mərhələsində **F** blokundakı tapşırıqlardan istifadə oluna bilər. Bunun üçün şagirdlərə ya paylama materialı, ya da İnternetdən istifadə imkanı yaradılmalıdır.

Qiymətləndirməni dərsin istənilən mərhələsində apara bilərsiniz. Həm cütlərdə, həm də kollektiv müzakirələrdə iştirak edən şagirdlər aşağıdakı meyar əsasında qiymətləndirilə bilərlər.

**Qiymətləndirmə meyarı:** *fikrini əsaslandırma*

| I səviyyə | II səviyyə | III səviyyə |
|---|---|---|
| Materiyanın quruluşunun ümumi qanunlara tabe olmasını əsaslandırarkən bir çox səhvlərə yol verir. | Materiyanın quruluşunun ümumi qanunlara tabe olmasını müəllimin köməyi ilə əsaslandırır. | Materiyanın quruluşunun ümumi qanunlara tabe olmasını misallarla əsaslandırır. |

## 2. KAİNATDA BAŞ VERƏN HADİSƏLƏRİN SİRRİ

**Alt standart:** 1.1.1. Materiyanın quruluşunun və kainatda baş verən proseslərin ümumi qanunlara tabe olmasını əsaslandırır.

**Məqsəd:** Kainatda baş verən proseslərin ümumi qanunlara tabe olmasını əsaslandırır.

**Motivasiya** mərhələsində şagirdlərin əvvəlki biliklərinin yada salınması faydalı olardı. Bu məqsədlə yönəldici suallardan, planetlərin şəkillərindən, videomaterialdan istifadə etməklə şagirdlərə "*Verilmiş planetləri necə qruplaşdırarsınız?*" sualı ilə də müraciət oluna bilər.

Motivasiya mərhələsində linkə **(http://www.youtube.com/watch?v=3hI9zsIeGhk)** də istinad oluna bilər. Bunun üçün videomaterialdan müəyyən bir hissə nümayiş etdirilərək "*Bəs kainatda hansı hadisələr baş verir?*", "*Bu hadisələr necə öyrənilir?*", *"Kainatda baş verən bu hadisələr hansı qanunlara əsaslanır?"* sualları ilə sinfə müraciət oluna bilər. Hər iki halda şagirdlərin fərziyyələrini dinləyib lövhədə və yaxud flipçartda qeyd etmək məqsədəuyğundur.

Dərsdə BİBÖ üsulundan da istifadə oluna bilər. Lakin bu üsuldan istifadə dərsin əvvəlindən sonunadək qaydalara müvafiq davam etdirilməlidir.

**C** blokundakı mətnlə tanışlığa fasiləli oxu, müzakirə üsullarından istifadə etməklə davam etmək olar. Bu zaman N.Tusi adına Şamaxı Astrofizika rəsədxanasının yaranması tarixi haqqında videomaterial da təqdim oluna bilər. Bu məqsədlə aşağıdakı linkdən bir parçanın nümayişi mümkündür.

**(http://www.youtube.com/watch?v=WbrxEAhkvYc)**

Şagirdləri tədqiqata yönəltmək üçün **B** blokundakı tapşırıqdan istifadə etmək olar. Bu tapşırığın məqsədi kainatda baş verən hadisələrin səbəbləri haqqında şagirdlərə nə düşündüyünü müəyyənləşdirməkdir. Həmin tapşırığı şagirdlər cütlərdə yerinə yetirə bilərlər. Bu məqsədlə lövhədə hər üç sual yazılmış flipçart asıla bilər və

cütlərə rəngli stikerlər paylanıla bilər. Onlar bu stikerlərin üzərinə hər üç sualla bağlı fikirlərini qeyd edərək onu lövhədə asılmış flipçarta yapışdırmalıdırlar. Tapşırıq şagirdlərin əvvəlki illərdə Həyat bilgisi, Coğrafiya fənləri üzrə öyrəndiklərinə uyğun icra olunmalıdır. Hamı tapşırığı yerinə yetirdikdən sonra şagirdlərin fikirləri tez bir zamanda oxunmalı və düzgün fikirlər kənarlarda yapışdırılmalıdır.

Verilmiş tapşırığın icrasından sonra **C** blokundakı mətn fasiləli oxu üsulundan istifadə olunmaqla oxunula bilər. Müzakirələr zamanı aşağıdakı link şagirdlər üçün məqsədəmüvafiqdir:

**(http://www.youtube.com/watch?v=BIC2HExXChg)**

Yeni məlumatla tanış olduqca lövhədəki bu cədvəl də doldurula bilər.

| Kainatda baş verən hadisələr | Xüsusiyyəti | Səbəbi |
|---|---|---|
| *Günəş tutulması* | | |
| *Ay tutulması* | | |

Şagirdlər **F** blokunda verilmiş tapşırığı evdə araşdıraraq nəticə ilə bağlı növbəti dərsdə məlumat verməlidirlər.

Qiymətləndirməni dərsin istənilən mərhələsində apara bilərsiniz. Həm cütlərdə, həm də kollektiv müzakirələrdə iştirak edən şagirdlər aşağıdakı meyar əsasında qiymətləndirilə bilərlər.

**Qiymətləndirmə meyarı:** *fikrini əsaslandırma*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Kainatda baş verən proseslərin ümumi qanunlara tabe olmasını əsaslandırmaqda çətinlik çəkir. | Kainatda baş verən proseslərin ümumi qanunlara tabe olmasını əsaslandırarkən bir çox səhvlərə yol verir. | Kainatda baş verən proseslərin ümumi qanunlara tabe olmasını müəllimin köməyi ilə əsaslandırır. | Kainatda baş verən proseslərin ümumi qanunlara tabe olmasını misallarla əsaslandırır. |

## 3. EKOLOJİ TARAZLIQ

**Alt standart:** 1.2.1. Ekoloji tarazlığın qorunmasına və bərpasına dair layihələr hazırlayır.

**Məqsəd:** Ekoloji tarazlığın pozulmasının nəticələri və bu sahədə görülən tədbirləri şərh edir.

*Standart layihənin hazırlanmasını nəzərdə tutduğundan növbəti dərs saatı layihənin hazırlanıb təqdim olunmasına ayrılmışdır. Bu dərs saatında şagirdlərin nəzəri materialla tanışlığı nəzərdə tutulur.*

Şagirdlərdə idraki fəallıq yaratmaq üçün **A** blokunda verilmiş motivasiyanı onlardan birinə oxuda bilərsiniz. Həyati bilikləri və gündəlik müşahidələri əsasında

şagirdlərin verdikləri cavablar müzakirə oluna bilər. **B** blokundakı tapşırığın icrasına keçməmişdən qabaq məktəbin imkanlarına müvafiq olaraq aşağıdakı videomaterial da izlənilə bilər: (**http://www.youtube.com/watch?v=RtJ18EvilHQ)**

Dərslikdə verilmiş mövzunun əvvəlinə istinad edərək motivasiyanı qurmaq olar. Müasir dövrdə insanın ətraf mühitə təsirini aşağıdakı üsullardan birindən istifadə etməklə də araşdıra bilərsiniz.

- ***Beyin həmləsi üsulundan istifadə etməklə şagirdlərin fikirlərini lövhədə qeyd edə bilərsiniz.***
- ***Şaxələndirmə üsulundan istifadə edə bilərsiniz.***




**Tədqiqat** "*Ekoloji tarazlığın pozulmasının nəticələri və bu sahədə nə kimi tədbirlər görülür?*" sualı ətrafında aparılmalıdır. Şagirdlərin cavablarının lövhədə və yaxud flipçartda qeyd olunması məqsədəuyğundur.

Şagirdlərin fikirləri dinlənildikdən sonra mətnin fasiləli oxu üsulundan istifadə olunmaqla oxunması və müzakirəsi təşkil olunmalıdır. Müzakirə zamanı əyani vəsaitlərə, şəkillərə, elektron təqdimatlara ("Yaşıl paket" CD disk) istinad oluna bilər. Tədqiqat məqsədilə **B1** blokundakı tapşırıq ayrı-ayrı cütlərə və yaxud qruplara (suyun, havanın, torpağın çirklənməsinin canlılara təsiri) verilə bilər. Qruplaşmanı sinifdəki şagirdlərin sayına uyğun MMV-nin əvvəlində verilmiş formalardan birinə istinad etməklə apara bilərsiniz.

**B2** və **B3** blokundakı tapşırıqlar eyni qruplarda və ya cütlərdə icra oluna bilər. Tapşırıqlar cütlərdə icra olunaraq qrup daxilində müzakirə olunub ümumiləşdirilə də bilər.

**F** blokundakı tapşırıqların icrası məqsədilə şagirdlərə İnternetdən istifadə imkanı yaradılmalıdır. Müvafiq tapşırıqlar hazırlamaqda sərbəstsiniz. Lakin bu zaman hazırladığınız tapşırıqların nəticələrinin tədqiqat sualına uyğunluğuna diqqət edin. Bu blokdakı tapşırıqların icrası məqsədilə özünümaarifləndirmə məqsədilə AZƏRBAYCAN RESPUBLİKASININ QOŞULDUĞU BEYNƏLXALQ KONVENSİYALAR haqqında məlumatı aşağıdakı linkdən istifadə etməklə əldə edə bilərsiniz: **(http://files.preslib.az/projects/azereco/az/eco_m4_7.pdf)** Sinfinizdəki şagirdlərin maraqlarından asılı olaraq istədiyiniz konvensiya ilə bağlı məlumatı araşdıra bilərsiniz. Bu linkdən şagirdlər də faydalana bilərlər. Sizə lazım olan hissəni çap variantında şagirdlərə paylaya bilərsiniz.

Bu zaman şagirdlər materialdan istifadə etməklə belə bir cədvəli qurub tamamlaya bilərlər:

| **Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq konvensiya** | **Konvensiyanın qəbul olunduğu tarix** | **Konvensiyaya qoşulma tarixi** | **Konvensiya nəyi nəzərdə tutur** |
|---|---|---|---|
| 1. | | | |
| 2. | | | |

**Ümumiləşdirmə və nəticə** mərhələsində tədqiqat sualına qayıdılmalıdır. Bu mərhələdə ekoloji tarazlığın pozulmasının nəticələri və bu sahədə görülən tədbirləri sistemli şəkildə əks etdirən slayd da təqdim oluna bilər.

**QEYD:** *Növbəti dərs saatı layihələrin təqdimatına ayrıldığından* (layihə məlumatlandırıcı və qısamüddətlidir) *bu dərs saatında işin planlaşdırılması vacibdir. Şagirdlərin sayına müvafiq olaraq layihə fərdi, qrup və yaxud cütlər tərəfindən icra oluna bilər. Şagirdlərə aşağıdakı bəndlər üzrə istiqamət verilməlidir:*

- İş formasının müəyyənləşdirilməsi;
- İstifadə olunacaq resursların müəyyənləşdirilməsi;
- Hansı qrup və yaxud cütlüyün layihəni nə zaman təqdim etməsi;
- Tədqiqatın nəticəsinin təqdim olunma formasının müəyyənləşdirilməsi.

*Məlumatlandırıcı xarakterli layihə ekoloji tarazlığın qorunması və bərpası haqqında məlumatın toplanmasına, təhlilinə, ümumiləşdirilməsinə və təqdim olunmasına yönəlmişdir. Layihənin icrası zamanı reallaşdırılacaq standart şagirdlərin məlumatı axtarabilmə, emaletmə və təqdimetmə bacarıqlarını formalaşdırır.*

Təlim məqsədlərinə nail olmaq dərəcəsini aşağıdakı meyarlar üzrə qiymətləndirə bilərsiniz:

**Qiymətləndirmə meyarı:** *şərhetmə*

| **I səviyyə** | **II səviyyə** | **III səviyyə** | **IV səviyyə** |
|---|---|---|---|
| Ekoloji tarazlığın pozulmasının nəticələri və bu sahədə görülən tədbirləri şərh etməkdə çətinlik çəkir. | Ekoloji tarazlığın pozulmasının nəticələrini və bu sahədə görülən tədbirləri şərh etdikdə qüsurlara yol verir. | Ekoloji tarazlığın pozulmasının nəticələri və bu sahədə görülən tədbirlər barədə fikirlərini sistemsiz şərh edir. | Ekoloji tarazlığın pozulmasının nəticələri və bu sahədə görülən tədbirlər barədə fikirlərini əsaslandırmaqla şərh edir. |

## AZƏRBAYCAN RESPUBLİKASININ QOŞULDUĞU BİR NEÇƏ BEYNƏLXALQ KONVENSİYA

1. "KÖKÜNÜN KƏSİLMƏSİ TƏHLÜKƏSİ OLAN VƏHŞİ FAUNA VƏ YABANI FLORA NÖVLƏRİNİN BEYNƏLXALQ TİCARƏTİ HAQQINDA" KONVENSİYA (CITES) (Vaşinqton şəhəri, 3 mart 1973-cü il). Azərbaycan Respublikası bu konvensiyaya və həmin konvensiyanın iştirakçı dövlətlərinin "Nərə balıqlarının qorunmasına dair" qətnaməsinə (Harare şəhəri, 9–20 iyun 1997-ci il) 23 iyun 1998-ci ildə qoşulmuşdur.
2. TRANSSƏRHƏD KONTEKSTİNDƏ ƏTRAF MÜHİTƏ TƏSİRİN QİYMƏTLƏNDİRİLMƏSİ HAQQINDA KONVENSİYA (Espo şəhəri, 25 fevral 1991-ci il). Azərbaycan Respublikası bu konvensiyaya 1 fevral 1999-cu ildə qoşulmuşdur.
3. AVROPANIN CANLI TƏBİƏTİNİN VƏ TƏBİİ MÜHİTİNİN QORUNMASI HAQQINDA AVROPA KONVENSİYASI (Bern, 19 sentyabr 1979-cu il). Azərbaycan Respublikası bu konvensiyaya 28 oktyabr 1999-cu ildə qoşulmuşdur.
4. "OZON QATINI DAĞIDAN MADDƏLƏR ÜZRƏ" MONREAL PROTOKOLU (15–17 sentyabr 1997-ci il). Azərbaycan Respublikası bu protokola 18 iyul 2000-ci ildə qoşulmuşdur.
5. BİOLOJİ MÜXTƏLİFLİK HAQQINDA KONVENSİYA (5 iyun 1992-ci il), BİOLOJİ MÜXTƏLİFLİK HAQQINDA KONVENSİYAYA BİOTƏHLÜKƏSİZLİYƏ DAİR KARTAGENA PROTOKOLU. Azərbaycan Respublikası bu konvensiyaya 14 mart 2000-ci ildə, Bioloji təhlükəsizliyə dair Kartagena protokoluna 23 mart 2005-ci ildə qoşulmuşdur.
6. BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ "SƏRHƏDDƏN KEÇƏN SU AXINLARININ VƏ BEYNƏLXALQ GÖLLƏRİN MÜHAFİZƏSİ VƏ İSTİFADƏSİ ÜZRƏ" KONVENSİYASI (Helsinki şəhəri, 17 mart 1992-ci il). Azərbaycan Respublikası bu konvensiyaya 14 mart 2000-ci ildə, "Su və sağlamlıq haqqında" 1999-cu il 17 iyun tarixli protokoluna isə 22 oktyabr 2002-ci ildə qoşulmuşdur.

## 4. EKOLOJİ TARAZLIĞIN QORUNMASI VƏ BƏRPASI

**Alt standart:** 1.2.1. Ekoloji tarazlığın qorunmasına və bərpasına dair layihələr hazırlayır.
**Məqsəd:** Ekoloji tarazlığın qorunmasına və bərpasına dair layihələr hazırlayır.

Layihələrin hazırlanması şagirdlərin problemi daha dərin anlamasına imkan verir, onların tədqiqatçılıq qabiliyyətini, əlavə resurslardan istifadə etmək bacarıqlarını inkişaf etdirir. Bu baxımdan şagirdlərin layihə üzərində işləməsi üçün müəllimin onları düzgün istiqamətləndirməsi vacib şərtdir.

Hər bir qrupun apardığı tədqiqatın nəticələri hesabat, müzakirə formasında ifadə oluna bilər. Bu nəticələrlə bağlı elektron təqdimatın hazırlanması məqsədəuyğundur. Şagirdlərin hazırladığı təqdimat (təqdimat slayd, albom şəklində ola bilər) öyrəndikləri ərazidəki problemlərin qarşısının alınması üçün təkliflərin, eyni zamanda dövlət tərəfindən həyata keçirilən tədbirlər haqqında məlumatın əks olunmasını nəzərdə tutur. Şagirdlər dövlət tərəfindən həyata keçirilən tədbirlər haqqında məlumatı yalnız İnternet saytlarından deyil, eyni zamanda "Ayna Uşaq Ensiklopediyası"ndan və s. mənbələrdən əldə edə bilərlər.

Şagirdlər tərəfindən hazırlanmış materialların müzakirəsi təşkil olunmalıdır.

Şagirdlərin hazırladıqları layihə müxtəlif meyarlar üzrə qiymətləndirilə bilər. Bu zaman yalnız akademik meyarlar deyil, tətbiq edilən müxtəlif bacarıqlar da qiymətləndirilməlidir.

| Meyarlar | Hə | Yox |
|---|---|---|
| Layihənin hazırlanmasında bütün qrup üzvlərinin iştirak etməsi | | |
| Faktların düzgünlüyü | | |
| Təqdimatçının fikirlərini aydın və dəqiq ifadə etməsi | | |
| Dövlət tərəfindən həyata keçirilən tədbirlər barədə düzgün məlumatın əks olunması | | |
| Təqdimatın hazırlanmasında sistemliliyin gözlənilməsi | | |

## I TƏDRİS VAHİDİ ÜZRƏ QİYMƏTLƏNDİRMƏ VASİTƏLƏRİNƏ DAİR NÜMUNƏLƏR

**1. Şəkillərdə göstərilənlərdən hansılar öz forma və həcmini saxlaya bilir?**



**2. Hansı kainatın xassəsinə aid deyil?**

A) genişlənmə B) müntəzəm paylanma C) hərəkət
D) hərəkətsizlik E) materiyadan ibarət olma

**3. Hansı xassə bərk cisimlərin kristal formasını amorf formasından fərqləndirir?**

A) həcmin saxlanması
B) formaya malik olma
C) ərimə temperaturunun olması
D) bərkimə temperaturunun olması
E) müəyyən formaya malik olma

**4. Düzgün fikirlərin altından xətt çəkin.**

A) Mayelərin/qazların müəyyən forması vardır.
B) Elektrik cərəyanını mayelər/qazlar keçirir.
C) Bərk maddələrin bir qisminin həndəsi forması yoxdur/vardır.
D) Səmadakı cisimlərin yerini teleskopla/lupa ilə müəyyən etmək mümkündür.

**5. Düzgün olanları seçin.**

☐ Təbii və texnogen xarakterli hadisələr ekoloji tarazlığı pozur.
☐ Yanğınlar torpaq qatına təsir göstərmir.
☐ Bir neçə ölkənin maraq dairəsini əhatə edən problemlərin həlli üçün ölkələrarası müqavilə qəbul olunur.
☐ Beynəlxalq ekoloji problemlər yalnız çoxtərəfli sazişlər əsasında tənzimlənir.

**6. Nə üçün ekoloji fəlakətlər hərbi fəlakətlərdən daha qorxunc hesab olunur?**

____________________________________________________________

____________________________________________________________

**7. Ekoloji problemlərin qarşısının alınması üçün hansı tədbirlər görülür?**

____________________________________________________________

____________________________________________________________

**8. Günəş və Ay tutulmaları hansı qanun əsasında baş verir?**

____________________________________________________________

____________________________________________________________

**9. Maddənin bərk halını maye və qaz halından ayıran əsas səciyyəvi cəhət hansıdır?**

____________________________________________________________

____________________________________________________________

**10. Düzgün olanları seçin.**

☐ Ay tutulması zamanı Ayın həcmi azalır.
☐ Ay tutulması zamanı Yer Günəşlə Ay arasında durur.
☐ Ay tutulması zamanı Yer öz orbitindən çıxır.
☐ Hər iki tutulma işığın düz xətt boyunca yayılması qanununa əsaslanır.
☐ Günəş tutulması zamanı Ay Günəşin qarşısını kəsir.
☐ Ulduzların hərəkətinə cazibə qüvvəsi təsir göstərir.

# II TƏDRİS VAHİDİ:
# CƏMİYYƏT VƏ DÖVLƏT

## TƏDRİS VAHİDİ ÜZRƏ REALLAŞDIRILMIŞ MƏZMUN STANDARTLARI

**2.1.1.** **Cəmiyyətin inkişafında sahələrarası inteqrasiyanın əhəmiyyətini əsaslandırır.**
**2.1.2.** **Cəmiyyətin idarə olunmasında dövlət hakimiyyətinin bölünməsi prinsipini əsaslandırır.**
**2.2.1.** **Əsas insan hüquqlarını fərqləndirir.**
**2.2.2.** **Tarixi hadisələrin, faktların və ədəbi əsərlərin nümunəsində insan hüquqlarının pozulmasına dair təqdimatlar hazırlayır.**
**2.3.1.** **İstehsal infrastrukturlarına (maliyyə, vergi, sığorta) dair təqdimatlar hazırlayır.**

## 1. CƏMİYYƏTİN İNKİŞAFINDA İNTEQRASİYANIN ROLU

**Alt standart:** 2.1.1. Cəmiyyətin inkişafında sahələrarası inteqrasiyanın əhəmiyyətini əsaslandırır.
**Məqsəd:** Sahələrarası inteqrasiyanın cəmiyyətin inkişafında əhəmiyyətli rol oynadığını əsaslandırır.

Mövzunun tədrisi zamanı müxtəlif sualların köməyi ilə şagirdlərin diqqətini cəmiyyətin inkişafına səbəb olan amillərə yönləndirin. **Motivasiya** zamanı **A** blokundan istifadə etməklə suallar da verilə bilər. Şagirdlərin diqqətini problemin araşdırılmasına doğru yönləndirmək olar. Açar sözlərdən istifadə etməklə də şagirdlərə suallar verilə bilər. Suallara cavab vermək üçün şagirdlərə bir neçə dəqiqə vaxt verilsə, daha düzgün olar. Şagirdlərin verdiyi cavablar lövhədə, yaxud da flipçartda qeyd olunarsa, daha məqsədəuyğun olar. Cavablar alındıqdan sonra fasiləli oxu üsulundan istifadə edərək mətni şagirdlərə oxutdura bilərsiniz. Hər oxunan abzasın müzakirəsi aparılarsa, şagird üçün daha səmərəli nəticə göstərər.

Tədqiqat isə *"Cəmiyyətin inkişafında sahələrarası inteqrasiyanın əhəmiyyəti nədən ibarətdir?"* sualı ətrafında aparıla bilər. Bunun üçün də şagirdləri tədqiqata cəlb etməklə müəyyən tapşırıqlar verilməlidir. Tədqiqat sualı qoyulduqdan sonra şagirdləri qruplara bölmək lazımdır. Bölgü apararkən daha çevik və maraqlı vasitələrə əl atmaq şagirdlərin marağına səbəb olar. Eyni zamanda vaxta qənaət etmiş olarsınız. Bu işdə rəngli stikerlər köməyinizə çata bilər. Bunun üçün şagirdlərə rəngli kartlardan birini seçmək təklif olunur. Bu mövzunun reallaşdırılması üçün daha yaxşı olardı ki, müxtəlif rənglərdən, məsələn, yaşıl, sarı, narıncı, mavi, çəhrayı və s. istifadə edəsiniz. Qrupu 4 yerə bölməklə onların adını mətndə olan ifadələrlə adlandırmaq olar. Tədqiqatın aparılması üçün dərslikdə verilən tapşırıqlardan istifadə edə bilərsiniz. Çalışmaq lazımdır ki, seçdiyiniz tapşırıqlar qruplara qoyduğunuz adlarla bağlı olsun. Əslində, sonda hər bir qrup öz qrup adına xidmət edərək onun haqqında tapşırığı həll etməklə fikirlər söyləmiş olur. Bu tapşırıqların reallaşdırılması şagirdlər üçün bir o qədər də çətin olmayacaq. Çünki qoyulan suallar haqqında şagirdlər əvvəlki illərdə keçdikləri Həyat bilgisi fənnindən, eləcə də tarix və ədəbiyyat dərslərindən müəyyən qədər məlumatlıdırlar. Hazırlanmış cavablar təqdim olunduqdan sonra hər bir qrupun işi müzakirə edilməli və qiymətləndirmələr aparılmalıdır. Nəticələrin çıxarılmasında şagirdin iştirakı vacibdir. **F** blokundakı 5-ci tapşırığı ev tapşırığı kimi vermək olar. Yaxud da sinifdə reallaşdırılmayan tapşırıqlardan biri şagirdlər üçün ev tapşırığı ola bilər. Lakin veriləcək tapşırıq yarım qalmış problemi həll etməyə deyil, şagirdlərin bilik və bacarıqlarının inkişafına şərait yaratmalıdır.

Formativ qiymətləndirmənin reallaşdırılması, əslində, bütün dərs boyu aparılmalıdır. Qiymətləndirmə məqsədəuyğun meyar əsasında reallaşdırılmalıdır.

Bu mövzunun tədrisinə 2 saat nəzərdə tutulduğu üçün növbəti saata təqdimat hazırlamağı tapşıra bilərsiniz. Təqdimatın mövzusu "Cəmiyyətdə inteqrasiya" ola bilər.

**Qiymətləndirmə meyarı:** *əsaslandırma*

| I səviyyə | II səviyyə | III səviyyə |
|---|---|---|
| Sahələrarası inteqrasiyanın cəmiyyətin inkişafında əhəmiyyətli rol oynadığını əsaslandırmaqda çətinlik çəkir. | Sahələrarası inteqrasiyanın cəmiyyətin inkişafında əhəmiyyətli rol oynadığını sualların köməyi ilə əsaslandırır. | Sahələrarası inteqrasiyanın cəmiyyətin inkişafında əhəmiyyətli rol oynadığını asanlıqla əsaslandırır. |

## 2. DÖVLƏT HAKİMİYYƏTİ

**Alt standart:** 2.1.2. Cəmiyyətin idarə olunmasında dövlət hakimiyyətinin bölünməsi prinsipini əsaslandırır.
**Məqsəd:** Cəmiyyətin idarə olunmasında dövlət hakimiyyətinin bölünməsi prinsipini əsaslandırır.

**A** blokunda verilmiş hissə sizin motivasiya yaratmanıza kömək edəcək. Şagirdlərə tarix dərsindən tanış olan Misir dövləti haqqındakı məlumat onların idarəçiliklə bağlı fikirlər söyləməsinə imkan yaradacaqdır.

*Misirdə dövlət idarəçiliyi kimə məxsus idi?*

*Verilən bu faktlara əsasən Misirin idarəçiliyini demokratik idarəçilik hesab etmək olarmı?*

Suallara cavab almaq üçün şagirdlərə imkan yaradın. Onların fikirlərini lövhədə qeyd edərək şaxələndirə bilərsiniz. Digər sual belə ola bilər: *Siz hakimiyyət anlayışını necə izah edərdiniz?* Şagirdləri bu sual ətrafında müzakirəyə dəvət edin. Onların fərziyyələrinin dinlənilməsi, lövhədə və yaxud flipçartda qeyd olunması məqsədəuyğundur.

**Tədqiqat** "*Cəmiyyətin həyatında hakimiyyət bölgüsünün prinsipinin rolu nədən ibarətdir?*" sualı ətrafında aparılmalıdır.

Bu mövzunu reallaşdırarkən fərdi və kollektiv iş formasından istifadə etmək də olar. Şagirdlərə mətnlə tanış olmaq üçün vaxt verilir. Sonra onlara dərslikdə verilmiş suallar üzərində müzakirələr aparmaq tapşırılır. Həmçinin "Tarix dərslərindən idarəçiliyə aid yadınızda qalan hər hansı faktları söyləyib münasibət bildirin" tapşırığı fərdi olaraq reallaşdırılmalı və ortaq cəhətlər müəyyən edilib ümumiləşmə aparılmalıdır. Digər bir tapşırıq:

*Azərbaycan Respublikası Konstitusiyasının 7-ci maddəsinin 3-cü və 4-cü hissələrində göstərilir:*

*III. Azərbaycan Respublikasında dövlət hakimiyyəti hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkil edilir:*

- *qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi həyata keçirir;*
- *icra hakimiyyəti Azərbaycan Respublikasının Prezidentinə mənsubdur;*
- *məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının məhkəmələri həyata keçirir.*

*IV. Bu Konstitusiyanın müddəalarına əsasən qanunvericilik, icra və məhkəmə hakimiyyətləri qarşılıqlı fəaliyyət göstərir və öz səlahiyyətləri çərçivəsində müstəqildirlər.*

Konstitusiyamızın bu bəndində verilmiş prinsipləri müzakirə edin.

Bu maddəni şagirdlərlə birgə müzakirə edə bilərsiniz. Bu zaman şagirdlərin dedikləri fikirləri lövhədə qeyd edin. Bu, işin daha səmərəli olması üçün yaxşı nəticə verə bilər.

"Hakimiyyət bölgüsünün sxemini çəkin" tapşırığını yaradıcı tətbiqetmə mərhələsində verə bilərsiniz. Yaxud da ev tapşırığında "Prezident İlham Əliyevin icraedici hakimiyyətin əsas səlahiyyətlisi kimi gördüyü işlər barədə esse yazın" tapşırığını şagirdlərə işləmək üçün vermək olar. Sinfin və şagirdlərin səviyyəsindən asılı olaraq digər sual və tapşırıqları fərdi, yaxud da qrup şəklində verə bilərsiniz.

Qiymətləndirməni apararkən məqsədəuyğun olaraq şagirdlərin əsaslandırma bacarığını əsas götürmək lazımdır. Qiymətləndirməni dərsin istədiyiniz mərhələsində apara bilərsiniz. Həm qruplarda, həm də kollektiv müzakirələrdə fəal iştirak edən şagirdlər aşağıdakı meyar əsasında qiymətləndirilə bilərlər.

**Qiymətləndirmə meyarı:** *əsaslandırma*

| I səviyyə | II səviyyə | III səviyyə |
|---|---|---|
| Cəmiyyətin idarə olunmasında dövlət hakimiyyətinin bölünməsi prinsipini əsaslandırmaqda çətinlik çəkir. | Müəllimin köməyindən istifadə etməklə cəmiyyətin idarə olunmasında dövlət hakimiyyətinin bölünməsi prinsipini əsaslandırır. | Cəmiyyətin idarə olunmasında dövlət hakimiyyətinin bölünməsi prinsipini asanlıqla əsaslandırır. |

## 3. İNSAN HÜQUQLARI

**Alt standart:** 2.2.1. Əsas insan hüquqlarını fərqləndirir.
**Məqsəd:** İnsanların müdafiəsi üçün qəbul edilmiş əsas insan hüquqlarını fərqləndirir.

Bu standartın reallaşdırılması bir qədər asan ola bilər. Çünki şagirdlər insan hüquqlarının qorunması haqqında məlumatlıdırlar. Bu baxımdan şagirdin əvvəlki bilik və bacarıqlarını üzə çıxarmaq üçün düzgün yönləndirici suallardan istifadə etməniz tövsiyə olunur.

**Motivasiya** zamanı şagirdləri **A** blokundakı materialla tanış edin. "Hansı insan hüquq və azadlıqlarını qoruyan sənədləri tanıyırsınız?" sualını verməklə şagirdlərin fəallaşmasına imkan yaradın. Onların diqqətini mətndə olan suallara cəlb edin. **B** blokuna aid olan hissələrlə, yəni mətnlə tanış olan şagirdləri müzakirələrə cəlb etmək dərsi daha da fəal edər. Onlara aşağı siniflərdə keçdikləri tarix dərslərindən məlum olan qərar və qanunları xatırladaraq bu haqda fikirlər söyləməyə imkan yaradın. Sinfin səviyyəsinə görə müxtəlif suallar verməklə şagirdlərin canlanmasına səbəb olun. Onların diqqətini ölkəmizin konstitusiyasına, eləcə də mövzu ilə bağlı hazırladığınız slaydlara cəlb edə bilərsiniz. Bu onların insan hüquqlarının qorunması haqqındakı təsəvvürlərini daha da formalaşdırmağa yardımçı olacaqdır.

**Tədqiqatı aparmaq** üçün *"İnsan hüquq və azadlıqlarının qorunmasında beynəlxalq hüququn rolu nədən ibarətdir?"* sualını vermək olar. Bu tədqiqatın aparılmasında ziqzaq üsulundan istifadə etmək olar. Yaxud da **F** blokunda verilmiş tapşırıqlar əsasında qrup işlərini reallaşdırmaq mümkündür. Bu zaman şagirdlərə öncədən hazırlanmış əlavə paylama materialları verilərsə, daha məqsədəmüvafiq olar.

Şagirdlərlə mətndən verilmiş müəyyən sənədlər haqqında müzakirələr aparın.

İnsan hüquqları sahəsindəki mövcud beynəlxalq müqavilələrin dörd kateqoriyasına əsasən şagirdləri də 4 qrupa bölmək olar. Sonra cədvəli şagirdlərə təqdim edərək qruplara onlara aid olan kateqoriyaya münasibət bildirməyi tapşırın. Tapşırığın icrası bitdikdən sonra qrup liderlərinin təqdimatını müzakirə etmək daha yaxşı olar. Bu müzakirələrin nəticəsi olaraq şagirdlərə maraqlı gələn istiqamətlər barədə ev tapşırığı vermək olar. Məsələn: "İnsan hüquqları qorunur" başlığı altında esse yazın. Yaxud da BMT-nin insan hüquqlarına dair digər sənədlərini araşdıraraq hüquqların qorunmasını əsaslandırın. Təbii ki, bu tapşırıqları verərkən siz sinfinizin bilik və bacarıq səviyyəsini də nəzərə almalısınız.

Qiymətləndirmə məqsədəuyğun müəyyənləşdirilmiş meyar əsasında aparılır.

**Qiymətləndirmə meyarı:** *fərqləndirmə*

| I səviyyə | II səviyyə | III səviyyə |
|---|---|---|
| Əsas insan hüquqlarını fərqləndirməkdə çətinlik çəkir. | Əsas insan hüquqlarını fərqləndirərkən bəzi səhvlər edir. | Əsas insan hüquqlarını asanlıqla fərqləndirir. |

## 4. İNSAN HÜQUQLARININ POZULMASI

**Alt standart:** 2.2.2. Tarixi hadisələrin, faktların və ədəbi əsərlərin nümunəsində insan hüquqlarının pozulmasına dair təqdimatlar hazırlayır.
**Məqsəd:** Tarixi faktlara əsasən insan hüquqlarının pozulmasına dair təqdimat hazırlayır.

**A** blokunda verilmiş hissəni şagirdlərə oxudun. Bu hissə şagirdlər üçün motivasiya ola bilər. Bu hissəni şagirdlərə oxutduqdan sonra onlara yönləndirici suallar verməklə diqqətlərini insan hüquqlarının pozulmasına istiqamətləndirin. Tarixdən öyrəndikləri bir çox hadisələri insan hüquqlarının pozulması faktı kimi şagirdlərə özünüz hekayə şəklində də nəql edə bilərsiniz. Yaxud da onlara mətn oxunmasını təklif edə bilərsiniz. Mətnin müəyyən hissəsini oxutduqdan sonra onların həmin hissələri müzakirə etməsini tapşırmaq olar. "*Siz insanların hüquq və azadlıqlarının pozulmaması faktını necə sübut edərdiniz?*" sualını şagirdlərə verərək onlardan cavablar almağa çalışın. Onların söylədiyi fikirləri, təklifləri, yaxud da adları lövhədə və ya flipçartda qeyd edərək insan hüquqlarının pozulmasını tarixi faktlara əsasən dəqiqləşdirin.

**Tədqiqat sualı: Tarixi proseslərin insan hüquqlarının pozulmasına təsiri nədən ibarət olmuşdur?**

Mətnin müzakirəsi zamanı şagirdlərin diqqətini "tarixən qul kimi məhkum edilmiş insanları müxtəlif adlarla – "danışan alət", "gözünü yuxarı qaldırmayanlar" və s. adlandırıb istismar etmişlər" cümləsinə yönləndirin. Onlara bu fikir tanışdı. Şagirdlərə bu anlayışları hansı ölkədə və nə üçün istifadə olunması haqqında məlumat vermələrini tapşırmaq olar.

"*Tarix dərslərinizdən araşdırdığınız Varfolomey gecəsinin başvermə səbəbi nə idi? Bu faciəni insan hüquqlarının pozulması faktı kimi necə dəyərləndirirsiniz?*" suallarına şagirdlərin cavab verməsinə şərait yaradın.

"*Qarabağ müharibəsini insan hüquqlarının pozulması faktı kimi dəyərləndirmək olarmı?*" sualına cavab vermək üçün şagirdləri cütlərdə işlətmək olar. Onların yazdıqları cavabları müzakirə edə bilərsiniz. Yaxud da siz bu sual vasitəsilə debat tətbiq edə bilərsiniz. Vaxtdan asılı olaraq mətndə verilən tapşırıqların sinifdə reallaşdırılmasına şərait yarada bilərsiniz. Yaxud da ev tapşırığı kimi vermək olar.

Bu mövzunu 2 saat müddətində reallaşdırmaq daha münasib olar. Şagirdlərə "Xocalı faciəsini insan hüquqlarının pozulması faktı kimi dəyərləndirərək təqdimat hazırlayın" tapşırığını verə bilərsiniz.

İnsan hüquqlarının pozulmasını tarixi faktlar əsasında müəyyənləşdirərək təqdimat hazırlayın.

"*İnsanların hüquq və azadlıqları boğulur*" adlı esse yazın. Tapşırıqları evə verə bilərsiniz. Növbəti dərsi şagirdlərin hazırladıqları təqdimata həsr etmək daha münasib olar. Təqdimatın hazırlanması zamanı siz şagirdləri cütlərlə, yaxud da qrupla işləməyə sövq edə bilərsiniz. Bununla da təqdimatın reallaşdırılması üçün həm zaman baxımından vaxta qənaət edərsiniz, həm də şagirdlərdə birgə iş bacarıqlarını formalaşdırmış olarsınız.

**Qiymətləndirmə meyarı:** *təqdimathazırlama*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Faktlara əsasən insan hüquqlarının pozulmasına dair təqdimat hazırlamaqda çətinlik çəkir. | Faktlara əsasən insan hüquqlarının pozulmasına dair təqdimatı hazırlayarkən ciddi səhvlərə yol verir. | Faktlara əsasən insan hüquqlarının pozulmasına dair təqdimat hazırlayarkən köməkdən istifadə edir. | Faktlara əsasən insan hüquqlarının pozulmasına dair təqdimat hazırlayır. |

## 5. İQTİSADİYYAT. *MALİYYƏ*

Bu mövzunun tədrisi üçün ümumilikdə 6 saat nəzərdə tutulmuşdur. İqtisadiyyatın maliyyə məsələlərinə dair təqdim edilmiş mövzu üçün 2 saat vaxt ayrılır. Bunun üçün aşağıdakı standartlara uyğun məqsəd reallaşdırılır. Şagirdlərin maliyyə ilə bağlı biliklərini artırmaq üçün bu mövzuya dair əlavə materialların toplanması və təqdimatın hazırlanması 2-ci saat üçün planlaşdırılır.

**Alt standart:** 2.3.1. İstehsal infrastrukturlarına (maliyyə, vergi, sığorta) dair təqdimatlar hazırlayır.
**Məqsəd:** İstehsal infrastrukturu olan maliyyəyə dair təqdimat hazırlayır.

**A** blokunda verilmiş hissəyə sual verməklə **motivasiya** yaratmaq olar. Bu, şagirdlərin araşdıracağı problemə fəallaşaraq cəlb olunması üçün maraqlı ola bilər. Orada verilmiş situasiya, demək olar ki, bütün siniflərdə bu və ya digər formada baş verdiyindən şagirdlərin canlanmasına səbəb ola bilər. Motivasiyadan sonra qoyulmuş tapşırığı şagirdlərə qrup şəklində işləmək üçün verə bilərsiniz. Bu tapşırığın verilməsində məqsəd şagirdlərin hesablama aparmaqla maliyyə hesablarını bilməsinin zəruriliyini dərk etməsidir. Bu dərsin reallaşdırılmasında müzakirədən daha geniş istifadə olunmalıdır. Şagirdlərin bu işə cəlb olunması üçün tarix dərslərində öyrəndiyi materiallar əsasında yönləndirici suallar tərtib etmək gərəkdir. Bu kimi suallar şagirdlərin tarix dərsindəki biliklərinin xatırlanmasına kömək olacaqdır.

**Tədqiqat** aparmaq üçün "*Maliyyənin cəmiyyətin həyatında rolu nədən ibarətdir?*" sualı ətrafında şagirdləri araşdırmaya cəlb etmək lazımdır.

Bu tədqiqatın aparılması üçün fərdi və qrup işi aparmaq olar. Şagirdlərə aşağıda verilmiş cədvəli doldurmağı tapşıra bilərsiniz.

| Tarix | Gəlirin mənbəyi və miqdarı | Mən nə aldım? | Neçəyə idi? | Bu istək, yoxsa ehtiyac idi? |
|---|---|---|---|---|
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| Cəmi | | | | |

"*Maliyyə nə deməkdir?*", "*Maliyyə sisteminin həyata keçirilməsi deyərkən nə başa düşürsünüz?*" sualları kollektivə verilir. Onların söylədikləri fərziyyələr lövhədə yazılaraq ümumi nəticəyə gəlmək üçün şaxələndirmə aparılır.

"Maliyyəyə aid təqdimat hazırlayın" tapşırığını dərsin yaradıcı tətbiqetmə mərhələsində şagirdlərə verə bilərsiniz.

Öz həftəlik maliyyə xərclərinizin siyahısını tutun və xərclərinizi hesablayın.

Ev tapşırığı kimi "Mən maliyyə naziri olsaydım" adlı esse yazmaq tapşırıla bilər.

Qrup qiymətləndirmə meyarları ilə yanaşı, standarta uyğun qiymətləndirmə meyarı əsasında formativ qiymətləndirmə də aparmaq olar. Bu zaman özünüqiymətləndirmə vərəqləri də tətbiq edilə bilər.

**Qiymətləndirmə meyarı:** *təqdimathazırlama*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| İstehsal infrastrukturu olan maliyyəyə dair təqdimat hazırlayarkən ciddi səhvlər edir. | İstehsal infrastrukturu olan maliyyəyə dair təqdimat hazırlanmasında müəllimin köməyindən istifadə edir. | İstehsal infrastrukturu olan maliyyəyə dair təqdimatı sistemsiz hazırlayır. | İstehsal infrastrukturu olan maliyyəyə dair təqdimat hazırlayır. |

## 6. VERGİ

İqtisadiyyatın digər mövzusu olan vergi məsələsi üçün 2 saat nəzərdə tutulmuşdur.

**Alt standart:** 2.3.1. İstehsal infrastrukturlarına (maliyyə, vergi, sığorta) dair təqdimatlar hazırlayır.
**Məqsəd:** İstehsal infrastrukturu olan vergiyə aid təqdimat hazırlayır.

Bu mövzuya başlayarkən şagirdlərlə daha çox tarix dərslərindən tanış olduqları mövzulara inteqrasiya etmək olar. Motivasiya zamanı müxtəlif suallardan istifadə edərək, şagirdlərin diqqətini araşdıracaqları problemə doğru yönləndirmək olar. Şagirdlərə mövzunun əvvəlində verilmiş tapşırığı icra etmələri tapşırıla bilər. Verilən suala *(“Sizcə, vergilərin yığılması nə üçün vacibdir?”)* cavab vermək üçün şagirdlərə bir neçə dəqiqə vaxt verilsə, daha düzgün olar. Şagirdlərin verdiyi cavablar lövhədə, yaxud da flipçartda qeyd olunarsa, daha məqsədəuyğun olar. Cavablar alındıqdan sonra fasiləli oxu üsulundan istifadə edərək mətni şagirdlərə oxutdura bilərsiniz. Hər oxunan abzasın müzakirəsi aparılarsa, şagird üçün daha səmərəli nəticə göstərər.

Tədqiqat “*Cəmiyyətin həyatında verginin rolu nədən ibarətdir?*” sualı ətrafında aparılmalıdır.

Bunun üçün də şagirdləri tədqiqata cəlb etməklə müəyyən tapşırıqlar verilməlidir. Tədqiqat sualı qoyulduqdan sonra şagirdləri qruplara bölmək lazımdır. Bölgü apararkən daha çevik və maraqlı vasitələrdən istifadə etmək şagirdlərin marağına səbəb olar. Eyni zamanda vaxta qənaət etmiş olarsınız. Bu işdə rəngli stikerlər və ya rəqəmlər köməyinizə çata bilər.

Tədqiqatın aparılması üçün dərslikdə verilmiş tapşırıqlardan istifadə etmək olar. Şagirdlər tapşırıqları təqdimat şəklində hazırlasa, daha yaxşı olar. Məktəbinizin texniki bazasına uyğun olaraq bu təqdimat elektron da ola bilər. Əgər belə bir

şəraitə malik deyilsinizsə, flipçart üzərində iş görməklə tapşırıqları reallaşdırmağı tapşıra bilərsiniz. Bu tapşırıqların reallaşdırılması şagirdlər üçün bir o qədər də çətin olmayacaq. Çünki qoyulan suallar haqqında şagirdlər əvvəlki illərdə keçdikləri Həyat bilgisi fənnindən, eləcə də tarix dərslərindən müəyyən qədər məlumatlıdırlar. Hazırlanmış cavablar təqdim olunduqdan sonra hər bir qrupun işi müzakirə edilməli və qiymətləndirmələr aparılmalıdır. Nəticələrin çıxarılmasında şagirdin iştirakı vacibdir.

Ev tapşırığı kimi sinifdə reallaşdırılmayan tapşırıqlardan biri şagirdlərə ev tapşırığı ola bilər. Lakin veriləcək tapşırıq yarımçıq qalmış problemi həll etmək üçün deyil, şagirdlərin bilik və bacarıqlarının inkişafına şərait yaratmalıdır.

Bu mövzunun 2-ci saatına vergilər haqqında əlavə məlumatlar toplamaq, onun dövlət üçün əhəmiyyətini özündə əks etdirən təqdimatın hazırlanmasını şagirdlərə tapşırmaq olar. Təqdimatlar fərdi və ya qrup şəklində verilə bilər. Məqsəd şagirdlərdə bu mövzu ilə bağlı bilik və bacarıqları formalaşdırmaq, inkişaf etdirməkdir.

Qiymətləndirmənin reallaşdırılması, əslində, bütün dərs boyu aparılmalıdır. (Dərsin istənilən mərhələsində apara bilərsiniz.) Qiymətləndirmə məqsədəuyğun meyar əsasında reallaşdırılmalıdır.

**Qiymətləndirmə meyarı:** *təqdimathazırlama*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| İstehsal infrastrukturu olan vergiyə aid təqdimat hazırlayarkən çətinlik çəkir. | İstehsal infrastrukturu olan vergiyə aid təqdimat hazırlayarkən köməkdən istifadə edir. | İstehsal infrastrukturu olan vergiyə aid təqdimat hazırlayarkən bəzi səhvlərə yol verir. | İstehsal infrastrukturu olan vergiyə aid təqdimatı asanlıqla hazırlayır. |

## 7. SIĞORTA

**Alt standart:** 2.3.1. İstehsal infrastrukturlarına (maliyyə, vergi, sığorta) dair təqdimatlar hazırlayır.
**Məqsəd:** İstehsal infrastrukturu olan sığortaya aid təqdimat hazırlayır.

Mövzu müxtəlif şəkillərin təqdimatı ilə başlayır. Bu şəkillər zəlzələ, sel və daşqından dağılmış ev, qəzaya uğramış maşındır. Şagirdlərin diqqətini **motivasiyaya** yönəltdikdən sonra "*Bu hadisələrdən daha az ziyanla çıxmaq üçün bizə ən yaxşı köməkçi vasitə nə ola bilər?*" sualını verməklə onları fəallaşdırın. Şagirdlərin fikirlərini lövhədə qeyd edin. Onların cavablarını sığortaya yönləndirmək üçün yönləndirici suallar versəniz, daha münasib olar. Motivasiya çox uzun və yorucu olmalıdır. Şa-

girdlərdən birindən xahiş edin ki, mətnin ilk abzasını oxusun. Sonra verilmiş sualları, yəni "*Sizcə, həyatın bu cür gözlənilməz hadisələrini az zərərlə adlamaq üçün nə etmək olar? Bizim hansı çıxış yollarımız vardır? Belə bir öhdəliyi üzərinə götürən qurumun fəaliyyəti haqqında nələri bilirsiniz?*" suallarını müzakirəyə qoyun. Fasiləli oxu üsulundan istifadə etməklə mətnlə şagirdləri tanış edin. Aydın olmayan hissələrdə dayanmaqla şagirdlərin məlumat bazasını artırın.

**Tədqiqatın aparılması** üçün "*Sığortanın həyatımızdakı rolu nədən ibarətdir?*" sualını tədqiqat sualı kimi qoymaq olar. Tədqiqatın aparılması zamanı şagirdlər dərslikdə verilmiş tapşırıqlardan istifadə edə bilərlər. Bu işi fərdi reallaşdırmaq daha düzgün olar. Fərdi işi variantlaşdırıb vermək olar. Sinifdəki şagirdləri 1-2 sadalamaqla onlara dərslikdə araşdırma tələb edən tapşırıqları vermək olar.

**Yaradıcı tətbiqetmə** mərhələsində "*Hansı sığorta şirkətini tanıyırsınız? Tanıdığınız sığorta şirkəti haqqında təqdimat hazırlayın. Və ya sığorta haqqında esse yazın*" tapşırıqlarını şagirdlərə vermək düzgün olar.

**Qiymətləndirmə** apararkən qrup qiymətləndirmə meyarları ilə yanaşı, standarta uyğun qiymətləndirmə meyarı əsasında formativ qiymətləndirmə aparmaq olar. Bu zaman özünüqiymətləndirmə vərəqləri də tətbiq etmək olar.

Dərsin 2-ci saatına icbari sığorta ilə bağlı təqdimatın hazırlanmasını verə bilərsiniz. Əvvəlcədən hazırlanmış təqdimatlar dərs boyu təqdim edilərək müzakirə edilir və qiymətləndirilir.

**Qiymətləndirmə meyarı:** *təqdimathazırlama*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| İstehsal infrastrukturu olan sığortaya aid təqdimat hazırlamaqda çətinlik çəkir. | İstehsal infrastrukturu olan sığortaya aid təqdimat hazırlayarkən müəllimin köməyindən istifadə edir. | İstehsal infrastrukturu olan sığortaya aid təqdimatı sistemsiz hazırlayır. | İstehsal infrastrukturu olan sığortaya aid təqdimatı sərbəst hazırlayır. |

## II TƏDRİS VAHİDİ ÜZRƏ QİYMƏTLƏNDİRMƏ VASİTƏLƏRİNƏ DAİR NÜMUNƏLƏR

**1. Cəmiyyətin inkişafına təkan verən amillər haqqında məlumat verin.**

______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________

**2. Ulu öndər Heydər Əliyevin 4 may 1994-cü il tarixində imzaladığı sənədə aid olanı seçin.**

A) Bakı–Tbilisi–Ceyhan layihəsi
B) UNESKO ilə əməkdaşlıq
C) Sülh naminə Tərəfdaşlıq üzrə Çərçivə sənədi
D) BMT

**3. Hakimiyyətin bölünmə prinsipi hansı sırada düzgün verilmişdir?**

A) məhkəmə, prezident, icra hakimiyyəti
B) qanunverici, icraedici, məhkəmə
C) prezident, baş nazir, məhkəmə
D) icra başçısı, hakim, icra hakimiyyəti

**4. Qanunverici hakimiyyətin funksiyasını izah edin.**

______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________

**5. Azərbaycan Respublikasında 10 ildən artıq daimi yaşayan, ağır cinayətə görə məhkum olunmayan, ikili vətəndaşlığı olmayan şəxslər...**

1. Milli Məclisin deputatı ola bilər.
2. Ali Məhkəməyə hakim seçilə bilər.
3. Prezident seçilə bilər.

A) 1, 2, 3    B) 3    C) 2, 3    D) 1

**6. Aşağıdakı əlamətləri aid etmək olar:**

- dövlət hakimiyyətinin universallığı, yəni qərarların hamıya şamil olunması
- dövlət hakimiyyətinin xüsusi aparat vasitəsilə həyata keçirilməsi
- dövlət hakimiyyətinin cəmiyyətdə məcburiyyət monopoliyasına malik olması
- dövlət hakimiyyətinin suverenliyi

A) Məhkəmə hakimiyyətinə
B) Milli Məclisə
C) Nazirlər Kabinetinə
D) Təhsil Nazirliyinə

**7. 10 dekabr 1948-ci il tarixində BMT Baş Assambleyasının 217 saylı qətnaməsi ilə qəbul edildi...**

A) İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt
B) Ümumdünya İnsan Hüquqları Bəyannaməsi
C) Vətəndaş və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt
D) Uşaq Hüquqlarının Qorunması Bəyannaməsi

**8. İnsan hüquqlarının qorunmasını əsaslandırın.**

______________________________________________
______________________________________________
______________________________________________
______________________________________________
______________________________________________

**9. BMT-nin Təhlükəsizlik Şurası tərəfindən 822, 853, 874 və 884 saylı qətnamələr nə ilə bağlı idi?**

A) Beynəlxalq sülh naminə idi.
B) Qarabağda baş vermiş münaqişə ilə bağlı idi.
C) II Dünya müharibəsinin nəticələrinə aid idi.
D) I Dünya müharibəsinin nəticələrinə aid idi.

**10. İnsan hüquqlarının qorunmasına aid olan sənədlərin qəbul edilməsi nəyi sübut edir?**

A) Qanunlardakı boşluğun çox olmasını
B) İnsan hüquqlarının qorunmamasını həyata keçirən orqanların olmamasını
C) Hüquqların qorunmasının beynəlxalq səviyyədə həyata keçirilməsini
D) Bu barədə heç bir sənədin olmamasına görə

**11. Maliyyə...**

A) İqtisadiyyatın bir qolu sayılır.
B) Dövlətin idarəçiliyində istifadə olunur.
C) Hüquqları qoruyur.
D) Uşaqların təhsil almasına xidmət edir.

**12. Mərkəzləşdirilməmiş pul fondlarına daxildir:**

A) Mərkəzi Bank, Vergilər Nazirliyi, Maliyyə Nazirliyi
B) yığım fondu, istehlak və ehtiyat fondları
C) banklar
D) sığorta şirkətinə

**13. Sığortanın hansı formaları həyata keçirilir?**

A) icbari sığorta
B) könüllü sığorta
C) icbari və könüllü sığorta
D) məcburi sığorta

**14. Verginin əhəmiyyətini izah edin.**

______________________________________________
______________________________________________
______________________________________________
______________________________________________
______________________________________________

**15. Milli Məclisin 25 iyun 1999-cu il qərarı ilə respublikamızda ilk dəfə**

A) "Sığorta haqqında" qanun qəbul edilmişdir.
B) "Vergi haqqında" qanun qəbul edilmişdir.
C) "Maliyyə haqqında" qanun qəbul edilmişdir.
D) "Təhsil haqqında" qanun qəbul edilmişdir.

**16. Azərbaycan Respublikasında aşağıdakı vergilər müəyyən edilir və ödənilir:**

1. Dövlət vergiləri
2. Muxtar respublika vergiləri
3. Yerli vergilər (bələdiyyə vergiləri)
4. Gəlir vergiləri
5. Məhsul vergisi

A) 1, 2, 3 B) 1, 3, 5 C) 3, 4, 5 D) 3, 5

**17. "Vergilər dövlətin gəlir mənbəyidir" fikrini əsaslandırın.**

______________________________________________________________

______________________________________________________________

______________________________________________________________

______________________________________________________________

______________________________________________________________

______________________________________________________________

**18. Azərbaycan Respublikasında vergilər ödənilir...**

A) dollarla
B) məhsul və pulla
C) pul vahidimiz olan manatla
D) qızılla

**19. Vergilər Nazirliyi:**

A) Əhalinin maliyyə işlərinə nəzarət etməklə gəlirlərin hesablanmasına, onların artımına nəzarət edən mərkəzi icra hakimiyyəti orqanıdır.
B) Maliyyə və sığortaya nəzarət etməklə ölkənin gəlirini artıran sahələrə dövlət nəzarətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.
C) Dövlət büdcəsinə vergilərin və digər daxilolmaların vaxtında və tam yığılmasını təmin edən və bu sahədə dövlət nəzarətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.
D) İnsanlardan vergiləri toplayaraq dövlətin büdcəsini yaradır.

**20. Maliyyə Nazirliyi və Vergilər Nazirliyi aiddir:**

A) Qanunverici hakimiyyətə
B) İcraedici hakimiyyətə
C) Azərbaycan Respublikasının Milli Məclisinə
D) Nazirlər Kabineti və Prezidentə

# III TƏDRİS VAHİDİ:
# MƏNİM MƏNƏVİ DÜNYAM

## TƏDRİS VAHİDİ ÜZRƏ REALLAŞDIRILMIŞ MƏZMUN STANDARTLARI

**3.1.1. İnsanlararası münasibətlərdə ümumi cəhətlərin əhəmiyyətini dəyərləndirir.**

**3.2.1. İnsan mənəviyyatının formalaşmasında vəzifə və məsuliyyətin əhəmiyyətini dəyərləndirir.**

**3.2.2. Vətən və dövlət qarşısında mənəvi borcunu dərk etdiyini nümayiş etdirir.**

**3.3.1. Cəmiyyətdə birgəyaşayış qaydalarının formalaşmasında dini-əxlaqi dəyərlərin rolunu qiymətləndirir.**

## 1. MÜNASİBƏTİ NECƏ QURURUQ?

**Alt standart:** 3.1.1. İnsanlararası münasibətlərdə ümumi cəhətlərin əhəmiyyətini dəyərləndirir.
**Məqsəd:** İnsanlararası münasibətlərdə ümumi cəhətlərin əhəmiyyətini dəyərləndirir.

Şagirdlərdə idraki fəallığı **A** blokuna əsasən yarada bilərsiniz. Bu məqsədlə **A** blokundakı mətn oxunmalı və şagirdlərin fikirləri lövhədə qeyd olunaraq müzakirə edilməlidir.

**Motivasiyanı** şagirdlərin aşağı siniflərdən Həyat bilgisi fənnindən öyrəndiklərini yada salmaqla da yarada bilərsiniz. Bu məqsədlə alman filosoflarından birinin sözlərini ya slaydda təqdim etmək, ya da şifahi səsləndirmək olar: “Konfliktli vəziyyət yaranıbsa və sən heç cür qarşındakı insana onun səhvini sübut edə bilmirsənsə, ən sadə üsul mən öz fikrimdə qalıram, sən də öz fikrində qal deməkdir”.

“*Sizcə, konfliktlərin yaranmasına səbəb nədir?*”, “*İnsanlararası münasibətlərin yaranmasına hansı amillər təsir göstərir?*” suallarına şagirdlərin verdikləri cavablar flipçartda və yaxud da lövhədə qeyd oluna bilər.

**Tədqiqat sualı:** İnsanlararası münasibətlərin tənzimlənməsinin əhəmiyyəti nədən ibarətdir?

Paraqrafın nəzəri materialı ilə tanışlıq fasiləli oxu, İNSERT, kiçik qruplarda müzakirələr və digər üsullarla aparıla bilər. Müzakirələrdə bədii əsərlərdən nümunələrə, şəkillərə, elektron təqdimata, filmlərdən fraqmentlərə istinad etmək olar. “*Bu fikri necə başa düşürsünüz?*”, “*Nəyə görə bu münasibətlər formal (yaxud qeyri-formal) hesab olunur?*” kimi suallarla şagirdlərə müraciət oluna bilər.

**B1** və **B2** bloklarındakı tapşırıq fərdi şəkildə icra olunmalı və qrup daxilində müzakirə olunmalıdır. Tapşırıq icra olunduqdan sonra videomaterial da nümayiş etdirilə bilər **(http://www.youtube.com/watch?v=4J3gsez6LsQ)**.

Yeniyetməlik dövrü ilə əlaqədar olaraq bu tip tapşırıqlar şagirdlərin marağına səbəb olsa da, əsas məqsəddən uzaqlaşmamağa çalışın.

Verilmiş şəkli və şəkilaltı yazını şagirdlərlə birlikdə müzakirə edin. Maraqların da insanlararası münasibətlərə təsir etdiyini, lakin dost, yoldaş seçərkən ehtiyatlı olmağın vacibliyini xüsusi vurğulamanız vacibdir.

**F** blokundakı tapşırıqlardan **yaradıcı tətbiqetmə** mərhələsində istifadə edə bilərsiniz. **F** blokundakı 1-ci tapşırıq ev tapşırığı kimi verilə bilər.

Təlim məqsədlərinə nail olmaq dərəcəsini aşağıdakı meyarlar üzrə qiymətləndirə bilərsiniz.

**Qiymətləndirmə meyarı:** *dəyərləndirmə*

| I səviyyə | II səviyyə | III səviyyə |
|---|---|---|
| İnsanlararası münasibətlərdə ümumi cəhətlərin əhəmiyyətini dəyərləndirərkən səhvlərə yol verir. | İnsanlararası münasibətlərdə ümumi cəhətlərin əhəmiyyətini müəllimin sualları əsasında dəyərləndirir. | İnsanlararası münasibətlərdə ümumi cəhətlərin əhəmiyyətini sərbəst dəyərləndirir. |

## 2. İNSANLARARASI MÜNASİBƏTLƏR

**Alt standart:** 3.1.1. İnsanlararası münasibətlərdə ümumi cəhətlərin əhəmiyyətini dəyərləndirir.
**Məqsəd:** İnsanlararası münasibətlərdə ümumi cəhətlərin əhəmiyyətini dəyərləndirir.

Mövzu ilə bağlı **motivasiyanı** müxtəlif cür yarada bilərsiniz:

a) Şagirdlərin fikirlərini **A** blokundakı şərhə yönəltməklə idraki fəallıq yarada bilərsiniz.

b) Dərsə şagirdlərin 7-ci sinif Həyat bilgisi fənnindən əldə etdikləri bilik və bacarıqlara əsaslanmaqla da başlaya bilərsiniz. Bunun üçün şagirdlərə "*Ağıl, şüur, sevgi, maraq, istək, qəzəb, qısqanclıq, qeybət və iftiranın insanlararası münasibətlərə təsir etdiyi sizə məlumdur. Sizcə, insanlararası münasibətlərə başqa hansı amillər təsir göstərir?*", "*İnsanlararası münasibətlərdə bu kimi ümumi cəhətlərin nə kimi əhəmiyyəti vardır?*" sualları ilə müraciət etməniz məqsədəuyğundur. Şagirdlərin fikirləri dinlənilməli, ehtiyac varsa, yönəldici suallar verilməlidir.

Şagirdlər **C** blokundakı nəzəri materialla fasiləli oxu, müzakirə üsullarından istifadə etməklə tanış ola bilərlər. Bu zaman müzakirələrdə bədii əsərlərdən nümunələrə, videomateriallara, filmlərdən fraqmentlərə də ("Qaraca qız", "Ögey ana") istinad etmək olar. Təqdim edilən nümunələrdə insanları birləşdirən, onları dost, sirdaş, həyat yoldaşı, qohum edən amillərin olmasına xüsusi diqqət edin.

**Tədqiqat sualı:** Mənfi və müsbət cəhətlərin insanlararası münasibətlərə təsiri nədən ibarətdir?

Tədqiqat qruplarda aparılarsa, hər qrupa müxtəlif tapşırıqlar verilə bilər. Bunun üçün bədii əsərlərdən müəyyən hissələri paylama materialı kimi şagirdlərə təqdim etmək olar.

**Tədqiqatın aparılması** və yaxud da tətbiq mərhələsində **F** blokundakı tapşırıqlardan istifadə edə bilərsiniz.

Müzakirələr zamanı insanlararası münasibətlərdə əməksevərlik, məsuliyyətlilik, qayğıkeşlik, sadiqlik, təvazökarlıq kimi ümumi cəhətlərin müsbət rolunu, qeybət, laqeydlik, eqoistlik, lovğalıq, səliqəsizlik, iftira və s. isə bu münasibətlərə balta çaldığını xüsusi vurğulamaq lazımdır. İnsanlar arasında ümumi cəhətlərin olmaması onların mənəvi cəhətdən "sınmasına" səbəb olur.

**Qiymətləndirmə meyarı:** *dəyərləndirmə*

| I səviyyə | II səviyyə | III səviyyə |
|---|---|---|
| İnsanlararası münasibətlərdə ümumi cəhətlərin əhəmiyyətini dəyərləndirərkən səhvlərə yol verir. | İnsanlararası münasibətlərdə ümumi cəhətlərin əhəmiyyətini müəllimin sualları əsasında dəyərləndirir. | İnsanlararası münasibətlərdə ümumi cəhətlərin əhəmiyyətini sərbəst dəyərləndirir. |

## 3. VƏZİFƏLƏRİMİZ VƏ MƏSULİYYƏTİMİZ

**Alt standart:** 3.2.1. İnsan mənəviyyatının formalaşmasında vəzifə və məsuliyyətin əhəmiyyətini dəyərləndirir.
**Məqsəd:** Vəzifə və məsuliyyətin mənəviyyatın formalaşmasındakı əhəmiyyətini dəyərləndirir.

Şagirdlərdə idraki fəallığı **A** blokundakı mətnə əsasən yarada bilərsiniz. Bu məqsədlə **A** blokundakı hissəni şagirdlərə oxudun. Şagirdlərə gündəlik həyatındakı işləri barədə suallar verin. Onlardan vəzifələrinin nə olduğunu soruşmaq olar. Fasiləli oxu üsulundan istifadə edərək dərslikdəki mətni oxutmaqla müzakirə təşkil oluna bilər. Fasiləli oxu – *mətnin hissə-hissə oxunmaqla müzakirə olunmasıdır.* **Tədqiqat** isə "*Vəzifə və məsuliyyətlərin insanın həyatında hansı mühüm rolu vardır?*" sualı ətrafında aparılmalıdır. Tədqiqata başlamazdan əvvəl sinifdəki şagirdləri qruplara ayırmaq məqsədəuyğundur. Bunun üçün sinifdəki şagirdlərin sayına müvafiq olaraq onlara "bir"dən "beş"ə kimi (az da ola bilər) saymaq tapşırılır. Eyni rəqəmli şagirdlər: bütün "birlər", bütün "ikilər" və s. bir qrupda birləşdirilir. Tədqiqatın aparılması üçün **B** və **F** blokundakı 1-ci, 2-ci və 3-cü tapşırıqlardan istifadə etmək olar. Tapşırıqlar icra olunduqdan sonra onun təqdimatını reallaşdırın. Təqdimatdan sonra qrupların işini müzakirə etmək gərəkdir. Qrupların işini mütləq öncədən hazırladığınız qrup meyar cədvəlinə uyğun qiymətləndirin.

**F** blokundakı 4-cü tapşırığın icrası ev tapşırığı kimi verilə bilər.

İşin sonunda gəlinən nəticə tədqiqat sualına cavab olmalıdır. Tədqiqat sualına verilən cavab isə, təbii ki, məqsədimizə xidmət edir.

Qiymətləndirməni dərsin istənilən mərhələsində apara bilərsiniz. Həm qruplarda, həm də kollektiv müzakirələrdə iştirak edən şagirdlər aşağıdakı meyar əsasında qiymətləndirilə bilər.

**Qiymətləndirmə meyarı:** *dəyərləndirmə*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Vəzifə və məsuliyyətin mənəviyyatın formalaşmasındakı əhəmiyyətini dəyərləndirməkdə çətinlik çəkir. | Vəzifə və məsuliyyətin mənəviyyatın formalaşmasındakı əhəmiyyətini dəyərləndirərkən əsaslı səhvlərə yol verir. | Müəllimin köməyindən istifadə etməklə vəzifə və məsuliyyətin mənəviyyatın formalaşmasındakı əhəmiyyətini dəyərləndirir. | Vəzifə və məsuliyyətin mənəviyyatın formalaşmasındakı əhəmiyyətini asanlıqla dəyərləndirir. |

## 4. MƏNİM MƏNƏVİ BORCUM

**Alt standart:** 3.2.2. Vətən və dövlət qarşısında mənəvi borcunu dərk etdiyini nümayiş etdirir.
**Məqsəd:** İnsanın vətən və dövlət qarşısında mənəvi borcunu izah edir.

**A** blokunda verilmiş motivasiya ilə şagirdlərdə idraki fəallıq yarada bilərsiniz. Bunun üçün şagirdlərlə birgə Şah İsmayıl Xətainin sözlərinə münasibət bildirin. Bu zaman Qarabağ müharibəsi zamanı könüllü müharibəyə gedən, vətən yolunda canından keçən igid oğlanlarımızın adlarını da çəkə bilərsiniz.

**Motivasiya** məqsədilə "*Mənəvi borc nədir*?" sualı ilə də şagirdlərə müraciət edə bilərsiniz. Bu zaman şagirdlərin qeyd etdikləri fikirləri lövhədə yazaraq vətən, dövlət, varlıq, cəmiyyət qarşısındakı borclara müvafiq qruplaşdıra bilərsiniz. Bu zaman şagirdlər aşağı siniflərdən Həyat bilgisi fənni üzrə əldə etdikləri biliklərə əsaslana bilərlər. Şagirdlərin fikirlərini Vətən və dövlət qarşısındakı mənəvi borc üzərinə yönəldərək "*Vətən və dövlət qarşısındakı borcumuzu necə yerinə yetirməliyik*?" sualı ətrafında tədqiqata başlanılmalıdır.

Tədqiqatın kollektivdə icrası üçün **C** blokundakı nəzəri materialın fasiləli oxu üsulu ilə oxunub müzakirə olunması mümkündür. Müzakirələrin aparılmasında bütün sinfin iştirakını təmin etməyə çalışın. Bu zaman Ümummilli lider Heydər Əliyevin vətən və dövlət naminə gördüyü işlər, Hacı Zeynalabdin Tağıyevin xeyriyyəçi tədbirləri xüsusi vurğulanmalıdır. Bu müzakirələr zamanı aşağıdakı videomateriallardan istifadə etmək olar:

https://www.youtube.com/watch?v=86h58kQn1Vo
https://www.youtube.com/watch?v=rlqPa4YzzyM

Əgər tədqiqatın qruplarda və yaxud cütlərdə aparılmasını istəsəniz, **B** və **F** blokundakı 1-ci tapşırıqdan istifadə edə bilərsiniz. Bu məqsədlə şagirdlərə H.Əliyevin, H.Z.Tağıyevin, Ç.Mustafayevin və s. vətən övladlarının vətəni, dövləti, xalqı naminə gördükləri işləri dərslikdən, İnternetdən və yaxud paylama materialından istifadə etməklə araşdırmalarını tapşıra bilərsiniz. **F** blokundakı 1-ci tapşırıqdan da tədqiqat məqsədilə istifadə etmək mümkündür. **F** blokundakı 2-ci tapşırığın icrası evə verilə bilər.

Sonda Əməkdar artist Aybəniz Haşımovanın vətənpərvərlik mövzusunda olan mahnılarından birini, məsələn, "Qarabağ balladası"nı və yaxud "Vətəndən pay olmayır" mahnısını dinlədə bilərsiniz.

İşin sonunda gəlinən nəticə tədqiqat sualına cavab olmalıdır. Tədqiqat sualına verilən cavab isə, təbii ki, məqsədimizə xidmət edir. Məqsədimizin nə dərəcədə reallaşdırılması isə qoyulan meyara verilən cavabdan asılıdır.

**Qiymətləndirmə meyarı:** *izahetmə*

| I səviyyə | II səviyyə | III səviyyə |
|---|---|---|
| Vətən və dövlət qarşısında mənəvi borcunu izah etməkdə çətinlik çəkir. | Vətən və dövlət qarşısında mənəvi borcunu izah edərkən səhvlərə yol verir. | Vətən və dövlət qarşısında mənəvi borcunu ətraflı izah edir. |

## 5. DİNİ-ƏXLAQİ DƏYƏRLƏR

**Alt standart:** 3.3.1. Cəmiyyətdə birgəyaşayış qaydalarının formalaşmasında dini-əxlaqi dəyərlərin rolunu qiymətləndirir.
**Məqsəd:** Dini-əxlaqi dəyərlərin birgəyaşayış qaydalarının formalaşmasındakı rolunu qiymətləndirir.

**Motivasiyanı** Ulu öndər Heydər Əliyevin "Hər xalqın öz adət-ənənəsi var, öz milli-mənəvi və dini dəyərləri var. Biz öz milli-mənəvi, dini dəyərlərimizlə və adət-ənənələrimizlə fəxr edirik" kəlamı ilə başlamaq olar. Şagirdlərin diqqətini bu kəlama cəlb etməklə onların əxlaq və dinlə bağlı münasibətlərini öyrənmək üçün suallardan istifadə etmək olar.

Paraqrafın nəzəri materialı ilə tanışlıq İNSERT, müzakirə və digər üsullarla aparıla bilər. Müzakirə zamanı ötən illərdə mənəviyyat və əxlaqi dəyərlərlə bağlı öyrəndikləri materialları xatırlatmaq olar. Müzakirələrdə bədii əsərlərdən nümunələrə, şəkillərə, elektron təqdimatlara da yer verə bilərsiniz. Həmçinin filmlərdən fraqmentlər göstərməklə dini-əxlaqi dəyərlərin önə çəkildiyi məsələləri müzakirə etməklə istədiyiniz nəticəyə çatmaq olar. Film nümayişi zamanı "Dağlarda döyüş", "Böyük dayaq", "Məhəmməd peyğəmbər" və s. bu kimi filmlərin fraqmentləri şagirdlər üçün növbəti motivasiya ola bilər.

**Tədqiqatın aparılmasını** "*Cəmiyyətin həyatında dini-əxlaqi dəyərlərin rolu nədən ibarətdir?*" sualı ilə reallaşdıra bilərsiniz.

Müzakirələr zamanı şagirdlərə şifahi olaraq **C** blokunda olan gündəlik həyatınızda əməl etməli olduğunuz "davranış qaydalarına aid nümunələr göstərin" tapşırığını da icra etdirmək olar. Bu zaman şagirdlərdən bəzilərini fərdi olaraq qaldırıb onlardan hər hansı nümunələrin sadalanmasını söyləmək olar. Sadalanan nümunələri şagirdlərin müzakirəsinə də verə bilərsiniz.

Müzakirə zamanı müxtəlif dinlərdə olan əxlaqi dəyərlər haqqında suallar verməklə şagirdlərin münasibətini öyrənmək olar. Məhəmməd peyğəmbərin "Bir iş görmək istəsən, sonunu düşün, sonu xeyirdirsə, ondan yapış, şərdirsə, fikrindən daşın" kəlamını əxlaqi dəyər kimi müzakirəyə qoya bilərsiniz.

**F** blokunda verilmiş tapşırıqları qrup və ya cütlərə vermək olar. Tapşırığın icrası bitdikdən sonra ümumiləşdirmə aparmaq, eləcə də nəticələrin çıxarılması üçün şagirdlərin iştirakı vacibdir. Sonda şagirdlər tədqiqat sualına cavab tapmalı, dini-əxlaqi dəyərlərin cəmiyyətin həyatına təsir etməsini qiymətləndirməlidirlər.

**Ev tapşırığı** kimi şagirdlərə **F** blokundakı 1-ci tapşırığın icrası tapşırıla bilər.

Qiymətləndirmə dərsin istənilən mərhələsində meyara uyğun aparılmalıdır.

**Qiymətləndirmə meyarı:** *qiymətləndirmə*

| I səviyyə | II səviyyə | III səviyyə |
|---|---|---|
| Dini-əxlaqi dəyərlərin birgəyaşayış qaydalarının formalaşmasındakı rolunu qiymətləndirməkdə çətinlik çəkir. | Dini-əxlaqi dəyərlərin birgəyaşayış qaydalarının formalaşmasındakı rolunu qiymətləndirərkən bəzi səhvlər edir. | Dini-əxlaqi dəyərlərin birgəyaşayış qaydalarının formalaşmasındakı rolunu asanlıqla qiymətləndirir. |

## III TƏDRİS VAHİDİ ÜZRƏ QİYMƏTLƏNDİRMƏ VASİTƏLƏRİNƏ DAİR NÜMUNƏLƏR

**1. Qeyri-formal münasibətləri seçin.**

1) ana–qız 2) ata–oğul 3) direktor–işçi 4) dostlar arasında
5) bacı–qardaş 6) rektor–tələbə 7) müəllim–müəllim

________________

**2. Xolerik tipinə aid olan insana hansı əlamətlər uyğundur?**

A) kəmhövsələlik, inadkarlıq, sadiqlik
B) sadiqlik, inadkarlıq, təmkinlilik
C) zirək, daim hərəkətli, maraqları tez-tez dəyişən
D) diribaş, həssas, yeni mühitə tez alışan
E) tələskən, qaradinməz, həssas

**3. İradə sanqvinik, Züleyxa xolerik, Zəhra melanxolik, Xədicə fleqmatik temperament tipinə malikdir! Onlardan hansı səninlə daha tez ünsiyyət qura bilər? Bunun səbəbini izah edin.**

______________________________________________

______________________________________________

**4. Hansılar özünəmünasibəti ifadə edir?**

1) zirək 2) tənbəl 3) əməksevər 4) eqoist 5) lovğa
6) səliqəli 7) qayğıkeş 8) şöhrətpərəst

________________

**5. Uyğunluğu müəyyən edin.**

| | |
|---|---|
| Səbirsiz | |
| Mehriban | Xolerik |
| İstiqanlı | |
| Kəmhövsələ | Fleqmatik |
| Tündməcaz | |

**6. İnsanlararası münasibətlərə təsir göstərən amillər hansılardır?**

______________________________________________________________

______________________________________________________________

______________________________________________________________

**7. "Xoş bir söz və günahları bağışlamaq əziyyətlə (minnətlə) verilən sədəqədən yaxşıdır" fikri hansı dini kitabda öz əksini tapır?**

A) Avesta
B) İncil
C) Tövrat
D) Qurani-Kərim

**8. Mənəvi borca aid olanı seçin.**

A) dərslərinizi yaxşı oxumaq
B) qocalara və böyüklərə hörmət etmək
C) yol hərəkəti qaydalarına əməl etmək
D) reproduktiv sağlamlığı qorumaq

**9. Müsbət əxlaqi keyfiyyətləri sadalayın.**

1. ____________________
2. ____________________
3. ____________________
4. ____________________
5. ____________________

**10. Mənfi əxlaqi keyfiyyətləri sadalayın.**

1. ____________________
2. ____________________
3. ____________________
4. ____________________
5. ____________________

# IV TƏDRİS VAHİDİ: TƏHLÜKƏSİZ VƏ SAĞLAM YAŞA

## TƏDRİS VAHİDİ ÜZRƏ REALLAŞDIRILMIŞ MƏZMUN STANDARTLARI

**4.1.1.** **Reproduktiv sağlamlığın qorunmasını sağlam həyat tərzinin əsas şərti kimi dəyərləndirir.**
**4.2.1.** **Təhlükəsiz davranış qaydalarına əməl etdiyini konkret situasiyalarda nümayiş etdirir.**
**4.2.2.** **Konkret situasiyalarda yol hərəkəti qaydalarından istifadə edir.**
**4.3.1.** **Fövqəladə halların nəticələrinin aradan qaldırılmasında birgə fəaliyyət bacarıqları nümayiş etdirir.**

## 1. SAĞLAM HƏYAT – SAĞLAM AİLƏ

**Alt standart:** 4.1.1. Reproduktiv sağlamlığın qorunmasını sağlam həyat tərzinin əsas şərti kimi dəyərləndirir.
**Məqsəd:** Reproduktiv sağlamlığın qorunmasını sağlam həyat tərzinin əsas şərti kimi dəyərləndirir.

Mövzunun əvvəlində lövhədə sxem qurula bilər. Sxemə "Sağlam olmaq üçün nə etməli?" yazaraq şaxələndirmək olar. Məsələn: şəxsi gigiyena qaydalarına əməl etməli, ətraf mühiti təmiz saxlamalı, zərərli vərdişlərdən uzaq olmalı və s. yazıla bilər. Şagirdlər sxemin boş qalmış hissələrini doldurmalıdırlar. Bu sxemi tamamlamaq üçün şagirdlərin aşağı siniflərdən Həyat bilgisi fənnindən sağlam həyat tərzi haqqında öyrəndiklərini yada salmaq lazımdır. Şagirdlərin fikirləri  reproduktiv sağlamlığın qorunmasına yönəldilməlidir.

**Motivasiya** məqsədilə şagirdlərə "*Zərərli vərdişlər hansılardır?*", "*Nə üçün zərərli vərdişlərə aludəçilik həm ailə, həm də cəmiyyət üçün təhlükəlidir?*" sualları ilə müraciət oluna bilər. Cavablar təxminən ailədə zorakılıq olmaması, cinslər arasında pis münasibətlərin yaranmaması, ailə münasibətlərinin pozulmasına səbəb olur və s. kimi qruplaşdırılmalıdır. Şagirdlərə bu qeyd olunanların reproduktiv sağlamlığın əsasını təşkil etdiyini söyləyərək, "*Reproduktiv sağlamlıq dedikdə başqa nələr nəzərdə tutulur?", "Nə üçün reproduktiv sağlamlığın qorunması sağlam həyat tərzinin əsas şərtidir?*" sualları ətrafında tədqiqat aparılmalıdır.

Standartın tələbini və reallaşdırılacaq təlim məqsədini əsas götürərək tədqiqat, hansı formada motivasiyanın qurulmasından asılı olmayaraq, sonuncu sual ətrafında aparılmalıdır.

**Tədqiqatın aparılmasına** sxemlə başlamaq olar. Bu məqsədlə elektron təqdimatdan, şəkillərdən və başqa əyani vəsaitlərdən də istifadə edə bilərsiniz. Bu zaman dərsi mühazirə deyil, daha çox diskussiya şəklində aparmaq vacib şərtdir. Şagirdlərin yaş xüsusiyyətlərini nəzərə alaraq şəxsi gigiyena ilə bağlı məsələlərə xüsusi diqqət yetirməniz vacibdir.

Şagirdlərə sağlam həyat tərzini şərtləndirən amillərdən olan reproduktiv sağlamlığın nə dərəcədə əhəmiyyətli olduğunu faktlar və nümunələrlə əsaslandırmağa, münasibət bildirməyə, öz fikirlərini faktlarla sübut etməyə imkan yaratmaq vacibdir.

**B** blokundakı tapşırığın müzakirəsi qruplarda aparıla bilər. Bu tapşırığın yerinə yetirilməsi üçün şagirdlər mətni araşdıraraq hansı amillərin vacib olduğunu müəyyən edə bilərlər. Bu zaman qruplardan birinə **F** blokundakı 2-ci tapşırığın icrasını da tapşıra bilərsiniz. Dərslikdə verilən şəkillərin də şagirdlərlə müzakirə olunması  maraqlı olardı.

**C** blokundakı mətn fasiləli oxu üsulundan istifadə olunaraq hər bir bənd müzakirə olunmalıdır.

Ev tapşırığı kimi şagirdlərə **F** blokundakı 1-ci tapşırıq verilə bilər. Ümumiləşdirməni aşağıdakı fikirlərlə tamamlamaq məqsədəuyğundur:

Sağlamlığınız onu necə idarə etmənizdən asılıdır. Biz böyüklər siz yeniyetmələrə hər bir zaman həyatınızda düzgün seçim etməkdə yardımçı olmaq istəyindəyik. Düzgün seçim isə sağlamlıq və məsuliyyətli davranışdır.

**Qiymətləndirmə meyarı:** *dəyərləndirmə*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Reproduktiv sağlamlığın qorunmasını dəyərləndirməkdə çətinlik çəkir. | Reproduktiv sağlamlığın qorunmasını dəyərləndirərkən səhvlərə yol verir. | Reproduktiv sağlamlığın qorunmasını müəllimin suallarını cavablandırmaqla dəyərləndirir. | Reproduktiv sağlamlığın qorunmasını faktlara əsasən dəyərləndirir. |

## 2. TƏHLÜKƏSİZ HƏYAT

**Alt standart:** 4.2.1. Təhlükəsiz davranış qaydalarına əməl etdiyini konkret situasiyalarda nümayiş etdirir.
**Məqsəd:** Məişətdə təhlükəsiz davranış qaydalarına əməl etdiyini nümayiş etdirir.

Şagirdlər bu mövzunun köməyi ilə insan sağlamlığına zərər yetirən qəzaların (evdə, küçədə, məktəbdə) baş verməməsi üçün hansı təhlükəsizlik qaydalarına əməl etməli olduqları bacarıqlarını formalaşdırmaqla yanaşı, onlarda sırf praktik bacarığın formalaşdırılmasına imkan yaradır. Bu dərsə başlamaq üçün **A** blokunda verilmiş motivasiyadan faydalana bilərsiniz. Bunun üçün şagirdlər əvvəlki illərdə Biologiya və Kimya fənləri üzrə əldə etdikləri biliklərə, həyat təcrübələrinə əsaslanmalıdırlar.

**Motivasiyanı** "*Evdə və məişətdə yaranan qəzalar hansı səbəblərdən baş verir?*" sualı ilə başlaya bilərsiniz. Bu zaman şagirdlər 6-cı sinif Həyat bilgisi fənnindən öyrəndikləri yıxılma, zəhərlənmə, elektrik vurması, kəsiklər, yanıqlar, yol qəzaları və s. haqqında məlumatlar xatırladıla bilər. Alınan cavabları lövhədə və yaxud da flipçartda çəkilmiş sxemdə qeyd etmək məqsədəuyğundur. Dərsin ümumiləşdirmə və nəticə mərhələsində bu fərziyyələrə qayıtmaq vacibdir.

**Tədqiqat** "*Məişətdə və ictimai yerlərdə hansı təhlükəsizlik qaydalarına riayət edilməlidir?*" sualı ətrafında aparılmalıdır. Lakin bu dərsdə nəzəri materialla kifayətlənməməli, standartın tələbi baxımından praktik bacarıqların formalaşdırılmasına çalışılmalıdır.

**C** blokunda verilmiş mətni şagirdlər fasiləli oxu üsulundan istifadə etməklə mənimsəyə bilərlər. Müzakirə zamanı təhlükəsizlik qaydalarına dair plakat, elektron təqdimat və videomateriallar nümayiş etdirilə bilər. Eyni zamanda şagirdlərə müxtəlif situasiyalar yazılmış tapşırıqlar da vermək mümkündür. Bu zaman tapşırığın şərtinə uyğun olaraq tədqiqat qrupda və cütlərlə aparıla bilər. **F** blokundakı tapşırıqlardan bu məqsədlə istifadə edə bilərsiniz. Tapşırıqların icrası zamanı şagirdlər həm verilmiş situasiyanın baş verməməsi üçün (bu, zədələnmə, yanma, zəhərlənmə, suda boğulma və s. ola bilər) hansı təhlükəsizlik qaydalarına əməl etməli olduqlarını müəyyənləşdirməlidirlər. Şagirdlərin hazırladıqları qaydaları sinifdə hər kəsin görə biləcəyi yerdə asmaq olar.

**Qeyd:** *Növbəti dərsin qurulması üçün şagirdlərin maraqlarını öyrənmək məqsədəuyğundur. Bu baxımdan hansı təhlükələrin baş verməməsi üçün əvvəlcədən nələrə diqqət edilməli olduğu haqqında şagirdlərin öyrənmək istədiklərini müəyyən etmək olar. Növbəti dərs üçün əlavə olaraq onların marağına müvafiq paylama materialı hazırlaya bilərsiniz.*

**Qiymətləndirmə meyarı:** *tətbiqetmə*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Təhlükəyə müvafiq davranış qaydalarına əməl etməkdə çətinlik çəkir. | Təhlükəsiz davranış qaydalarının bir qisminə əməl edir. | Təhlükəsiz davranış qaydalarına müəllimin köməyi ilə əməl edir. | Təhlükəyə müvafiq davranış qaydalarına düzgün əməl edir. |

## 3. TƏBİƏTİN CANLI TƏHLÜKƏLƏRİ

**Alt standart:** 4.2.1. Təhlükəsiz davranış qaydalarına əməl etdiyini konkret situasiyalarda nümayiş etdirir.

**Məqsəd:** İctimai yerlərdə təhlükəsiz davranış qaydalarına əməl etdiyini nümayiş etdirir.

Mövzunun tədrisinə **A** blokunda verilmiş motivasiya ilə başlaya bilərsiniz. Bunun üçün bu blokda verilmiş mətnə müvafiq olaraq videomaterialdan və yaxud elektron təqdimatdan istifadə edə bilərsiniz. Bu zaman şagirdlərin fikirlərini, əsasən, zəhərli ilanların, həşəratların sancmasına yönəltmək olar. Onların maraqlarını nəzərə alaraq başqa paylama materiallarından da istifadə etmək olar. Şagirdləri verilmiş suallar ətrafında müzakirəyə cəlb edib, onların fərziyyələrini lövhədə qeyd etmək məqsədəuyğun hesab olunur. Bu zaman şagirdlər müxtəlif fikirlər səsləndirə bilərlər.

**Motivasiyanı** aşağıdakı kimi də yarada bilərsiniz. Bunun üçün şagirdlərə "*İlan sancması zamanı hansı ilkin yardım tədbirləri həyata keçirilir?*", "*Bəs təbiətdə və ictimai yerlərdə başqa hansı canlı təhlükələrlə rastlaşa bilərik?*", "*Bu zaman nələri bilməliyik?*" sualları ətrafında müzakirə apararaq şagirdlərin fikirlərini qeyd etməniz məsləhət görülür. Bu məqsədlə lövhədə aşağıdakı cədvəli də qura bilərsiniz. Məsələn:

| İlanlar haqqında | Hörümçəklər haqqında | Əqrəblər haqqında |
|---|---|---|
| | | |

Bu zaman istiqaməti onların harada yayılması, nə zaman təhlükəli olmaları, ilanların zəhərli və zəhərsiz olmaları, nə zaman hücum edə biləcəkləri və s. haqqında bildiklərinə yönləndirmək lazımdır. Şagirdlərin qeyd etdikləri fikirlər onların fərziyyələridir. Dərsin ümumiləşdirmə və nəticə mərhələsində bu fərziyyələrə qayıtmaq vacibdir.

Növbəti addımda **B** blokundakı tapşırığın kollektivdə müzakirəsi təşkil oluna bilər. Bu filmdən kiçik epizodu da nümayiş etdirmək mümkündür. Müzakirə "Ağca xanımın yaxınları, əslində, necə davranmalı idilər?" sualı ətrafında təşkil olunmalıdır.

**C** blokundakı mətnlə tanışlıq bir neçə üsulla aparıla bilər (fasiləli oxu, kiçik qruplarda müzakirə, İNSERT və s.). Bu zaman aşağıdakı linklərdən istifadə etmək olar. Çox uzun bir videomaterial olduğunda sizə lazım olan bir hissə nümayiş etdirə bilərsiniz. Əgər videomaterialdan və yaxud elektron təqdimatdan istifadə imkanı yoxdursa, ən azı bu heyvanları nümayiş etdirin ki, şagirdlər onları tanısınlar.

**http://www.youtube.com/watch?v=zLWYysxwR2o** – Qafqaz gürzəsi

**http://www.youtube.com/watch?v=tndwq0c-atM** – Tarantul

**http://www.youtube.com/watch?v=u98ad2rECgg** – Zəhərli hörümçəklər

Unutmayın ki, reallaşdırılacaq standart praktik bacarıq tələb edir. Nəzəri materialın mənimsənilməsi ilə yanaşı, şagirdlərə tətbiqetmə imkanı yaradılmalıdır.

**Qiymətləndirmə meyarı:** *tətbiqetmə*

| I səviyyə | II səviyyə | III səviyyə |
|---|---|---|
| Təhlükəyə müvafiq davranış qaydalarına əməl etməkdə çətinlik çəkir. | Təhlükəsiz davranış qaydalarına, əsasən, əməl edir. | Təhlükəyə müvafiq davranış qaydalarına düzgün əməl edir. |

## 4. YOL HƏRƏKƏTİNİN NİZAMLANMASI

**Alt standart:** 4.2.2. Konkret situasiyalarda yol hərəkəti qaydalarından istifadə edir.

**Məqsəd:** Situasiyaya müvafiq yol hərəkəti qaydalarından istifadə edir.

Bu standart praktik bacarıq tələb etdiyindən onun reallaşdırılmasına 2 saat vaxt ayrılmışdır. 1-ci dərs saatında şagirdlər nəzəri materialı mənimsəməli, 2-ci dərs saatında isə müvafiq situasiyalar müəyyənləşdirərək rollu oyun şəklində nümayiş etdirə bilərlər. Və yaxud da İnformatika fənni üzrə əldə etdikləri bacarıqlara müvafiq videorolik hazırlaya bilərlər.

**A** blokundakı sualları cavablandırarkən şagirdlər Həyat bilgisi fənni üzrə aşağı siniflərdə əldə etdikləri bilik, bacarıq və müşahidələrinə əsaslanmalıdırlar. Bu zaman piyadaların əməl etməli olduqları yol hərəkəti qaydalarını da şagirdlərə xatırlatmaq yerinə düşər.

**Tədqiqat** "*Müxtəlif situasiyalarda hansı yol hərəkəti qaydalarına əməl olunmalıdır?*" sualı ətrafında aparılmalıdır.

**B** blokundakı tapşırığın icrası məqsədilə şagirdlərə başqa şəkillər də paylana və yaxud elektron şəkildə nümayiş etdirilə bilər. Şagirdlərin sayından asılı olaraq tapşırıq qruplarda və yaxud da cütlərdə icra oluna bilər. Bu zaman şagirdlərin, xüsusən də oğ-

lanların velosiped sürməyə olan həvəsini nəzərə alaraq **C** blokundakı mətnin fasiləli oxu üsulu ilə müzakirəsi təşkil olunmalıdır.

Şagirdlər üçün tapşırıqların, eyni zamanda dərs planının hazırlanması zamanı Azərbaycan Respublikası DİN-in Baş Dövlət Yol Polis İdarəsinin ümumtəhsil məktəbləri müəllimləri üçün hazırladığı “Yol hərəkəti qaydaları” adlı metodik vəsaitdən, şagirdlər üçün hazırlanmış “Yol hərəkəti əlifbası” adlı vəsaitdən istifadə edə bilərsiniz.

Mətnin nəzəri hissələri tapşırıqlarla tamamlanır. Bu tapşırıqları şagirdlər həm məntiqə, həm də öyrəndiklərinə əsasən yerinə yetirməlidirlər. Nəticə, təbii ki, müəllim tərəfindən müzakirə olunmalıdır.

Ev tapşırığı olaraq şagirdlərə qruplaşaraq hər hansı bir situasiya zamanı necə davranacaqlarını rollu oyun şəklində nümayiş etdirmələri tapşırıla bilər.

**Qiymətləndirmə meyarı:** *tətbiqetmə*

| I səviyyə | II səviyyə | III səviyyə |
|---|---|---|
| Yol hərəkəti qaydalarından istifadə etməkdə çətinlik çəkir. | Yol hərəkəti qaydalarının bir qismindən istifadə edir. | Yol hərəkəti qaydalarından situasiyaya müvafiq istifadə edir. |

## 5. BİR-BİRİMİZƏ DƏSTƏK OLAQ

**Alt standart:** 4.3.1. Fövqəladə halların nəticələrinin aradan qaldırılmasında birgəfəaliyyət bacarıqları nümayiş etdirir.
**Məqsəd:** Fövqəladə halların nəticələrinin aradan qaldırılması üçün yoldaşları ilə birgə fəaliyyət göstərir.

Bu standart da praktik bacarıq tələb etdiyindən onun reallaşdırılmasına 2 saat vaxt ayrılmışdır.

**Motivasiyanı** BİBÖ, şaxələndirmə, anlayışın çıxarılması üsullarından istifadə etməklə də yarada bilərsiniz. BİBÖ üsulundan şagirdlərin fövqəladə hadisələr, bu hadisələr zamanı davranış qaydaları haqqında bildiklərini cədvəlin I sütununda öyrənmək istədikləri “Ətrafdakılara necə dəstək olaq, onlara necə kömək edək” (Şagirdləri bu fikrə suallar vasitəsilə də yönəltmək olar) fikirlərini II sütunda, öyrəndiklərini isə dərsin ümumiləşdirmə və nəticə mərhələsində cədvəlin III sütununda yazmaq lazımdır.

Şaxələndirmə üsulundan istifadə zamanı aşağıdakı sxemə istinad edə bilərsiniz. Bu sxemi tamamlamaq üçün şagirdlər 6-cı sinif Həyat bilgisi fənni üzrə keçdiklərini yada salmalıdırlar. Lakin motivasiyaya 5-8 dəqiqədən çox vaxt ayırmayın. Çox vaxtınız alınmasın deyə halqaların sayını azalda da bilərsiniz. Çünki əsas məqsəd şagirdləri “*Bəs bu kimi fövqəladə hadisələr zamanı ətrafımızdakı insanları necə xilas edə bilərik?*”, “*Bunun üçün nələri bilməliyik?*” sualları ətrafında tədqiqata yönləndirməkdir.




**B1** blokundakı tapşırıq qruplarda icra oluna bilər. Bu zaman şagirdlər verilmiş evakuasiya planına əsasən öz məktəbləri üçün belə bir plan hazırlaya bilərlər. Hər bir qrupun hazırladığı plan müzakirə olunmalı və düzgün olmayan məqamlar qeyd edilməlidir. Bu dərs inteqrativ bir dərs ola bilər. Bu məqsədlə məktəbin Gənclərin çağırışaqədərki hazırlığı fənnini tədris edən müəllimi də dəvət oluna bilər.

**C** blokundakı nəzəri materialın fasiləli oxu üsulu ilə müzakirəsi təşkil oluna bilər. **C** blokundakı sxem müzakirə olunaraq **B2** blokundakı tapşırığın icrası növbəti dərsə saxlanılmalıdır. Bunun üçün siz şagirdlərin manqaların üzvlərini müəyyənləşdirmələrinə kömək edə bilərsiniz. Növbəti dərsdə isə şagirdlər lazım ola biləcək ləvazimatları və görəcəkləri işləri müəyyənləşdirərək Gənclərin çağırışaqədərki hazırlığı fənnini tədris edən müəllimin köməyi ilə də rollu oyun hazırlaya bilərlər.

**F** blokundakı tapşırıqlardan 1-ci və 2-ci dərs saatında istifadə etmək mümkündür. 2-ci tapşırıqlar evdə icra oluna bilər. **F** blokundakı 2-ci tapşırığı şagirdlər fərdi icra edərək sinifdə ümumiləşdirib hamının görə və tanış ola biləcəyi yerdə asa bilərlər.

**Qiymətləndirmə meyarı:** *tətbiqetmə*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Birgəfəaliyyət bacarıqları nümayiş etdirməkdə çətinlik çəkir. | Birgəfəaliyyət bacarıqları nümayiş etdirərkən müəllimin köməyindən istifadə edir. | Birgəfəaliyyət bacarıqları nümayiş etdirərkən qaydaların bir qisminə əməl edir. | Birgəfəaliyyət bacarıqları nümayiş etdirərkən situasiyaya müvafiq qaydalara əməl edir. |

## IV TƏDRİS VAHİDİ ÜZRƏ QİYMƏTLƏNDİRMƏ VASİTƏLƏRİNƏ DAİR NÜMUNƏLƏR

**1. Reproduktiv sağlamlığın qorunması hansı şərtlər daxilində mümkündür?**

1. ________________
2. ________________
3. ________________
4. ________________
5. ________________
6. ________________
7. ________________

**2. Reproduktiv sağlamlıqla bağlı məsələlər nə üçün qlobal hesab olunur?**

______________________________________________

______________________________________________

**3. Təhlükəsizlik baxımından ilanların hansı xüsusiyyətlərini bilmək lazımdır?**

______________________________________________

______________________________________________

**4. Velosiped sürərkən özünüzə və başqalarına təhlükə yaratmamaq üçün hansı qaydalara əməl olunmalıdır?**

______________________________________________

______________________________________________

**5. Piyada keçidinin yanında sürücü avtomobili saxlayaraq əli ilə yolu keçmək olar işarəsini verərsə, nə etmək lazımdır?**

______________________________________________

______________________________________________

**6. Yolda velosipedçiləri görən sürücü nə etməlidir?**

A) maşını sürətlə sürməli
B) maşının sürətini dəyişməli
C) onları ötüb-keçməyə çalışmalı
D) yolun sağına keçməli
E) yolun soluna keçməli

______________________________________________

______________________________________________

**7. Nə üçün velosipedçilərin 10 nəfərlik qrup halında hərəkət etməsi daha məqsədəuyğun hesab olunur?**

_______________________________________________

_______________________________________________

**8. Məktəbinizdə təbii fövqəladə hadisələr zamanı riayət etməli olduğunuz təhlükəsizlik qaydaları haqqında tədbir keçirilir? Bu tədbirin məqsədinə nəyi aid etmək düzgün olmaz?**

A) yanğın zamanı təhlükəsizlik qaydalarını
B) zəlzələ olarsa, təhlükəsizlik qaydalarını
C) sel olarsa, təhlükəsizlik qaydalarını
D) deşici alətlərdən qorunmaq üçün təhlükəsizlik qaydalarını
E) sunami zamanı təhlükəsizlik qaydalarını

**9. Məktəbə daxil olarkən yanıq iyi hiss etdikdə hansı qaydalara əməl olunmalıdır? Düzgün cavabları müəyyən edin.**

☐ fikir verməmək

☐ evə qayıtmaq

☐ məktəb həkiminə xəbər vermək

☐ yanıq iyi gələn yeri axtarmaq

☐ məktəb rəhbərliyinə xəbər vermək

**10. Hər hansı bir fövqəladə hadisə zamanı məktəb ictimaiyyətinə kömək etmək məqsədilə hansı manqaların yaradılmasına ehtiyac vardır?**

_______________________________________________

_______________________________________________

# İSTİFADƏ EDİLMİŞ VƏ MÜƏLLİMİN İSTİFADƏ EDƏ BİLƏCƏYİ MƏNBƏLƏR

**Azərbaycan dilində**


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2003.
2. Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə konsepsiyası. "Azərbaycan müəllimi" qəzeti, 6 fevral 2009.
3. B.Xankişiyev. "Sığorta". Bakı, 2005.
4. B.Xankişiyev. "Sığorta fəaliyyətinin əsasları". Bakı, 2006.
5. Ç.İsmayılov. "Xəzər dənizinin və sahilyanı ərazilərin ekologiyası". Bakı, Ayna Mətbuat evi, 2005.
6. D.Bağırov, M.Həsənli. "Mailiyyə". Bakı, 2011.
7. E.Kərimov, B.Osmanov. İqtisadi nəzəriyyə. Bakı, 2004.
8. Ekoloji siyasət. Bakı, 2008.
9. Ə.Abbasov. "Kurikulum islahatının əsas istiqamətləri". "Azərbaycan məktəbi" jurnalı, № 4, 2011.
10. Ə.Əlizadə. "Psixologiya". Bakı, 1989.
11. F.Əkbərov. "Ən böyük əxlaq". Bakı, 2004.
12. Fövqəladə hadisələrin təsnifatı (məlumat kitabı). Bakı, 2001.
13. "İnsan hüquqlarının tədrisi". Müəllimlər üçün proqram. Bakı, 2003.
14. Qurani-Kərim (tərcüməçilər: akad. Ziya Bünyadov və prof. Vasim Məmmədəliyev).
15. "Qida və sizin sağlamlığınız". Məktəblilər üçün tədris proqramı. Açıq Cəmiyyət İnstitutu. Bakı, 1999.
16. L.Q.Xodov. "Vergilər və iqtisadiyyatın vergi tənzimlənməsi". Bakı, 1997.
17. M.Əmirov. "İnsan və cəmiyyət". Ali məktəblər üçün dərs vəsaiti. Bakı, 2010.
18. M.Qasımov. "Sağlam həyat tərzi uğrunda". Bakı, 2005.
19. M.Mərdanov, F.Şahbazlı. "Azərbaycanın təhsil siyasəti (1998–2005)". I, II kitab. Bakı, "Təhsil", 2005.
20. "Məktəbdə vətəndaş təhsili". Metodik vəsait. Norveç Qaçqınlar Şurası. 2002.

21. N.Əkbərov. “Ailədə və cəmiyyətdə əxlaq və davranış qaydaları” (Ümumtəhsil məktəblərinin şagird və müəllimləri üçün vəsait). Bakı, “Bərəkət”, 2009.
22. N.Əkbərov. “Ailə və cəmiyyətdə əxlaq və davranış qaydaları”. Bakı, “Bərəkət”, 2010.
23. N.Novruzov, X.Hüseynov. “Maliyyə”. Bakı, 2007.
24. “Özünə və başqalarına kömək etməyi bacar” (Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi). Bakı, 2004.
25. R.Əliyeva, Q.Mustafayev, S.Hacıyeva. “Ümumi ekologiya”. Bakı, 2004.
26. R.Əliyev. İqtisadi təhlilin nəzəriyyəsi. Bakı, 2002.
27. S.C.Əliyev, H.M.Hacıyeva, N.C.Mikayılzadə. “Tibbi biliklərin əsasları”. Bakı, 2004.
28. S.Tağıyeva və b. “Həyati bacarıqlara əsaslanan təhsil”. Müəllimlər üçün tədris vəsaiti (V–IX siniflər). Bakı, 2006.
29. Ş.Ə.Topçiyeva, R.T.Qəndilov, S.Ş.Tağıyeva, Ş.Ə.Qocayev, G.N.Hacıyeva, N.Ə.Məmmədova, A.T.Hacıyeva və b. “Həyati bacarıqlara əsaslanan təhsil”. “Çaşıoğlu”, 2007.
30. “Təhsil haqqında Azərbaycan Respublikasının qanunu”. Bakı, “Çaşıoğlu”, 2009.
31. Yol hərəkəti qaydaları. Müəllimlər üçün metodik vəsait. Azərbaycan Respublikası DİN Baş Dövlət Yol Polisi İdarəsi. Bakı, 2001.
32. Yol hərəkəti əlifbası. İbtidai sinif şagirdləri üçün dərs vəsaiti. Azərbaycan Respublikası DİN Baş Dövlət Yol Polisi İdarəsi.
33. Z.Ə.Nadirov, D.B.Şirinova, T.D.Ağayev, R.R.Əhmədova, M.C.Səfərəliyev. “Atmosferə düşən zərərli maddələrin hesablanma əsasları”. Sumqayıt, 2005.
34. Z.Qaralov. “Tərbiyə”. III cild. Bakı, 2003.
35. Z.Veysova. “Fəal təlim metodları”. Bakı, 2007.

**Türk dilində**

36. Ahmet Hamdi Akseki. “Ahlak Dersleri”. İstanbul, 1968.
37. Delius, Harald. “Etik, Günümüz Felsefe Disiplinleri”. D.Özlem, İstanbul.
38. Sosial bilgiler dersi (5, 6, 7, 8-ci siniflər) ögretim proqramı. Ankara, 2005.

**İnternet resursları**


39. http://az.wikipedia.org/wiki/D%C3%B6vl%C9%99t
40. http://az.wikipedia.org/wiki/Az%C9%99rbaycan_Respublikas%C4%B1n%-C4%B1n_Konstitusiyas%C4%B1
41. http://az.wikipedia.org/wiki/%C4%B0nsan_haqqlar%C4%B1
42. http://az.wikipedia.org/wiki/%C4%B0qtisadi_inteqrasiya
43. http://az.wikipedia.org/wiki/%C4%B0nteqrasiya_%28d%C9%99qiql%C9%99%-C5%9Fdirm%C9%99%29
44. http://az.wikipedia.org/wiki/%C4%B0qtisadiyyat
45. http://az.wikipedia.org/wiki/Maliyy%C9%99
46. http://tr.wikipedia.org/wiki/Sigorta
47. http://az.wikipedia.org/wiki/Vergi
48. http://kayzen.az/blog/2791/insanlar-arasi-m%C3%BCnasib%C9%99tl%C9%99r.html
49. http://az.wikipedia.org/wiki/%C3%9Cmumd%C3%BCnya_insan_h%C3%-BCquqlar%C4%B1_b%C9%99yannam%C9%99si

## Buraxılış məlumatı

**HƏYAT BİLGİSİ 8**

*Ümumtəhsil məktəblərinin 8-ci sinfi üçün*
*Həyat bilgisi fənni üzrə dərsliyin*
**METODİK VƏSAİTİ**

**Tərtibçi heyət:**

Müəlliflər: **Məmmədova Nüşabə Əsəd qızı**
**Mahmudova Könül Faiq qızı**
**Bəhrəmova Sevil Şivəxan qızı**

Buraxılışa məsul **Rafiq Kazımov**
Dizayner **Nurlan Nəhmətov**
Səhifələyici **Gülşən Cabbarova**
Redaktor **Qurban Nuriyev**
Korrektor **Nübar Qarayeva**
Texniki redaktor **Sevinc Yusifova**
Baş redaktor **Ülkər Məmmədova**
Texniki direktor **Xəqani Fərzalıyev**
Nəşriyyat direktoru **Sevil İsmayılova**



**© Azərbaycan Respublikası Təhsil Nazirliyi (qrif nömrəsi: 2019-073)**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.



Hesab-nəşriyyat həcmi 4,5. Fiziki çap vərəqi 5. Formatı 70x100 $^{1}/_{16}$.
Səhifə sayı 80. Tiraj 7695. Pulsuz. Bakı – 2019

**“Şərq-Qərb” ASC**
**AZ1123, Bakı, Aşıq Ələsgər küç., 17**

*Pulsuz*